www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 sentyabr 2014-cü il Cümə axşamı № 239 (5948) Qiymməti 40 qəpik

**Xəbər**

## Ölkədə intihar dalğası: 1 nəfər damarını kəsdi, 2 nəfər boğazını

yazısı səh.14-də

**Gündəm**

### Obama Azərbaycandakı vəziyyətdən danışdı...ara qarışdı



ABŞ prezidenti ölkəmizin adını Rusiya, Çin və Venesuela ilə yanaşı çəkdi; YAP funksioneri ona Azərbaycan qanunlarını oxumağı məsləhət bildi

yazısı səh.7-də

*ABŞ mətbuatı:*

### "İŞİD Putini açıq şəkildə hədələyir"

yazısı səh.11-də

### Məşhur teleaparıcının cinayət dosyesindən yeni faktlar...

yazısı səh.13-də

### İlhamla Fərizənin məzarını təhqir edən həbs olundu

yazısı səh.12-də

### Müsavat başqanlığına namizədlər niyə Naxçıvana getmədilər?

yazısı səh.9-da

*Arif Hacılı:*

### "Heç vaxt heç kəsin arxasında gizlənməmişəm"

yazısı səh. 8 və 9-da

### Oğurluq avtomobillər Azərbaycana necə gətirilir?

yazısı səh.13-də

### Prokurorun şantaj etdiyi hakimin vəkili danışdı

yazısı səh.12-də

### Partiya sədrləri siyasi məhbuslarla görüşəcək

yazısı səh.5-də

### Bərdədə ana doğuş zamanı öldü

yazısı səh.14-də

### BTC-ni üç ölkənin ordusu qoruyacaq

yazısı səh.11-də

## Hüquq müdafiəçisi ilə bağlı böyük skandal

# LEYLA YUNUSU MAYOR YAQUBOV NİYƏ DÖYDÜ? - TƏFSİLAT

Vicdan məhbusunun vəkilləri həyəcanlı bəyanat verdilər; "mayor Yaqubov onu boş kameraya aparıb, saçından tutub yerə yıxaraq, sürüyüb, "ağıllanmırsan da, sən?" deyə, bağırıb; Penitensiar Xidmət iddiaları təkzib edir

yazısı səh.3-də




## Ziya Məmmədov "Avtovağzal" metro stansiyasının açılışına imkan vermir - səbəbi...

Nazir Bakı Metropolitenini də inhisara almaq niyyətindədir; stansiya açılsa, avtovağzaldan hərəkət edən "məmmədovçu" avtobusların gəlirləri kəskin düşəcək

yazısı səh.12-də



### Rusiyalı politoloqdan sensasiyalı Qarabağ açıqlaması

yazısı səh.11-də



### Əli Həsənov Qərbin Azərbaycanla bağlı tənqidlərinə cavab verdi

yazısı səh.4-də



*Elşad Abdullayev sükutu pozdu:*

### "O dünyadan göndərilən audioyazı saxtadır"

yazısı səh.4-də

# 25 sentyabr 2014

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014



# Putin Poroşenkoya hədələyici məktub göndərib

**Kiyev Avropa Birliyi ilə ticari anlaşmanın istənilən bir hissəsini reallaşdırsa, o zaman Rusiya özünün həyati vacib bazarlarını Ukraynanın üzünə bağlayacaq. Musavat.com-un "Reuters"ə istinadən verdiyi məlumata görə, belə bir ultimativ xəbərdarlıq prezident Vladimir Putinin Ukrayna dövlət başçısı Petro Poroşenkoya ünvanladığı məktubda əksini tapıb.**

Bundan əlavə, Putin xəbərdarlıq edib ki, Ukraynanın AB ilə ticari iş birliyi üçün milli qanunvericiliyə hər hansı düzəliş eləməsi dərhal Moskvanın cavab reaksiyasına səbəb olacaq. "Biz hələ də hesab edirik ki, assosiasiya haqda anlaşmanın yalnız Rusiya-Ukrayna iqtisadi əlaqələri və ümumən Rusiya iqtisadiyyatı üçün bütün risk spektrinin ciddiyə alınmaqla sistemli korrektirovkası imkan verəcək ki, iki ölkə arasında mövcud iqtisadi əməkdaşlıq səviyyəsi saxlansın" - Putinin məktubunda deyilir.

Məlumata görə, mümkün "qisas addımları"ın detallarına varmasa da, baş nazir Dmitri Medvedyev bəyan edib ki, rusiyalılar Ukrayna ixracatçılarının Rusiyaya girişinin qarşısını almağı qərarlaşdırıblar. Bildirilir ki, Rusiya tərəfdən rüsumların əhəmiyyətli şəkildə artırılması Ukraynaya hər il 3 milyard avroya başa gələ bilər.

# Moskva meri Bakıya ərzaq aparmağa gəlir

**Sentyabrın 25-də Moskva meri Sergey Sobyanin Azərbaycana səfər edəcək. Bu barədə musavat.coma daxil olan məlumatda bildirilir ki, Sobyaninin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfəri daha çox işgüzar xarakter daşıyır.**

Bildirilir ki, Moskva merinin Bakıdakı görüşləri zamanı əsasən Azərbaycanda yetişdirilən meyvə-tərəvəzin, digər kənd təsərrüfatı mallarının Rusiyaya, daha dəqiqi, Moskvaya ixrac edilməsinə dair sazişlər bağlanacaq.

Qeyd edək ki, Ukraynaya hərbi təcavüz etməsinə görə Avropa ölkələrinin sanksiyasına məruz qalan Rusiya çətin günlər yaşayır və düşdüyü vəziyyətdən keçmiş SSRİ respublikalarının hesabına çıxmaq istəyir.

Sobyaninin səfəri onu göstərir ki, Rusiya ilə Avropa arasında konfrontasiya hələ uzun sürəcək.

Bundan başqa, Azərbaycanın sovet dönəmində olduğu kimi Rusiyanın meqapolislərini ərzaqla təmin etmək öhdəliyi götürməsi ölkəmizdə müvafiq qida məhsullarının bahalaşmasına səbəb olacaq.

# Məmmədyarov Ermənistanın xarici işlər naziri ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanla görüşüb. Görüş sentyabrın 23-də BMT Baş Məclisinin 69-cu sessiyasında çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrlərinin iştirakı ilə keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən "Media forum" saytına verilən məlumata görə, görüşdə Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar davam etdirilib və prezidentlərin Parisdə keçirilməsi nəzərdə tutulan görüşünə hazırlıq məsələləri müzakirə olunub.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Cəbhəyə yaxın zonalarda könüllülərdən ibarət patrul dəstələri yaradılır

## Jurnalistlər cəbhə zonasına Müdafiə Nazirliyinin razılığı ilə gedə biləcəklər

**Prezident İlham Əliyev təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında sərəncam imzalayıb.**



APA-nın məlumatına görə, sərəncamda bildirilir ki, təmas xəttinə bitişik ərazilərdə təhlükəsizlik tədbirlərini gücləndirmək, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətinin sayı barədə məlumatların, eləcə də "Dövlət sirri haqqında" Qanuna görə dövlət sirri təşkil edən hərbi sahəyə aid digər məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaq məqsədilə təmas xəttinə bitişik ərazilərdə (bundan sonra - cəbhəboyu zona) müdafiənin möhkəmləndirilməsi, habelə əhalinin ayıq-sayıqlığının artırılması məqsədilə yaşayış məntəqələrində yerli əhali arasından könüllülərdən ibarət patrul dəstələrinin formalaşdırılması üçün zəruri tədbirlər görsünlər.

Nazirlər Kabinetinə tapşırılıb ki, jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydasını təsdiq edilsin.

Prezident Administrasiyasına cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında milli təhlükəsizliyə xələl gətirə bilən digər məlumatların yayılmasının yolverilməzliyi barədə izahat işinin, o cümlədən sosial şəbəkələrin imkanlarından daha səmərəli istifadə edilməsini, bu məqsədlə mətbuat xidmətlərinin işçiləri üçün müvafiq təkmilləşdirmə kurslarının təşkilini təmin etmək tapşırılıb.

Müdafiə Nazirliyinə isə cəbhəboyu zonadakı vəziyyət barədə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyən edib onların qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunmasının təşkil edilməsi barədə tapşırıq verilib.

Mətbuat Şurasına tövsiyə olunub ki, hərbi sahədə Azərbaycanın milli təhlükəsizliyinə xələl gətirə bilən məlumatların kütləvi informasiya vasitələrində və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədilə kütləvi informasiya vasitələri və əhali arasında təbliğat-izahat işini təşkil etsin.



# Mövsüm Səmədovun karser cəzası artırılıb

**Azərbaycan İslam Partiyasının həbsdə olan lideri Mövsüm Səmədov daha 7 gün karserdə qalacaq. Sentyabrın 24-də "mediaforum"a açıqlama verən partiya sədri Elçin Manafov deyib ki, Penitensiar Xidmətdən belə məlumat alıblar: "Biz karser cəzasının səbəblərini də öyrənmək istədik. Bu haqda heç nə deyilmədi. Mövsüm Səmədova təzyiqlərin qarşısının alınması üçün müraciət yaymışıq. Əgər müraciətə heç bir reaksiya olmasa, başqa sivil yollara əl atacağıq. Çünki Mövsüm Səmədovun vəziyyəti getdikcə daha da ağırlaşır. Ondan xəbər tuta bilmirik. Vəkili ilə görüşünə də icazə verilmir".**

Mövsüm Səmədov 2011-ci ilin yanvarından həbsdədir. O, hakimiyyəti zorla ələ keçirmə cəhdi və başqa ağır cinayətlərdə təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum olunub.

Partiya lideri sentyabrın 18-də 11 saylı cəzaçəkmə müəssisəsindən 12 saylı müəssisəyə köçürülüb. Həmin gün ona 5 sutkalıq karser cəzası verilib.

# DİN Mənsum Bayramovun nəyə görə tutulduğunu açıqladı

**Daxili İşlər Nazirliyi mətbuat xidmətinin şöbə rəisi Orxan Mansurzadə "mediaforum" saytının məhbus vəkil Mənsum Bayramovun işi ilə bağlı sorğusunu cavablandırıb. O deyib: "Mənsum Bayramov öz qulluq mövqeyindən və bir sıra vətəndaşların etibarından sui-istifadə etməklə onları aldadıb, dələduzluq yolu ilə əmlaklarını ələ keçirməklə həmin şəxslərə külli miqdarda ziyan vurub.**

Qeyd olunan faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb. İstintaq orqanı tərəfindən barəsində təqsirləndirilən şəxs qismində cəlb etmək haqqında qərar çıxarılmasına baxmayaraq Mənsum Bayramov istintaqdan qəsdən yayınıb və axtarışa verilib. O, polis əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində tutulub və məhkəmədə barəsində həbs-qətimkan tədbiri seçilib. Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir".

Mənsum Bayramov uzun illər AXCP Ali Məclisi Rəyasət Heyətinin üzvü olub. 49 yaşlı Mənsum Bayramov Bakı Dövlət Universitetinin məzunudur. 2007-ci ildən Vəkillər Kollegiyasının üzvüdür.

# Ermənistanda hərbi müşavirə

**Ermənistanın müdafiə naziri Seyran Ohanyan sentyabrın 23-də müdafiə strategiyasına yenidən baxılması prosesini əlaqələndirən idarələrarası komissiyanın iclasını keçirib. "Media forum" saytı "Armtoday.info"ya istinadla xəbər verir ki, yüksək rütbəli vəzifəli şəxslərin qatıldığı iclasda müdafiə strategiyasına yenidən baxılması prosesinin ikinci mərhələsinin yekunları qiymətləndirilib və müdafiənin strateji planlaşdırılmasının üsulları razılaşdırılıb.**

Silahlı müdafiənin kiçik qüvvə, əksmərkəzləşmə üsulu və çevik təşkil olunması üzrə yeni yollar və ideyalar təqdim olunub.

İclasda müdafiə strategiyasına yenidən baxılması prosesinin üçüncü mərhələsinə start verilib.

# Ömər Məmmədovun işi uzandı

**Sentyabrın 24-də Bakı Apelyasiya Məhkəməsi həbsdə olan bloqçu Ömər Məmmədovun şikayətinə baxışı təxirə salmaq qərarı verib. Vəkil Əlayif Həsənov AzadlıqRadiosuna deyib ki, ilkin apelyasiya baxışında məhkəmə istintaqının bərpa olunmasını, şahidlərin yenidən dindirilməsini istəyiblər: "Hakim razılaşmadığından ilkin qərardan Ali Məhkəməyə şikayət verdik. Bu gün elan etdilər ki, kasasiya şikayəti daxil olub, bu səbəbdən apelyasiya baxışı dayandırılır. Məhkəmə kassasiya şikayətinə baxılandan sonra davam edəcək".**

Əlayif Həsənov Ömər Məmmədovla görüşdüyünü, onun əhvalının yerində olduğunu bildirib: "Saxlanma şəraitindən narazılığı yoxdur. Əhvalı da yüksək səviyyədə idi".

Bakının Şüvəlan qəsəbəsindəki 3 saylı istintaq təcridxanasında saxlanan məhbus 2014-cü il yanvarın 24-də Bakıda tutulub. İstintaqın məlumatına görə, onun üstündən 6 qram heroin götürülüb. Müdafiəçiləri isə Ömər Məmmədovun bloqçu fəaliyyətinə, ictimai-siyasi aktivliyinə görə tutulduğunu iddia edirlər.

İyulun 4-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Ömər Məmmədov 5 il müddətinə azadlıqdan məhrum edilib.

Ömər Məmmədov Şimali Kipr Türk Respublikasında yerləşən Beynəlxalq Kipr Universitetinin tələbəsidir.

# ABŞ-ın Azərbaycandakı səfirliyi Uorlikin sözlərinə izahat verdi

**"ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Ermənistandakı mətbuat konfransında "Dağlıq Qarabağın de-fakto rəhbərliyinin də səsinin eşidilməsinə ehtiyac var" deyərkən, sülh danışıqlarında üçüncü tərəf kimi iştirak məsələsini nəzərdə tutmayıb".**

Bunu ABŞ-ın Azərbaycandakı səfirliyinin sözçüsü Nikolas Barnett APA-nın sorğusuna cavabında deyib. O bildirib ki, ABŞ-ın ATƏT-in Minsk Qrupunun danışıqlar formatını dəstəkləyən siyasəti dəyişməz qalır.

Məsələni araşdırdığını deyən səfirlik nümayəndəsi qeyd edib ki, "Tert.Am" saytının əməkdaşının cəbhədəki gərginlik və "Dağlıq Qarabağ" rejiminin gələcəkdə danışıqlarda tərəf kimi iştirakının mümkünlüyü barədə verdiyi suala Ceym Uorlikin cavabı belə olub: "Günahsız insanların müharibənin qurbanlarına çevrilməsi faciədir. Bu hal məni vadar edir ki, gərginliyə son verməyə çalışmaqla yanaşı, mülki insanlar arasında itkilərin qarşısını almaq üçün səylərimi artırım. Qurbanlar çox zaman dinc sakinlər, qadın və uşaqlar olur. Bu itkilərə son vermək üçün hər iki tərəf yollar tapmalıdır. Cəbhə xəttindəki insidentlər faciədir. Danışıqlarda Dağlıq Qarabağın de-fakto rəhbərliyinin də səsinin eşidilməsinə ehtiyac var. Məhz buna görə də həmsədrlər davamlı şəkildə Dağlıq Qarabağa səfər edir və de-fakto rəhbərliklə görüşürlər".

# Həsən Hüseynli Bakıya gətirilir

**"Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzinin rəhbəri Həsən Hüseynli Gəncədən Bakıya gətiriləcək. Məlumatı "Media forum" saytına vəkil Əlayif Həsənov verib. Onun sözlərinə görə, H.Hüseynli cəzaçəkmə müəssisəsinə köçürüləcək, amma müəyyən müddət Bakı İstintaq Təcridxanasında qalacaq.**

Gəncə İstintaq Təcridxanasında saxlanan Həsən Hüseynlinin işindən Ali Məhkəməyə şikayət verilib. Əlayif Həsənov bildirib ki, Həsən Hüseynli Ali Məhkəmədəki prosesdə özü də iştirak etmək istəyir. Ali Məhkəməyə şikayətdə iş üzrə icraata bəraətverici əsaslarla xitam verilməsi tələbi qoyulub.

Həsən Hüseynli silah təbiq etməklə xuliqanlıq və qanunsuz olaraq soyuq silah gəzdirmə ittihamı ilə məhkum olunub. Hökmə görə, QHT rəhbəri bu il martın 31-də Gəncə sakini Arzu Qəhrəmanovu bıçaqla yaralayıb. İyulun 14-də Gəncənin Nizami Rayon Məhkəməsi Həsən Hüseynlini 6 il müddətinə azadlıqdan məhrum edib və o, məhkəmə zalında həbs olunub. Sentyabrın 9-da Gəncə Apelyasiya Məhkəməsi hökmü qüvvədə saxlayıb.

# Hüquq müdafiəçisi ilə bağlı böyük skandal



# “Leyla Yunusu mayor Yaqubov niyə döydü?”

## Vicdan məhbusunun vəkilləri həyəcanlı bəyanat verdilər; “mayor Yaqubov onu boş kameraya aparıb, orada saçından tutub yerə yıxaraq, sürüyüb, ”ağıllanmırsan da, sən?" deyə, bağırıb; Penitensiar Xidmət iddiaları təkzib edir

**Həbsdə olan hüquq müdafiəçisi, hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan Leyla Yunus işgəncələrə məruz qalaraq döyülüb. Bu məlumatı sentyabrın 24-də musavat.com saytına hüquq müdafiəçisinin yaxınları verib. Həmin məlumatda iddia olunurdu ki, Leyla Yunus həbsxana əməkdaşlarının biri tərəfindən döyülüb. Həmin əməkdaşın kişi cinsinə mənsub olduğu və mayor rütbəsi daşıdığı iddia edilirdi.**

Məlum olduğu kimi, Leyla Yunus son günlər vəkilləri ilə əlaqəyə çıxmırdı və “ayaqları tutulduğu üçün” görüşə gələ bilmədiyi xəbərini göndərirdi.

Döyülmə barədə məlumat yayılandan az sonra Leyla Yunusun vəkilləri birgə bəyanat veriblər. Vəkillərin birgə bəyanatında qeyd olunur ki, 24 sentyabr 2014-cü ildə vəkil Fariz Namazlı və Cavad Cavadov növbəti dəfə Leyla Yunusun yanına gediblər. Vəkillər yalnız üçüncü cəhddən sonra xanım hüquq müdafiəçisi ilə görüşə bildiklərini və görüş zamanı L.Yunusun təcridxanada təzyiqlərə məruz qaldığının şahidi olublar.

Sitat: “Leyla xanımın bildirdiyinə görə, son günlər havalar soyuq keçdiyindən və isti su olmadığından o, soyuq su ilə çimməli olmuş, bunun nəticəsində bərk soyuqlayıb. Bir neçə gün qızdırmalı yatmalı olub. Bu duruma baxmayaraq, ona heç bir tibbi yardım göstərilməyib. Leyla xanım qızdırmalı yatdığı halda, sentyabrın 21-də onun kamerasında ”şmon" keçirilmiş və nəzarətçilər ciddi şəkildə hansısa yazılar axtarıblar".

Bundan başqa, bəyanatda qeyd olunur ki, axtarışdan sonra Leyla Yunusun yaxınları ilə telefonla danışmaq hüququna bir aylıq qadağa qoyulub. Leyla Yunusun özünün bildirdiyinə görə, bu həftənin 1-ci və 2-ci günü (sentyabrın 22 və 23-də) bərk qızdırması olduğu və yeriməyə halı olmadığından vəkillər Xalid Bağırov və Elçin Qəmbərovla görüşə gələ bilməyib. Bundan başqa, təcridxananın əməkdaşı Leyla Yunusa zorakılıq tətbiq edərək onu döyüb: “Leyla xanım onu da bildirib ki, sentyabrın 23-də günün ikinci yarısı Bakı İstintaq Təcridxanasının əməkdaşı mayor Yaqubov onun kamerasına gəlmiş, onun qolunu buraraq kameradan çıxarıb, kənarda olan boş kameraya aparıb, orada saçından tutub yerə yıxıb və yerdə sürüyüb. Bu zaman ona ”ağıllanmırsan da, sən?" deyə, bağırıb. Bundan sonra onun böyründən zərbələr endirib.

Müvəkkilin saçının yolunmuş olmasını vəkillər də müşahidə ediblər. Leyla Yunusun vəkilləri olaraq bu yaranmış durumun biabırçılıq hesab edir, bu cür hadisələrin yolverilməz olduğunu bildirir və aidiyyəti orqanlardan təxirəsalınmadan araşdırma aparmasını, təqsirli şəxslərin cəzalandırılmasını və Leyla Yunusa təcili müvafiq yardım göstərilməsini tələb edirik. Beynəlxalq Qırmızı Xaçın Bakıdakı nümayəndələrindən Leyla Yunusun təcridxanada yoluxulmasını rica edirik".

Müraciəti vəkillər: Elçin Qəmbərov; Fariz Namazlı; Cavad Cavadov; Xalid Bağırov, Əlayif Həsənov imzalayıb.

### “Leyla Yunus insan ləyaqətinə hörməti təmin edən şəraitdə saxlanılır”

**Ədliyyə Nazirliyi Penitensiar Xidməti isə xəbəri təkzib edib. Penitensiar Xidmətin mətbuat xidmətindən “Yeni Müsavat”a bildiriblər ki, Leyla Yunusun saxlanma şəraitində heç bir problem yoxdur:** “Leyla Yunus insan ləyaqətinə hörməti təmin edən şəraitdə saxlanılır. Bütün məhbuslar kimi o da həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının qorunması haqqında Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş qaydada saxlanılır”.

**Hüquq müdafiəçisinin döyülməsi barədə məlumata gəlincə, xidmətdən bunu da təkzib etdilər:** “Hər hansı təzyiqlərdən söhbət gedə bilməz”.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **KƏNAN**





# Anar Məmmədov-Rauf Arifoğlu məhkəməsi gündəmdə

## “Yeni Müsavat”da məhkəmə müzakirəsi keçirildi; vəkillər Məmmədovların “Yeni Müsavat”a qarşı şansı olmadığını deyir; Rauf Arifoğlu ictimai qınaq kampaniyasına hazırlaşır

**Sentyabrın 26-da, saat 11.30-da Xətai Rayon Məhkəməsində Anar Məmmədovun Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında qaldırdığı şikayəti üzrə hazırlıq iclası keçiriləcək. R.Arifoğlunun hüquqlarının müdafiəsi vəkillər Elçin Sadıqov və Cavad Cavadov tərəfindən həyata keçiriləcək.**

Daha bir yenilik isə “Yeni Müsavat” qəzetinin “məşhur ayı məsələsi” ilə bağlı Nizami rayon icra şöbəsinə qarşı qaldırdığı kassasiya şikayəti üzrə işin taleyidir. Sözügedən proses də oktyabrın 9-da Nizami Rayon Məhkəməsində, hakim Aslan Karbalıyevin sədrliyi ilə keçiriləcək.

Xatırladaq ki, nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir. Şikayət ərizəsinə 8 sentyabr 2014-cü il tarixində, saat 11.45-ə Xətai Rayon Məhkəməsinin hazırlıq iclasında baxılacağı nəzərdə tutulsa da, baş yazara bu barədə sənədlər sentyabrın 11-də, məhkəmədən 4 gün sonra çatdırılıb.

Sentyabrın 24-də “Yeni Müsavat” qəzetinin redaksiyasında yaranmış durumla bağlı müzakirə keçirilib. Qəzetimizin vəkilləri Cavad Cavadov və Vaqif Hüseyn, habelə eks - millət vəkili Pənah Hüseyn son durumu təhlil edərkən ortaya ilginc detallar çıxdı. C.Cavadov bildirdi ki, işə dərhal xitam verilməlidir. Vəkil bu günə qədər mediada Məmmədovların əməlləri ilə bağlı yazılardan ibarət dosye hazırladıqlarını bildirdi. Onun sözlərinə görə, bu faktlar Məmmədovlar ailəsinin ayrı-ayrı üzvlərinin əməlləri ilə bağlı ictimaiyyətdə onsuz da fikir formalaşdırır.

Müdafiə taktikasını açmamaq üçün müzakirə barədə ətraflı məlumat yaza bilmirik. Lakin görünən budur ki, vəkillər və ittiham olunan baş redaktor nikbindirlər və bu işi udacaqlarına əmindirlər.

C.Cavadov həmçinin nəqliyyat naziri Ziya Məmmədovun “Unikal” qəzetinə müsahibəsində də “Yeni Müsavat” qəzetinin əməkdaşı Fərahim İlqaroğlunun döyülməsi ilə bağlı fikir bildirdiyini yada saldı. Onun sözlərinə görə, nazir sözügedən müsahibədə jurnalistin döyülməsi ilə ailə üzvlərinin heç bir əlaqəsi olmadığını desə də, əslində müsahibədə ciddi detallar gizlənib. Vəkil hesab edir ki, bir çox hallarda məhkəmə çəkişməsi prinsipi pozulub.

Müzakirə zamanı həmçinin F.İlqaroğlunun döyülməsinin sifarişçisi kimi adı hallanan Aynar Məmmədovla bağlı bir önəmli detal da xatırladıldı. Məlum oldu ki, daha öncə Aynar Məmmədovun istintaqda dindirilmədiyi iddia edilsə də, daha sonra Daxili İşlər Nazirliyi bunu təsdiqləyən açıqlama yayıb.

“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu isə medianın iştirakı ilə ictimai qınaq kampaniyası başlayacaqlarını dedi. Bu cür mərhələlərdən çox keçdiklərini deyən baş yazar mediaya qarşı yersiz hücum edənlərin sonda məğlub olduqlarını da xatırlatdı.

**C.Cavadov isə bu işdə iddiaçı tərəfi heç bir perspektiv gözləmədiyini bildirdi.** "Fikrimcə, qarşı tərəf belə bir iddia ilə çıxış etməklə ciddi siyasi səhvə yol verib. Öz maraqlarına ziyan olan taktikanı seçiblər. Biz müdafiə zamanı əlimizdə olan bütün ciddi faktlardan istifadə edəcəyik".

❑ **Sevinc TELMANQIZI**

# Hikmət Hacızadə ilə REAL üzvü “atışdı”

## Politoloqun rus dilinin ölkədə “pilot dil” olması təklifi ortalığı qarışdırdı, Azər Qasımlı: “Gedin pensiyaya, yeriniz oradadır”

**REAL Hərəkatının İdarə Heyətinin üzvü Azər Qasımlı Müsavat Partiyasının Məclis üzvü Hikmət Hacızadəni kəskin tənqid edib. Belə ki, A.Qasımlı H.Hacızadənin AzadlıqRadiosunun “Pen klub” verilişində “rus bölməsi yaxşıdır, yoxsa Azərbaycan bölməsi” ətrafında açdığı müzakirədəki fikirləri ilə razılaşmadığını qeyd edib: “Hikmət bəy, xətrinizə dəyməsin, sizin bildiyiniz bir iş yoxdur. Bir daha 1992-də sizlərin nədən hakimiyyəti əldə saxlaya bilmədiyiniz məlum oldu. Allah eləməsin ki, bu hakimiyyətdən sonra sizlər hakimiyyətə gələsiniz. Nöqtə. Bir sözlə, gedin pensiyaya, yeriniz oradadır! Xalqımıza yazığım gəldi... Milli siyasət anlayışından uzaqdırlar. Tutuquşu kimi bir sözü on dəfə təkrarlayırlar, amma məzmun sıfırdır”.**


Hikmət Hacızadə

Teleqraf.com-un xəbərinə görə, H.Hacızadə tədrisin ana dilində olmasının vacibliyini vurğulasa da, söyləyib ki, mütləq şəkildə “pilot dil” olmalıdır: “Pilot dil”i olmasa, intellektual cəhətdən zəifləyəcəyik". H.Hacızadə deyib ki, E.Qədirli rus bölməsini qurtardığı üçün onun bu barədə danışmağa haqqı yoxdur.

E.Qədirli rus bölməsində təhsil alsa da, rus və ingilis dilinin xarici dil kimi keçirilməsinin tərəfdarı olduğunu deyib: “Rus bölməsində təhsil alanlar ruslaşırlar və ana dilində danışa bilmirlər, Azərbaycan dilində ancaq məişət səviyyəsində danışırlar. Rus bölməsində milli ruh yoxdur. Çoxdan rus bölməsi bağlanmalı idi. Əlifba və milli valyuta kimi radikal şəkildə bağlanmalı idi. Sovet vaxtı və bir müddət sonra da ”rus bölməsi Azərbaycan bölməsindən yaxşıdır" fikri hakim idi, Amma bugünkü halda o fərq həlledici deyil. Artıq Azərbaycan bölməsi rus bölməsini üstələyir. Burada türk liseylərinin, özəl kursların da rolu olub. Azərbaycan bölməsində tədrisin keyfiyyəti rus bölməsinin mövcudluğuna birbaşa bağlıdır. Rus bölməsi bağlanmayana qədər Azərbaycan bölməsində keyfiyyət artmayacaq".

**H.Hacızadənin “Dünyadan informasiyanı necə, hansı dildə alaq”,-** sualına E.Qədirli belə cavab verib: “Köhnə nəsil rus dilindən, yeni nəsil ingilis, fransız, alman dilindən, kim hansı dildən istəsə ala bilir”. **H.Hacızadə isə etiraz edib:** “İndi rus dilinə nə qədər vəsait xərclənibsə, bir o qədər ingilis dilinə xərcləmək lazımdır. Onu bacarırsınızmı, yoxsa onu da itirəcəyik, bu da gəlməyəcək. Əlimizdə Cəlil Məmmədquluzadə qalacaq".

Erkin Qədirli isə söyləyib ki, söhbət 200 ildə xərclənmiş puldan gedirsə, onu biz yox, Moskva xərcləyib...

**H.Hacızadə-Erkin Qədirli dialoqunu politoloq lağlağı müstəvisinə keçirib, buna isə E.Qədirli etiraz edib:** “Hikmət bəy, sizinlə ciddi danışmaq olmur, vallah, hər şeyə lağ qoyursunuz”. Sözügedən veriliş REAL-çı A.Qasımlının facebook divarında müzakirəyə çevrilib. H.Hacızadəyə istifadəçilər müxtəlif suallar ünvanlayıblar.

**“Ruslar oğurlayıb tərcümə edir, siz rusların oğurluğunu təqdir edirsiniz” sualını H.Hacızadə belə cavablandırıb:** “Bu gün rusların oğurlanmış məlumatlarından istifadə etməyə məcburuq. Əfsus ki, bu gün başqa çarəmiz yoxdur. Nə vaxt paramız olsa, onda ingilis dilinə keçərik, paramız olsa ingilis kitab və jurnallarını alarıq. Onlar isə təxminən 10 dəfə baha olacaq... Dövlətimizə mütləq ”pilot dil"i lazımdır, yoxsa geriləyəcəyik. Bu olmasa, dünyadan məlumat ala bilməyəcəyik".

**A.Qasımlı isə müzakirələrə bu şəkildə münasibət bildirib:** “...Çox halda da rusdillilər ana dilində danışanlara yuxarıdan aşağı baxırlar. Bakının ən dəbdəbəli, bahalı restoran və kafelərində menyular ana dilində deyillər, AZAL-ın reyslərində müştərilərlə rus dilində danışırlar və s. Uşaq bağçalarında da eyni vəziyyət müşahidə olunur. Azərbaycan dili sanki aşağı təbəqələrin, yəni sadə xalqın dili kimi qəbul olunur, rus dili isə elitanın, daha savadlı olanların, bir sözlə, seçilmişlərin dili kimi qavranır. Bütün bunları nəzərə alaraq biz hesab edirik ki, ana dilimiz aşağı təbəqənin dili səviyyəsindən elitanın və hər kəsin dili səviyyəsinə gətirilməlidir. Əgər bu dövlətin dili Azərbaycan dilidirsə, demək, onun yeri də buna uyğun olmalıdır”.

**A.Qasımlı qeyd edib ki, dövlət tərəfindən maliyyələşən orta məktəblərdə tədris yalnız ana dilində olmalıdır. Bunun yanında xarici dillər də tədris olunmalıdır:** “Bir sözlə, REAL hakimiyyətə gəldiyi ildən etibarən rus sektorlarına şagird qəbulu dayandırılacaq... Rus sektorlarında dərs deyən müəllimlər üçün Azərbaycan dili professional kursları açılacaq. Ölkədə bütün ticari obyektlər, apteklər və s. ana dilində xidmət göstərməli olacaqlar. Dərmanların reseptləri və tərkibi, texnikanın istifadə qaydaları, malların üzərində yazılar mütləq ana dilində olacaqlar”. O bildirib ki, rusdillilərin böyük əksəriyyəti rusiyameyillidir, rus mədəniyyətinin daşıyıcısıdır və bu gün Putinin idarə etdiyi Rusiyanın əsas güvəndiyi təbəqədir: “Bir sözlə, dil məsələsi strateji və təhlükəsizlik məsələsidir”.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014

# Əli Həsənov hakimiyyətə ünvanlı tənqidlərə cavab verdi

## "Xarici təşkilatların iddiaları obyektiv deyil və dövlətimizin müstəqil siyasətinə təzyiq göstərmək cəhdi kimi qiymətləndirilməlidir"

**Prezident Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "AzərTAc"a müsahibə verib. Müsahibəni təqdim edirik.**

***- Əli müəllim, son bir həftədə müxtəlif beynəlxalq qurumlar, ayrı-ayrı dövlət rəsmiləri, bir sıra xarici təşkilatlar Azərbaycanda insan haqlarının, söz və məlumat azadlığının vəziyyəti ilə bağlı müəyyən tənqidi fikirlər səsləndiriblər. Buna münasibətinizi bilmək istərdik.***

- Azərbaycan fundamental demokratik dəyərlərə sadiq, vətəndaş cəmiyyətinin inkişaf etdiyi və bütün azadlıqların qorunduğu bir ölkədir. Bu gün Azərbaycanda yüzlərlə qeyri-hökumət təşkilatı, kütləvi informasiya vasitəsi qanun çərçivəsində, heç bir məhdudiyyətlə üzləşmədən, sərbəst fəaliyyət göstərir, insanlar öz fikirlərini azad şəkildə ifadə edirlər, vətəndaş cəmiyyəti institutlarının, medianın inkişafına dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. Buna görə də insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlı Azərbaycan cəmiyyətinin, QHT sektorunun, yüzlərlə KİV-in ümumi rəyi nəzərə alınmadan, 3-5 nəfərin sifarişli məlumatı əsasında hazırlanmış belə açıqlamalar, bəyanatlar və sənədlər qərəzlidir, əsassızdır və subyektiv xarakter daşıyır.

Qeyd etmək istərdim ki, xarici fondlardan maliyyələşən bəzi yerli QHT-lər uzun illər ərzində qeyri-şəffaf fəaliyyət göstərmiş, qanunların tələblərinə məhəl qoymayaraq aidiyyəti dövlət orqanlarına heç bir hesabat verməmişlər. Hazırda Qərbin demokratik standartlarına uyğun olaraq, QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara müvafiq düzəlişlər və qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlər vətəndaş cəmiyyəti institutlarının şəffaf fəaliyyətinin, onların hesabatlılığının təmin edilməsi, bu sahədə mövcud pozuntuların aradan qaldırılması məqsədi daşıyır. Hesab edirik ki, istənilən sahədə şəffaflığın olmaması korrupsiya və digər qanun pozuntularına birbaşa yol açan başlıca şərtlərdən biridir. Təbii ki, qanunları pozmaqda şübhəli bilinən təşkilatların fəaliyyəti araşdırılır və faktlar təsdiqini tapdıqca, müvafiq ölçü götürülür. Bu isə öz növbəsində, xaricdən aldıqları milyonlarla qrant vəsaitini şübhəli məqsədlərə yönəldən və dövlət orqanlarının qanuni tələblərini qulaq ardına vuran ayrı-ayrı təşkilatları, ələlxüsus da onların "demokratiya carçısı" kimi çıxış edən xarici havadarlarını qane etmir. Belə demək mümkündürsə, "5-ci kolon" öz missiyasını yerinə yetirmək imkanlarından məhrum edilir ki, bu da nəticə etibarilə mövcud mexanizmləri yaradan dairələrin Azərbaycana təzyiq rıçaqlarını zəifledir. Hazırda bəzi xarici dairələrin və onların nəzarətində olan təşkilatların, medianın həddini aşan fəallığı da məhz bu amillə bağlıdır.



Təəssüf ki, müəyyən xarici dairələr insan hüquqları ilə bağlı təhrif olunmuş ayrı-ayrı halları ümumiləşdirərək müstəqil ölkələr barədə mənfi rəy formalaşdırmaq praktikasından geniş şəkildə yararlanırlar. Bu, düzgün yanaşma deyil. ABŞ Dövlət Departamentinin nümayəndəsi avqustun əvvəllərində Missuri ştatının Ferqyuson şəhərində vətəndaşların haqlı etirazlarına sərt şəkildə müdaxiləni, fövqəladə vəziyyətin elan olunmasını, silahdan istifadə, insan ölümləri, medianın, vətəndaş cəmiyyəti fəallarının hüquqlarının kobud şəkildə məhdudlaşdırılmasını ABŞ-ın daxili işi kimi xarakterizə etmişdi. Həmçinin ayrı-ayrı ekspertlər hökumətin həyata keçirdiyi sərt tədbirləri ictimai sabitliyi, cəmiyyətin təhlükəsizliyini təmin etməsi kimi qələmə vermişdilər. Ancaq bir gün öncə Nyu-Yorkda BMT-nin mənzil qərargahı qarşısında humanitar xarakterli dinc aksiyanın qəddarcasına dağıdılmasının da ictimai təhlükəsizliklə əlaqəli olduğuna inanmaq çətindir. Həmçinin ABŞ və Avropanın inkişaf etmiş ölkələrində jurnalistlərin təqib olunması, informasiya resurslarının izlənməsi, bloggerlərin həbsi və digər hüquq pozuntuları ilə bağlı kifayət qədər faktlar mövcuddur. Əlbəttə, bütün bu hallar ümumiləşdirilərsə, dünyanın ən inkişaf etmiş ölkələrində belə demokratiyadan əsər-əlamət olmadığı iddia edilə bilər. Sual olunur: nəyə görə Azərbaycanı tənqid edən məlum dairələr bu faktları ümumiləşdirərək həmin ölkələrdə demokratiyanın durumuna münasibət bildirmirlər? Təəssüf ki, bu ikili standartlar Qərbin bəzi dairələrinin hətta region ölkələrinə münasibətində də özünü açıq şəkildə büruzə verir.

Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, Avropa Parlamentinin bir neçə gün öncə qəbul etdiyi qətnamə, ABŞ-ın ATƏT-dəki və Avropa Parlamentindəki nümayəndəsi tərəfindən düzgün məlumatlandırılmayan prezident Barak Obamanın Klinton Qlobal Təşəbbüsünün illik toplantısında Azərbaycanla bağlı ifadə etdiyi fikir, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Varşavada keçirilən illik hesabat toplantısında səsləndirilən mülahizələr, habelə "Human Rights Watch", "Freedom House" və digər bu kimi xarici təşkilatların iddiaları obyektiv deyil və dövlətimizin müstəqil siyasətinə təzyiq göstərmək cəhdi kimi qiymətləndirilməlidir.

Həmin dairələrin nəzərinə çatdırmaq istərdik ki, hər bir hakimiyyətin, o cümlədən Azərbaycan iqtidarının qarşısında duran başlıca vəzifə xalqın milli maraqlarını, cəmiyyətin davamlı inkişafını və təhlükəsizliyini, ölkədə ictimai-siyasi sabitliyi, əmin-amanlığı təmin etməkdən ibarətdir. Azərbaycan müstəqil ölkədir, öz daxili və xarici siyasətini xalqın milli maraqlarına uyğun şəkildə həyata keçirir və heç bir halda tutduğu yoldan geri çəkilmək və kimlərinsə istəyinə uyğun hərəkət etmək niyyətində deyil.

# "O dünyadan göndərilən audioyazı saxtadır"

## Elşad Abdullayev sükutu pozdu: "Bu, zərərçəkmişi təzyiq altında saxlamağa hesablanıb"

**"Yeni Müsavat" qəzetinin ötən sayında "mandat alveri" qalmaqalının əsas fiquru, 2012-ci ilin dekabrın 26-da İstanbulda dünyasını dəyişən Sevinc Babayevaya aid olduğu bildirilən səs yazısı barədə yazmışdıq. 18 dəqiqəlik səs yazısında S.Babayeva ABU-nun sabiq rektoru Elşad Abdullayev barədə danışıb, eləcə də onun itkin düşmüş qardaşı Mahir Abdullayevin haqqında bilinməyənləri açıqlayıb.**

Sözügedən danışıqda S.Babayeva işarə verib ki, M.Abdullayevin ortadan yox olmasında qardaşı E.Abdullayevin də izlərini axtarmaq lazımdır. Bundan başqa, o, M.Abdullayevin MTN zabiti olması barədə deyilənləri də yalan adlandırıb. Mərhum S.Babayeva onun heç vaxt rəsmi formada olmadığını, işə gedib-gəlmədiyini, bütün günü ABU-dakı otağında oturduğunu deyib.

Sentyabrın 24-də isə E.Abdullayev bu səs yazısı ilə bağlı hazırladığı cavabı yazılı şəkildə "Yeni Müsavat" qəzetinə yollayıb. Təxminən 2 qəzet səhifəsi həcmində olan cavabda ABU-nun sabiq rektoru bu günə qədər yazdıqlarını bir daha təkrarlayıb. Oxucuların az qala əzbərlədikləri bu fikirləri yenidən tirajlamaq fikrindən uzaq olduğumuz üçün E.Abdullayevin ancaq məlum səs yazısı ilə bağlı yazdıqlarını nəzərinizə çatdıracağıq.

**E.Abdullayev öncə iddia edib ki, mərhum Sevinc Babayevanın səsinə oxşadılan "o dünyadan göndərilən audio səsi" həqiqətə uyğun olmayan saxta danışıqdır:** "Bu saxta səs zərərçəkmişi təhdid etməyə, böhtan atmağa, şərləməyə və təzyiq altında saxlamağa hesablanmış və saxtalaşdırılmış qondarma yazıdır. MTN zabiti Mahir Abdullayevin Azərbaycanda adam oğurluğu ilə məşğul olan poqonlu mütəşəkkil cinayətkar dəstə tərəfindən oğurlanmasını ört-basdır etməyə xidmət edir. Sevinc Babayevanı saxta səslə ictimaiyyətə təqdim edən şəxs məhz Mahir Abdullayevi bilavasitə oğurlayan şəxsdir".

**Sabiq rektor yazıb ki, bu günə qədər S.Babayevanın xeyli gizli video və səs yazılarını yayıblar. E.Abdullayevin sözlərinə görə, onun yaydığı faktlardan sonra hakimiyyət də ona qarşı süni video və audiomateriallar yaymağa başlayıb:** "Kriminoloji-hüquqi və psixoloji baxımdan bu qondarma saxta səs və gizli videogörüntülər bir daha təsdiq edir ki, Sevinc Babayevanın ölümünə qərar verilib və onu qəsdən planlaşdırıblar. Bu çıxışlardan düz 3 ay sonra - 26 dekabr 2012-ci il tarixində Sevinc Babayeva Türkiyədə planlı şəkildə qətlə yetirilir. Əsas şahid Sevinc Babayevanın qətli şübhə doğurmasın deyə onu zorla İstanbula - ölüm şəhərinə sürgün edirlər. Ailə üzvlərinin məhkəmə ifadələrindən məlum olur ki, o, Səlcuq Ağlayanın xüsusi rejimli ev dustağı olub, üstündə silah gəzdirən Səlcuq Ağlayan tərəfindən bir neçə dəfə döyülmüşdür. Bunu onun ailə üzvlərinin məhkəmə ifadələri və KİV-dəki etirazları da təsdiq edir. Sevinc Babayevanı zorla İstanbula yola salan da Fikrət və Gülər Əhmədovlar olub. İstanbulda onu himayə edən şəxs Səlcuq Ağlayan olub. Bu gün prokurorluq, məhkəmə orqanları nədənsə bilərəkdən Sevinc Babayevanın ölümünü ört-basır edirlər".



**E.Abdullayev həmçinin bu məsələ ilə bağlı S.Babayevanın oğlu Ayxan Məmmədovun daha öncə açıqlamasını yada salıb:** "O, 26 sentyabr 2012-ci il tarixli qondarma məktub (video) haqqında açıqlamasında bildirir ki, "anamı Gülər Əhmədova zorla məcbur etdi ki, Elşad Abdullayevin əleyhinə ifadə ver və danış". Kriminaloji - hüquqi baxımdan qondarma məktubun (video) yazılışı, məzmunu şərləmə dəst-xəttidir. Görünür, Sevinc Babayeva İstanbula göndərilməzdən öncə döyülüb, məktubu məcbur edib yazdırıblar. Bir sıra KİV-də və Sevinc Babayevanın anası məhkəmədə bir daha təsdiq edirdi ki, Gülər Əhmədova qızını bir neçə dəfə ayağının altına salıb döyüb. Rus dilində təhsil alan Sevinc belə məktub yaza bilməz, onu kimsə məcbur edib və qondarma məktub yazıb".

**Sabiq ABU rektoru onu da yazıb ki, S.Babayeva adından bu günə qədər yayılmış məktublar, eləcə də sonuncu səs yazısı qondarmadır. E.Abdullayev hesab edir ki, məhz özü tərəfindən yayılmış gizli videogörüntülər həqiqətə uyğundur və bunu heç kim inkar edə bilməz:** "Belə qondarma məktublar *(26.IX.2012 video və 22.II.2014)* və səs yazısı isə suda batanın saman çöpündən yapışması deməkdir".

**E.Abdullayev bir daha bu günə qədər M.Abdullayevin oğurlanması işində şübhəli bildiyi şəxslərin adını açıqlayıb. Xatırladaq ki, bunlar dəfələrlə "Yeni Müsavat" qəzetində dərc edilib. Sonda sabiq rektor ümidlərini də deyib:** "Ümid edirəm ki, haqq-ədalət gec-tez öz yerini tutacaq, əsas günahkarlar məhkəmə məsuliyyətinə cəlb olunacaqlar".

"Yeni Müsavat" olaraq sonda bir daha bildiririk ki, qəzetimizin ünvanına "Sevinc Babayevanın ölümündən öncəki səs yazısı" başlığı altında göndərilən səs yazısını, onun stenoqramını dərc etməklə qəzetçi borcumuzu yerinə yetirmişik. Necə ki, daha öncə E.Abdullayevin redaksiyamıza yolladığı səs və videogörüntüləri qəzetimizdə yayımlamışıq.

Sonuncu səs yazısının mərhuməyə aid olmaması ilə bağlı şübhələri isə yersiz hesab edirik. Çünki səs yazısındakı danışıqlar, danışanın səs tonu, danışıq üslubu S.Babayevanın daha öncə yayılan səs və videogörüntülərini xatırladır. "Yeni Müsavat" ümid edir ki, redaksiyamıza göndərilən səs yazısının bütöv versiyası da tezliklə bizə çatdırılacaq və bununla da sözügedən olaydakı sirr pərdəsi aralanacaq.

**Mövzunu davam etdirəcəyik.**

❑ **Sevinc TELMANQIZI**

# Müsavatın 8-ci başqanı seçiləcək yerdən reportaj

## Əmircandakı Mədəniyyət Sarayının şəraiti bərbad olsa da, rəhbərlik yüksək səviyyədə qurultay təşkil olunacağına inanır; partiya isə son hazırlıqlarını görür

**Sentyabrın 27-də Bakının bu qədim kəndi müasir Azərbaycan siyasətinin tarixinə düşəcək. Söhbət Suraxanı rayonu, Əmircan (Xilə) qəsəbəsindən gedir. Məhz qeyd olunan təqvimdə Müsavat Partiyasının 8-ci qurultayı keçiriləcək.**



Qurultay Əmircandakı Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayında baş tutacaq. Artıq partiya ilə mədəniyyət sarayının rəhbərliyi arasında müqavilə bağlanıb. Beləliklə, Müsavat 8-ci başqanını Əmircanda seçəcək.

Biz isə qurultay keçiriləcək məkanın hansı vəziyyətdə olduğunu öyrənmək məqsədilə sözügedən mədəniyyət sarayında olduq. İki mərtəbəli bina qəsəbənin mərkəzində yerləşir. Suraxanı Rayon İcra Hakimiyyəti, Heydər Əliyev Parkı və mədəniyyət sarayı bir-birinə yaxındır.

Hətta "Neftçi" klubunun təlim-məşq bazasına keçid də mərkəzin həyətindəndir. Bu ünvana gəlmək o qədər də çətin sayılmaz. Metronun "Qara Qarayev" stansiyasının yaxınlığından 113 nömrəli marşrut birbaşa qurultayın keçiriləcəyi yerin qarşısına gedir.

Üstəlik, paytaxtdan bir o qədər də uzaq deyil. Odur ki, qurultay nümayəndələrinə bu məkana getmək asan başa gələcək.

Amma eyni sözləri mədəniyyət sarayının vəziyyəti haqda söyləmək olmaz. Binanın içərisi təmirsiz, şəraitsiz, divarlar adamın üstünə gəlir, hər tərəf uçuq-sökükdür. Bina bayırdan yaxşı görünsə də, "üstü bəzək, altı təzək" deyimi sanki bura üçün söylənib.

İkinci mərtəbəyə qalxıb ayrı-ayrı otaqları gəzirik və yenə də şərait baxımından çox bərbad gündədir. İqtidarın Müsavata qurultay üçün verdiyi bu yerdə, əslində YAP-ın hansısa rayon təşkilatının adi bir iclası belə keçirilməzdi.

Çünki binanın içərisi yenidən əsaslı şəkildə təmir olunmalıdır. Bu yerdə mədəniyyətlə bağlı heç bir tədbir təşkil etmək olmaz. Adı mədəniyyətə bağlı olan bir sarayın içi bərbad gündədir, Mədəniyyət və Turizm İdarəsi əsaslı yenidənqurma ilə bağlı mütləq məsələ qaldırmalıdır.

Söhbət təkcə Müsavatın qurultayından da getmir, gələcəkdə Əmircanda mədəni-kütləvi tədbir olsa, bu yer qətiyyən münasib deyil. Hazırda Əmircan kəndində 53 küçə, 6 məktəb, 10 uşaq bağçası, 3 xəstəxana, 1 internat məktəbi, park, Səttar Bəhlulzadə adına Mədəniyyət Sarayı, stadion, Məşədi Əzizbəyov adına klub, A.Bakıxanov adına və Neftçilər kitabxanaları var.






A.Bakıxanov "Gülüstani-İrəm" əsərində öz doğma kəndinin adını "Əmir Hacan" yazıb. Tədqiqatçılar bu fikrə istinad edərək Məkkə ziyarətinə gedən zəvvarlara başçı təyin edilənə "Əmir Hac" deyilişini kəndin adına şamil ediblər.

"Əmir hac" ərəb sözü olub, tərcüməsi "Hacılar əmiri" deməkdir. Yəni böyük, başçı, bəy deməkdir. Yerli əhali isə kəndi Xilə adlandırır. Xilə kəndinin ərəb xilafəti zamanı sahibi, böyük mülkədar Əmir Nizaməddin XIV əsrdə Bakı mahalında çox hörmətli şəxs olub. Məşhur milyonçular Şəmsi Əsədullayev və Murtuza Muxtarov da Əmircanda yaşayıblar. İndi bu kənd Müsavatın 8-ci qurultayına ev sahibliyi edəcək.

**Mədəniyyət sarayının rəhbəri Vasif Rəhmanov iş yerində olmadığı üçün telefonla "Yeni Müsavat"a açıqlamasında qurultaya hazırlıqlar görüldüyünü qeyd etdi. V.Rəhmanov bildirdi ki, 600 nəfərdən çox insanın yerləşdiyi bu zalda yüksək səviyyədə qurultay keçiriləcəyinə inanır:** "Bizim tərəfimizdən nə lazımdırsa ediləcək, hazırlıqlar görülür və son günə qədər hər şey hazır vəziyyətə gətiriləcək. İnanıram ki, qurultay yüksək səviyyədə baş tutacaq.

Eləcə də Müsavat Partiyası yaxşı hazırlaşır, bir gün qalmış onlar da gəlib öz texniki işlərini görəcəklər. Burada işıqlandırma sistemi də var, kommunikasiya yerindədir, heç bir problem yoxdur. Artıq partiya ilə müqavilə bağlanıb və icarə haqqı üçün ödəniş edəcəklər".

Müsavat Partiyasının Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü Elman Fəttah "Yeni Müsavat"a açıqladı ki, qurultay prosedurunun təsdiqi üçün müzakirələr gedir. Onun sözlərinə görə, partiyanın Məclis və Mərkəzi Nəzarət - Təftiş Komissiyası üzvlüyünə namizədlərin siyahıya alınması, bülletenlərin hazırlanması prosesi davam etməkdədir.

**E.Fəttah bildirdi ki, qurultayda seçki prosesinin hansı prosedurla keçirilməsi istiqamətində təkliflər sənədi layihə şəklində təqdim olunub və müzakirə edilir:** "Müsavat Partiyasında qurultaya hazırlıq yüksək səviyyədə gedir. Artıq mədəniyyət sarayı ilə də müqavilə məsələsi yekunlaşmaq üzrədir. Hazırda qurultay iştirakçılarına dəvətnamələrin paylanması, səsvermə bülletenlərinin təşkili, plakat, nişangah, bayraq, dəftər və digər zəruri texniki məsələlərlə bağlı işlər görülməkdədir.

Eyni zamanda qurultayın keçiriləcəyi zala uyğun olaraq atributların hazırlanması nəzərdə tutulub. Bu yaxınlarda təşkilat komitəsinin üzvləri qurultay keçiriləcək yerdə olublar. Bilirsiniz ki, çox pis bir şəraiti var".

**E.Fəttahın fikrincə, belə bərbad şəraiti olan yerə tələb olunan icarə haqqı olduqca yüksəkdir:** "Sarayla müqavilə bağlandıqdan sonra icarə haqqı ödəniləcək. Hər saat üçün 220 manat istənilir. Qurultayın 8-9 saat keçirilməsi nəzərdə tutulub.

Ancaq vaxt uzana da bilər və əlavə ödəniş olunması istisna deyil. Sadəcə, belə bərbad şəraiti olan zal üçün çox yüksək qiymətdir. Hətta şəhərin mərkəzində olan bahalı "Kempinski" hotelində icarə haqqı 170 manatdır. Amma şəhərdən kənarda, dövlət balansında və şəraitsiz bir zalın saatını 220 manata icarəyə verirlər".

❑ **Emil SALAMOĞLU**
**Fotolar müəllifindir**

# Partiya sədrləri siyasi məhbuslarla görüşəcək

## Siyasi partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi proporsional seçki məsələsini gündəmə gətirir

**Sentyabrın 24-də Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin toplantısı olub. Mərkəzdən "Yeni Müsavat"a verilən xəbərə görə, toplantıda qurumun 17 sentyabrda keçirdiyi respublika konfransı müsbət dəyərləndirilib. Oktyabr ayında ikinci respublika konfransının keçirilməsi barədə razılıq əldə olunub.**



Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev və Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynə həvalə edilib ki, proporsional seçki sisteminin bərpasına dair ümumxalq referendumunun keçirilməsi təşəbbüsü haqqında işçi sənədləri hazırlayıb təqdim etsinlər. Eyni zamanda Azad Demokratlar Partiyasının sədri Süleyhəddin Əkbərə, Azadlıq Partiyasının sədri Əhməd Oruca və AXP sədri Pənah Hüseynə həvalə edilib ki, 2014-cü il bələdiyyə və 2015-ci il parlament seçkilərinə münasibətin müəyyənləşməsi məsələləri də daxil olmaqla, 2018-ci ilə qədər demokratikləşmə konsepsiyasının hazırlanması barədə təklifləri partiya sədrlərinin toplantısına təqdim eləsinlər.

Xəbərdə həmçinin deyilir ki, Mərkəz Avropa Birliyi Parlamentinin Azərbaycanda insan haqlarının vəziyyəti barədə ötən həftə qəbul etdiyi qətnaməsinə həsr edilmiş geniş tərkibli dəyirmi masanın keçirilməsini qərara alıb. Tədbir oktyabrın 8-də keçiriləcək.

Mərkəz hazırda həbsdə olan vəkil İntiqam Əliyevin müdafiə etdiyi və işləri Avropa Məhkəməsində olan şəxslərin toplantısının keçirilməsini tövsiyə edib. Son günlər siyasi məhbuslara, o cümlədən Leyla Yunus, İntiqam Əliyev, Mövsüm Səmədov, Taleh Bağırzadə, Fərəc Kərimli və digərlərinə həbs yerlərində təzyiq göstərilməsi barədə yayılan informasiyalarla əlaqədar partiya sədrlərinin həmin siyasi məhbuslarla görüşməsinə şərait yaradılması üçün ədliyyə naziri Fikrət Məmmədova müraciət edilməsi məqsədəuyğun sayılıb.

Toplantıda KXCP, Müsavat, ADP, Ümid, ALDP, Azadlıq, Böyük Azərbaycan, Azad Demokratlar, VİP və AXP-nin liderləri iştirak edib.

❑ **E.SEYİDAĞA**

# Mən kimə səs verəcəm?



**Xalid KAZIMLI**

**Cəmi 5 gündən sonra Müsavat camiəsini sarmış seçim ehtirası soyuyacaq. Amma indi onun qızğın vaxtıdır və ehtiraslar soyuq ağlı üstələyib. Başqanlığa namizədlərin ətrafında qruplar yaradılıb, mətbuatda dəstəkçilər qrupunun siyahıları dərc olunub, tanınmış adamlar hansı namizədi dəstəklədiklərinə dair bəyanatlar verirlər.**

Burası dəqiqdir, indiyədək Azərbaycan siyasətində belə şey olmamışdı. Heç bir partiya öz yeni rəhbərinin seçkisini ümumxalq müzakirəsinə, medianın, sosial şəbəkənin polemikasına çıxararaq seçməyib.

Bu, bir ilkdir. Ancaq hər bir yeniliyin müsbət cəhətləri olduğu kimi, mənfi tərəfləri də var.

2000-ci ildə keçirilən parlament seçkilərində proporsional qaydada namizədləri müəyyənləşdirmək üçün partiyanın daxilində keçirilən ilkin seçkilərin yaratdığı ajiotaj və gərginlik hələ də xatırlanır.

O zaman Müsavatın bütün strukturları hərəkətə gəldi, partiyaya güclü axın oldu, təşkilat xeyli gücləndi, amma liderlərin arasında yaranan umu-küsü uzun müddət davam etdi, bəzi problemlər hələ də sürür.

Başqanlıq seçkisi də o cür nəticələnəcək. Bu qruplaşma, dördtirəlik xeyirliyə deyil.

Bunu demokratiyanın təzahürü kimi qələmə vermək olar, amma əndazələrin aşılması da bariz görünür.

Namizədlər bir-birinin əleyhinə danışmasalar da, onların tərəfdarları danışır, hətta yazırlar.

Kənardan durub ortalığı qarışdıranlar da az deyil. Onlar özlərini elə göstərirlər ki, guya Müsavatın xeyrini istəyirlər, amma elə deyil, onlar heç kimdən yana deyillər, davadan yanadırlar.

Müsavatın üzvü olmayan, hətta bu partiyaya dost münasibəti ilə seçilməyən, əksinə, onu özünə rəqib sayan şəxslər partiyanın yeni başqanı rolunda bu və ya digər namizədi gördüklərini bəyan edir, ortalığı daha da qızışdırmaq istəyirlər.

Bu posta iddia edən namizədlərin dördü də müsavatçıdır və hər biri sınaqlardan çıxıb gəlib, fədakar, prinsipial, əzabkeş insanlardır.

Ancaq başqan postu elə bir mövqedir ki, onu tutmaq istəyən şəxs çoxsaylı üstün keyfiyyətlərə malik olmalıdır, bir çox kriteriyalara cavab verməlidir.

Ən ümdəsi o şəxs istər partiyanın daxilində, istərsə də tərəfdarlar, təəssübkeşlər arasında ciddi dəstək qazanmalıdır. Onun başqanlığı partiyadan qopmalara səbəb olmamalıdır, əksinə, indiyədək tərəddüd edənlərin partiyaya meyllənməsinə rəvac verməlidir.

Başqan vəzifəsi kiməsə indiyədək göstərdiyi xidmətlərə görə mükafat olaraq təqdim edilə bilməz. Bu məsələdə keçmişə yox, gələcəyə baxmaq gərəkdir.

Partiya üzvləri və tərəfdarlar korpusu yeni başqanın partiyanı hara aparacağını, uğura necə çatdıracağını bilməlidir.

Həm də elə bir qənaət yaradılmamalıdır ki, yeni başqan bir ilin içində partiyanı hakimiyyətə gətirməsə, deməli, seçim uğursuz olub.

Namizədlərin tərəfdarları arasında gedən polemika artıq durdurulmalıdır. Elə bir vəziyyət yaranıb ki, bir müsavatçı fəal Azərbaycan cəmiyyətinin sırf müsbət obrazda qəbul etdiyi veteran müsavatçılardan birinin reputasiyasına yönəlik ittihamlar irəli sürür.

Halbuki o adam nəinki Müsavatın, hətta bütün ölkənin minnətdar olduğu 3-5 ictimai-siyasi xadimdən biridir.

Bunu belə edən seçki ehtirasıdır, seçilmək əzmidir. Ancaq bu ölkədaxili seçki deyil, partiyadaxili seçkidir və əgər tərəflərdən biri qalib gələcəyi təqdirdə öz qələbəsini təvazö çərçivəsinə salmasa, əzici lovğalıq göstərsə, bu sadəcə partiyanın sarsılmasına gətirib çıxaracaq.

Məgər bunu bilmək çoxmu çətindir? Elə bir situasiya yaradılmalıdır ki, kimin başqan seçilməsi "ölüm-dirim", "ya onlar, ya biz", "son şans" səciyyəsi almasın, uduzanlar da, udanlar da qısa müddətdən sonra umu-küsünü unudub eyni tavanın altında qala bilsinlər.

Bundan ötrü bir-birini sözlə yaralamaqdan çəkinmək lazımdır. Min illərdir, sübut olunmaqdadır: Söz yarası sağalmır. 22 il qabaq bir-birinə acı söz deyən iki nəfər var, bir yerdə türmədə də yatıblar, qardaş kimi olublar, jarqonla desək, "xlebnik"lik ediblər *(bu, əsgər yoldaşı olmaqdan daha ötə bir dostluqdur)*, amma 1993-cü ildə bir-birinə dedikləri acı sözü də unuda bilmirlər.

Ən azı, Siyavuş Novruzovun Müsavata dair əttökən proqnozlarını doğruldub, onun özündənrazı halda yeni bir müsahibə verməsinə səbəb olmaq lazım deyil.

İndi gələk, başlıqdakı sualın cavabına. Müsavatın qurultayında səsvermə gizli olacaq və mən də Müsavat başqanı olmaq istəyən müsavatçıya səs verəcəyəm. Bu qədər sadə. Onun kim olmasının isə elə də önəmi yoxdur.

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014

# Hamımız qardaşlaşaq - dövlətçilik naminə!




**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu 2014-cü il mayın 7-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı ilə yarandı. Avropanın əksər ölkələrində eyni funksiyanı yerinə yetirən cəmiyyətlər var. Maarifləndirmək dünyəvi və əbədi missiyadır. Bilik Fondu bütün fəaliyyətini bu missiya çərçivəsində qurub. Əhalinin elmi biliklərinin artırılması, Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi və dini dəyərlərin təbliği, ölkənin daxili və xarici siyasətinin mahiyyətinin ictimaiyyətə ətraflı çatdırılması Bilik Fondunun əsas fəaliyyət istiqamətidir.**

Bilik Fondunun ölkəmizin tanınmış və dəyərli ziyalılarından ibarət olan Himayəçilik Şurası Fondun fəaliyyətinə yaxından köməklik göstərirlər. Himayəçilik Şurasının sədri AMEA-nın prezidenti akademik Akif Əlizadə Fondun fəaliyyəti ilə maraqlanaraq öz tövsiyələrini verir. Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, Himayəçilik Şurasının üzvü akademik Kamal Abdullayev mütəmadi olaraq fondun əməkdaşları, ekspertlər şurası ilə görüşür, fondun fəaliyyətinin daha effektiv şəkildə qurulması üçün layihə icraçılarına treninqlər keçir. Qeyd etmək lazımdır ki, bu gün fondun həyata keçirdiyi bir sıra layihələrin ideya müəllifi olan akademik Kamal Abdullayev həm də icra olunan layihələrin birbaşa iştirakçısıdır.

"Dini abidələrdə tarixin izləri", "Auditoriya+", "Ustad və şəyird", "Docendo discimus", "Yaradıcılıq fakültəsi", "Epizod", "Məscid kitabxanası", "Azərbaycan elmi xəricdə", "Dünya elmi Azərbaycanda" layihələrinin adı görülən işlərin mahiyyətini açır.

Bilik Fondu ilk layihəsini - "İlboyu bilik" proqramı çərçivəsində "Qardaşlaşmış məktəblər" layihəsinin birinci mərhələsini sona çatdırıb. Müxtəlif bölgələrin 20 məktəbi arasında Qardaşlaşma müqaviləsi imzalanıb, akademiklər, professorlar, elmlər namizədləri, diplomatlar Bilik Günü 70-dən çox məktəbdə dərs keçiblər. Layihə paytaxtın və regionların bütün KİV orqanlarında geniş təqdim edilib.

Ciddi nəticələrin əldə olunduğunu görmək üçün qəzetləri vərəqləmək, saytları oxumaq, televiziyalara baxmaq kifayətdir. Yayılan informasiyalarla bilgilənə bilməyənlərin tapılacağı ehtimalı az da olsa var. Ona görə, "İlboyu bilik" layihəsində mühazirələr deyən Bilik Fondunun tanınmış lektorlarının prosesə necə qiymət verdiklərini öyrəndik.

Suallarımızı ilahiyyatçı-alim Nəriman Qasımoğlu, jurnalist-tələtənqidçi, professor Qulu Məhərrəmli, filologiya elmləri doktoru professor Nəsir Əhmədli, jurnalist-alim Etibar Babayev cavablandırdılar. Həmçinin layihəyə cəlb olunan məktəblərin direktor və şagirdlərinin də təəsüratlarını soruşduq.

### "Bilik Fondunun layihələri maariflənmə işinə ciddi impuls verəcək"

Bilik Fondu Azərbaycan cəmiyyətinin maariflənməsində hansı rolu oynayacaq?

**N.Qasımoğlu:**

- Əlbəttə, belə bir fondun yaradılması, özü də Azərbaycan Respublikası Prezidenti yanında bir təsisat kimi gəlişdirilməsi cəmiyyətin maariflənməsi üçün yaxşı perspektiv vəd edir: gənclərimizin biliklənməyə olan həvəsi, üstəgəl bu istəyi qarşılamağa hazır elm adamlarımız, üstəgəl bu məsələdə dövlət dəstəyi - bərabərdir yaxşı perspektiv. İnanıram ki, bu düsturun reallığını dərk edən Bilik Fondu üzərinə düşəni edəcək və ziyalılarımızın hər zaman müqəddəsliyini vurğuladığı maarifçilik işinə öz töhfəsini verəcək.

**Q.Məhərrəmli:**

- Bəşər tarixinin təcrübəsi göstərir ki, cəmiyyət, millət, bilik və təhsilsiz irəli gedə bilməz. H.B.Zərdabinin hələ 140 il əvvəlki çağırışı bu gün də aktualdır: tərəqqi etməyən millətlər oxumuş və təhsilli millətlərin qulu olacaqdır. Bu baxımdan Bilik Fondunun başladığı miqyaslı layihələr Azərbaycan cəmiyyətində, xüsusən gənclər arasında maariflənmə işinə ciddi impuls verəcək. Bizim cəmiyyətimizin bilik almağa, maariflənməyə artıq bir iş kimi baxdığını müşahidə edirəm. Ona görə də vətəndaşlarımızın əksəriyyətinin elementar biliyi və dünyagörüşü yoxdur.

**N.Əhmədli:**

- Başqa ölkələrlə müqayisədə Azərbaycan cəmiyyətinin maariflənməyə daha çox ehtiyacı var. Buna görə də Bilik Fondu vaxtında yaradılmış bir qurumdur *(Bəlkə də bir az gecikib)*. İnanıram ki, Bilik Fondu öz işini tam elmi əsaslarla quracaq, təkcə yerlərə mühazirəçilər göndərməklə yetərlənməyib, maarifləndirmə prosesinin daha geniş miqyas alması və real müsbət nəticə əldə edilməsi üçün hər bir sahəni əhatə edən "Ümummilli İnkişaf Doktrinası" (ÜMİD) hazırlayacaq, onun uğurla gerçəkləşdirilməsi üçün faydalı tövsiyələr verəcək. Mən çox istərdim ki, Bilik Fondunun özünün mətbuat orqanları, radio və televiziya kanalı olsun.

**E.Babayev:**

- Bilik Fondunun Azərbaycan cəmiyyətinin maariflənməsində hansı rolu oynayacağını zaman göstərəcək. Amma Fondun məramı aydın, ilk addımları, təşəbbüsləri isə uğurludur.

### "Onlar yazılmamış kağıza bənzəyirdilər"

Bilik Fondunun "İlboyu bilik" proqramında iştirak etmisiniz. Sizinlə birlikdə 70 tanınmış alim Azərbaycanın bütün rayonlarında müxtəlif məktəblərdə dərslər apardılar. Sizin üçün uçqar bir kənd məktəbində şagirdlərin qarşısında mühazirə demək necə idi?

**N.Qasımoğlu:**

- Dərsim Yevlax şəhərinin mərkəzi məktəblərindən birində, 5 saylı məktəbdə, həm də təkcə şagirdlərin deyil, şəhərin bəzi ziyalıları və müəllimlərin də iştirak etdiyi bir auditoriyada keçdi. Onu da qeyd edim ki, məktəbin bu il ali məktəblərimizə yüksək ballarla daxil olmuş çoxsaylı məzunlarından biri Prezident təqaüdçüsüdür. Yeri gəlmişkən, audotoriyanın gənclərini elmə, təhsilə ruhlandırmaq üçün məruzəmin bir hissəsini M.F.Axundovun "Mənim millətimin fitri istedadı Avropa millətlərinin fitri istedadından qat-qat artıqdır" kəlamı işığında qurdum. Böyük mütəfəkkir maarifçi Axundov bu sözlərini təhsilsizliyin, cəhalətin, qaranlığın, mövhumatçılığın hökm sürdüyü bir zamanda demişdi və millətinin fitrətində kodlaşdırılan bu istedadı yaxşı duyurdu. Yaxşı bilirdi ki, azərbaycanlılar təhsil və elm almaq imkanlarından faydalana biləcəkləri zaman dünyaya hansı nümunələr göstərə biləcəklər. Tarixi nümunələr də var: SSRİ Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri Kərim Kərimov, SSRİ nüvə reaktorlarının qəbulu üzrə Dövlət Komissiyasının sədri Abbas Çayxorski, Rusiyada şərqşünaslıq elminin banisi Mizə Kazımbəy, hazırda qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, dünya şöhrətli Lütfi Zadə və b. Düşünürəm ki, azərbaycanlıların maariflənməsinə qoyulan sərmayə bərəkət gətirəcək və bu qəbildən nümunələri artıracaq sərmayədir...


Qulu Məhərrəmli


Etibar Babayev


Nəsir Əhmədli

**Q.Məhərrəmli:**

- Çoxdan idi ki, orta məktəbdə sinif otağına girmirdim, mənə bir az qəribə gəldi, şagirdlərin maraq dolu baxışları məni də keçmiş məktəb illərimə qaytardı. Tələbələrdən fərqli olaraq, şagirdlərin müəllimə daha maraq və hövsələ ilə qulaq asmaqlarından məmnun oldum. Qobustan rayonundakı 2 nömrəli məktəbin yuxarı sinif şagirdləri ilə görüşdüm, Azərbaycanın müstəqilliyinə beynəlxalq təhlükələr haqqında danışdım. Verilən suallardan hiss etdim ki, mövzu şagirdlərin ürəyincə olub, onların bəzən sadəlövh, bəzən də çox çətin suallarına cavab vermək mənim üçün qeyri-adi situasiya idi.

**N.Əhmədli:**

- Şagirdlər qarşısında mühazirə demək çox maraqlı idi. Onlar yazılmamış kağıza bənzəyirdilər, yəni mənim hər bir fikrimə son dərəcə böyük maraqla yanaşır, daha çox bilik əldə etmək istəyirdilər. Mən mühazirəmi ixtisasıma uyğun olaraq "Azərbaycan jurnalistikası bu gün və sabah" mövzusunda qurmuşdum. Mühazirə interaktiv formada idi. Şagirdlərin maraqlı sualları və təklifləri oldu. Dedilər ki, biz test üsulu ilə qəbul imtahanına hazırlaşdığımıza görə bədii ədəbiyyatla, inşa yazıları ilə yetərincə məşğul ola bilmirik. Bu il yüzlərlə abituriyent jurnalist olmaq arzusunu bildirsə də, yalnız 42 nəfər yazılı qabiliyyət imtahanından müsbət qiymət almışdır. Bu barədə düşünməyə dəyər.

**E.Babayev:**

- Mənim üçün mühazirə çox maraqlı keçdi. Elə bilirəm ki, auditoriya da məndən narazı qalmadı. Əslində bu cür görüşlər qarşılıqlı faydalı olur. Bu görüşdə mən sadəcə dərs demədim, mən də dərs aldım. Fondun bu təşəbbüsü həm də nəsillər arasında körpünü möhkəmlədən amildir.

### "Övladlarımız bir-biri ilə dövlətçilik zəminində qardaşlaşsın"

Bilik Fondu Sizin iştirak etdiyiniz "İlboyu bilik" proqramı çərçivəsində "Qardaşlaşmış məktəblər" layihəsini həyata keçirdi. Siz rayonda olanda artıq layihənin birinci mərhələsi başa çatmışdı. "Qardaşlaşmış məktəblər" layihəsinin yerlərdə əks-sədası hansı səviyyədə idi?

**N.Qasımoğlu:**

- Bu layihənin də mahiyyət etibarilə uğurlu bir layihə olduğuna inanıram. Strateji baxımdan bu, həm də onu təmin edə bilər ki, bəzi azərbaycanlı şagirdlər yad təsirlərdən sığortalanıb təriqətçilik zəminində "qardaşlığa" çəkilməsin, ən müxtəlif bölgələrdən olan övladlarımız bir-biri ilə dövlətçilik zəminində qardaşlaşsın...

**Q.Məhərrəmli:**

- Mən hər iki layihənin gerçəkləşməsini çox diqqətlə izləyirəm. Üzü gülən, biliyə həvəs göstərən, gələcəyimizə ləyaqətlə sahib çıxmaq üçün səy göstərən Azərbaycan övladlarının enerjisinin faydalı bir məcraya yönəldilməsinə çox sevinirəm. Bizim məktəblərin çoxunda dərslər yaxşı keçirilir, amma şagirdlərimizin ümumi dünyagörüşü bəsitdir. Onların çoxunun öz Vətəni, öz şəhəri, eləcə də yaşadıqları cəmiyyət haqqında məlumatları olmur. Bu baxımdan məktəbləri qardaşlaşdıran Bilik Fondunun layihəsini orijinal və effektli addım sayıram.

**N.Əhmədli:**

- Mən məktəbə çatan kimi onların hansı məktəblə qardaşlaşdıqlarını soruşdum. Öyrəndim ki, bu məktəb Bakı Slavyan Universitetinin nəzdindəki Məktəb-lisey Kompleksi ilə qardaşlaşıb. Həm direktor, həm də müəllimlər bunun çox gözəl təşəbbüs olduğunu dedilər. Hələ də Tovuzda o xoş ovqat qalmışdı.

**E.Babayev:**

- Mən dərsimi dedim, şagirdlərin sualalrına cavab verdim. Öz kitablarımdan məktəbin kitabxanasına hədiyyə etdim, xatirə olaraq şagirdlər və müəllimlərlə şəkil çəkdirdik. Rayon rəhbərliyi ilə görüşdük. Onlara öz təəssüratlarımı bildirdim. Söhbət əsnasında gördüm ki, "Qardaşlaşmış məktəblər" layihəsini həm şagirdlər, həm də yerli ziyalılar yüksək qiymətləndirirlər. Təşəbbüsü hamı razılıqla qarşılayıb.

### "Vəzifəli şəxslər də sinifdə oturub dərsə qulaq asırdılar"

- Bilik Fondunun lektorları kimi rayonlarda Sizi necə qarşıladılar?

**N.Qasımoğlu:**

- Gözlənildiyi kimi, çox yaxşı. Ölkədəki dini durum, çox konfessiyalı Azərbaycan reallıqları, tolerantlıq ənənələri, bu ənənələrin qorunub saxlanması üçün vacib maarifçilik tədbirləri, eləcə də ibadət yerlərinin mövhumatçılıqdan, xurafatdan uzaq maarifçilik işinə verməli olduğu dəstəyin zərurəti, dindarların rayonun mədəni-ictimai həyatına inteqrasiya olunması, uyğun layihələrə cəlb olunması, ekoloji və başqa qəbildən fəaliyyətlərdə yer alması vacibliyinə və bütün bunların teoloji əsaslandırılmasına dair səsləndirdiyim fikirlər auditoriya iştirakçılarının maraqlı müzakirəsinə səbəb oldu...

**Q.Məhərrəmli:**

- Getdiyim Qobustan rayonunda məni çox səmimi qarşıladılar, təbii ki, efirdən tanınmağımın da buna müəyyən təsiri var idi, rayon İcra hakimiyyəti başçısının müavini səviyyəsində diqqət göstərildi. Bəzi vəzifəli şəxslər də icazə alıb sinifdə oturub dərsə qulaq asırdılar. Təbii ki, ən gözəl nüans şagirdlərin adamı diqqətlə, maraqla izləməsi idi.

**N.Əhmədli:**

- 2014-cü il sentyabrın 14-də Tovuz şəhərinə gedib Bilik Fondunun nümayəndəsi, Mahir Ələkbərov adına Tovuz şəhər tam orta məktəbinin direktoru Namiq Əliyevlə görüşdüm. Ertəsi gün görəcəyimiz işləri planlaşdırdıq. Sentyabrın 15-də Sovet Kazımov adına Qovlar şəhər tam orta məktəbinə gedib direktor Rahilə Yusifova və bir neçə başqa müəllimlə tanış oldum. Məni yüksək səviyyədə qarşıladılar. Türkel TV-dən operator və reportyor gəlmişdi. Mənim mühazirəmin bir hissəsini lentə aldılar.

**E.Babayev:**

- Məni Azərbaycan xalqının adət-ənənələrinə uyğun şəkildə, çox isti qarşıladılar.

### "Bilik Fondu şəffaf fəaliyyət göstərir"

- Dünyanın hər yerində mühazirəçilər qonorar alırlar. Sizin əməyinizi fond dəyərləndirdimi?

**N.Qasımoğlu:**

- Bəli. Yaxşı nümunədir. Arzu edərdim başqa təsisatlar, o cümlədən ekspert rəyindən istifadə edən kütləvi informasiya vasitələri də dünyanın hər yerində olduğu kimi müəllifə qonorar ödənilməsi məsələsini bir fəaliyyət norması kimi qəbul etsin.

**Q.Məhərrəmli:**

- Əslində birinci dəfə şagirdlərə mühazirə oxumaq təklifi olanda və qonorar adı çəkiləndə mən orta məktəbə qonorarsız da getmək razılığını vermişdim *(Vaxtilə Müdafiə Nazirliyinin zabitləri üçün belə pulsuz silsilə mühazirələr oxumuşdum)*. Lakin səfərdən qabaq mühazirəçilərin ümumi toplantısında olanda anladım ki, fond mühazirəçilərə təkcə dəyər vermir, həm də qonorar ödəyir. Ona görə də məbləği məni tamamilə qane edən qonorarı aldım.

**N.Əhmədli:**

- Bəli, yolpulu və qonorar verdilər. Təşəkkür edirəm.

**E.Babayev:**

- Bu məsələ fond tərəfindən ilk gündən şəffaf şəkildə qurulub. Yəni, tərəflər arasında müqavilə bağlanılır və hərə öz öhdənliyini yerinə yetirir. Şəxsən məni bu fəaliyyətimin maddi qiymətləndirilməsindən daha çox mənəvi tərəfi maraqlandırırdı. Onu da yuxarı sinif şagirdləri ilə görüşümdə ən yüksək şəkildə aldım.

"Bilik Fondu şəffaf fəaliyyət göstərir"

- Dünyanın hər yerində mühazirəçilər qonorar alırlar. Sizin əməyinizi fond dəyərləndirdimi?

N.Qasımoğlu:

- Bəli. Yaxşı nümunədir. Arzu edərdim başqa təsisatlar, o cümlədən ekspert rəyindən istifadə edən kütləvi informasiya vasitələri də dünyanın hər yerində olduğu kimi müəllifə qonorar ödənilməsi məsələsini bir fəaliyyət norması kimi qəbul etsin.

Q.Məhərrəmli:

- Əslində birinci dəfə şagirdlərə mühazirə oxumaq təklifi olanda və qonorar adı çəkiləndə mən orta məktəbə qonorarsız da getmək razılığını vermişdim (Vaxtilə Müdafiə Nazirliyinin zabitləri üçün belə pulsuz silsilə mühazirələr oxumuşdum). Lakin səfərdən qabaq mühazirəçilərin ümumi toplantısında olanda anladım ki, Fond mühazirəçilərə təkcə dəyər vermir, həm də qonorar ödəyir. Ona görə də məbləği məni tamamilə qane edən qonorarı aldım.

N.Əhmədli:

- Bəli, yolpulu və qonorar verdilər. Təşəkkür edirəm.

E.Babayev:

- Bu məsələ fond tərəfindən ilk gündən şəffaf şəkildə qurulub. Yəni, tərəflər arasında müqavilə bağlanılır və hərə öz öhdənliyini yerinə yetirir. Şəxsən məni bu fəaliyyətimin maddi qiynmətləndirilməsindən daha çox mənəvi tərəfi maraqlandırırdı. Onu da yuxarı sinif şagirdləri ilə görüşümdə ən yüksək şəkildə aldım.

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014



# Şagirdlər direktor olsun

Zamin HACI
zaminhaci@mail.ru

**Dövlət aparatında gəncləşdirmə işləri sürətlə davam etməkdədir. Əgər yapistlər 21 il qabaq hakimiyyətə gələndə vəzifədə ancaq bir gənc insan var idisə (o da Surət Hüseynov idi - 34 yaşında baş nazir olmuşdu), hazırda 2 məktəbə dövlət dili ilə desək, "müvafiq olaraq", adam dilində yazsaq "uyğun olaraq" 28 və 29 yaşında iki direktor qoyulmuşdur.**

Hərçənd yapistlərin bu uğurlu kadr islahatlarından danışanda insaf naminə AXC-Müsavat cütlüyünün hakimiyyət dönəmini də unutmayaq. Onların hakimiyyətdə olduğu yüz il ərzində *(məcburuq belə fikirləşək, çünki təbliğat o hakimiyyətin əsrlərlə davam etməsi istiqamətində gedir)* 20-30 yaş arası gənclərin nəinki yerli icra strukturlarında, polis və prokurorluqda, orduda vəzifə tutması adi hal sayılırdı, hətta Prezident Aparatı, Nazirlər Kabineti kimi yüksək qurumlarda gənclər çoxalmışdı. Məsələn, Əli Kərimli dövlət katibi olanda 28 yaşında idi. O cümlədən, ərazi idarəetməsi üzrə dövlət müşaviri vəzifəsi 30 yaşlı Arif Hacılıya tapşırılmışdı.

Ancaq biz yenə də 28-29 yaşlı cavan qızların məktəb direktoru qoyulmasına müsbət yanaşırıq. Qoca məktəb direktorları artıq qıvraqlığı itirmək üzrədir, görürsən prezident, deputat seçkisi zamanı məktəbdə yaradılan məntəqədə prosesi yaxşı yola vermirlər. Gah əllərində topa bülleten tutulurdu, gah saçı yolub müxalifətdən, ATƏT-dən gələn müşahidəçinin üstünə atmaqda ləngiyirdilər. Halbuki bizim konstitusiyanın 54-cü maddəsində açıq-aydın yazılıbdır: "Yaxşı məntəqə sədri lazım olan anda tumanı başına keçirtməyi bacaran sədrə deyilir". İndi ümidvarıq gənclər daha əzmlə çalışacaqdır, partiya və dövlət rəhbərliyinin onlara göstərdiyi etimadı doğruldacaqdır. Hətta asudə vaxtlarında ola bilsin məktəbin idarə olunması, uşaqlara düzgün dərs keçilməsi kimi əlavə, köməkçi vəzifələrini də uğurla, cığırla, çığır-bağırla həyata keçirəcəklər. Gərək insan ağa ağ, qaraya qara desin. Biz hökumətin müsbət işlərini də görürük.

İntəhası, bir az mənfi cəhətdir ki, məktəblərdə kişi müəllimlərin, kişi cinsindən olan direktorların sayı azalır. Bu, bizim Qarabağ dərdimizə mənfi təsirini göstərəcəkdir. Çünki məktəb direktoru kişi olanda uşaqları daha yaxşı şapalaqlayır, onları döyüşçü kimi tərbiyə edir. Son illərdə qadın müəllimlərin çoxalması *(son statistikaya görə müəllimlərin 80 faizi zərif cinsdir)* məktəblərdə oğlan uşaqlarının da bambılı kimi təlim-tərbiyə almasına səbəb olur. Şəxsən mən metroda, avtobusda, ictimai yerlərdə zənən kimi qaqqıldayan yeniyetmələrə rast gələndə dilxor oluram, fikirləşirəm bunun axırı necə olacaq, bəs Fikrət Qoca İsa bulağında şeiri necə yazacaqdır.

Hər halda, gəncləşdirmə siyasətini dəstəkləyirik. Söz düşmüşkən, mən icra hakimiyyətlərində mütləq bir-iki qadın müavin qoyulması aksiyasını da alqışlayıram. Düzdür, funksionallıq baxımından heç bir təsiri yoxdur, misal üçün, suyumuz yenə gəlmir, ancaq biri var icra hakimiyyətinə şikayətə gedəndə səni tunc dövründən qalma neandertal erkək qarşılaya, biri də var girəsən icra hakimiyyətinə, görəsən masanın arxasında huri-mələk kimi bir xanım əyləşib. Mələk şikayətə rədd cavabı verəndə o qədər dilxor olmazsan.

Qayıdaq məktəb direktorlarının gəncləşdirilməsi siyasətinə. Məncə, təzə təhsil nazirimiz Mikayıl müəllim bu uğurlu aksiyanı davam etdirməli, daha azyaşlı şəxslər direktor qoyulmalıdır. Misal üçün, nədən növbəti məktəb direktoru 18 yaşında olmasın? İsti-isti, partadan təzə durmuş gənc məktəbin problemlərini də daha yaxşı bilir. Yadımdadır, biz orta məktəbdə oxuyanda hasarın harasındakı deşikdən dərsdən qaçmaq üçün yararlanmaq olar, siqaret çəkməyə ən gizli yer haradır, jurnalı necə oğurlayıb qiymətləri "lezvalamaq" lazımdır tipli tədris suallarını müəllimlərdən yaxşı qavramışdıq. Elə məktəblilərin özünü direktor qoymaq olar. Vallah. Bəzən məktəb yollarında elə şagirdlər görürəm, şəxsən Məzahir Pənahovu seçkiyə bülletensiz aparıb protokolsuz gətirər.

**İndi söz özünüz bilirsiniz kimindir.**

# "Heç vaxt heç kəsin arxasında gizlənməmişəm" - Arif Hacılı

## Müsavat başqanı postuna iddiaçı: "Bizim 21 ildə uğur qazanmamağımız haqqında deyilən fikirlərlə razılaşmıram"

**Müsavat Partiyasının qurultayına sayılı günlər qalır. Sentyabrın 27-də keçiriləcək qurultayda Müsavata yeni başqanın seçiləcəyi faktı ali toplantıya ictimai marağı daha da artırıb. Başqanlıq uğrunda isə məlum olduğu kimi, 4 nəfər mübarizə aparır. Aktiv seçki kampaniyası aparan namizədlərdən Arif Hacılı "Yeni Müsavat"ın qonağı oldu və qurultay öncəsi suallarımızı cavablandırdı. Olduqca maraqlı açıqlamalarla zəngin müsahibənin ikinci hissəsini təqdim edirik.**

*(əvvəli ötən sayımızda)*



***- Başqan seçilsəniz, hakimiyyətə münasibətdə, eləcə də müxalif düşərgə daxilinə yönəlik siyasi kurs necə olacaq? Sizin opponentlər, sizinlə bağlı təhlil verənlər iddia edirlər ki, Arif Hacılı Müsavat Partiyasının başqanı olsa, hakimiyyətə münasibətdə radikal kurs daha da sərtləşəcək, bu vəziyyət partiyanın fəaliyyətini daha da məhdudlaşdıracaq, həbslər, repressiyalar olacaq və sair. Bu iddialara münasibətiniz necədir?***

- Əvvəla, Müsavat Partiyası oturuşmuş bir siyasi təşkilatdır. Müsavat Partiyasında qərarlar hətta İsa Qəmbər kimi nüfuzlu bir başqanın şəxsi iradəsindən də asılı deyil. Müsavat Partiyasının ideoloji-siyasi xətti hələ ötən əsrdə Rəsulzadə və onun silahdaşları tərəfindən qoyulub. Hər bir müsavatçı Müsavatın təməl prinsiplərinə əməl edərək fəaliyyət göstərir. Konkret cari məsələlərlə bağlı olan siyasət isə Müsavat Partiyasının müvafiq strukturlarında müzakirələr aparıldıqdan sonra müəyyənləşdirilir. Hakimiyyətə münasibətə gəldikdə isə Müsavat Azərbaycanın ana müxalifət partiyasıdır. İndi Müsavatın bu mövqeyinin dəyişməsi üçün siyasi əsaslar yoxdur. Hakimiyyətin atdığı addımlar da göstərir ki, yaxın zamanlarda müxalifətlə iqtidar arasında hansısa normal münasibətlərin formalaşacağına ümid bəsləmək yersizdir. Çünki Azərbaycanda radikal müxalifət yox, radikal iqtidar mövcuddur. Azərbaycan hakimiyyəti müxalifət qüvvələrini ölkənin siyasi sisteminin tərkib hissəsi kimi qəbul etmir. Hakimiyyət təkpartiyalı sistem yaratmaq istəyir. Həm dünyagörüşlərinə görə, həm idarəçiliyin daha asan olması düşüncəsi ilə hakimiyyət ölkədə daha avtoritar bir rejimin, daha mərkəzləşdirilmiş bir idarəetmənin olmasına şalışır . Təbii ki, müxalifət partiyalarının mövcudluğu, güclü olması hakimiyyətin bu cür siyasətinə maneçilik törədə bilər.

Müxalifət qüvvələri ilə münasibətlərə gəldikdə isə, Müsavat Partiyası ilə digər siyasi partiyalar arasında olan bugünkü münasibətlərdə hər hansı neqativ çalarlar varsa, bu, Müsavat Partiyasının günahından baş verməyib. Bu nə Arif Hacılının, nə İsa Qəmbərin, nə də Müsavat rəhbərliyinin günahı üzündən deyil. Biz Azərbaycanda fəaliyyət göstərən bütün real siyasi müxalifət partiyaları ilə müttəfiqlik münasibətlərinin tərəfdarıyıq. Biz AXCP-yə, KXCP-yə, EL Hərəkatına, NİDA Vətəndaş Hərəkatına bərabərhüquqlu müttəfiqlik münasibətləri təklif etmişik. Biz konkret layihə təklif etmişik ki, sənədlər əsasında müttəfiqlik münasibətləri qurulsun. Həmin layihələrin müəllifi mənəm. Daim müxalifət qüvvələrinin öz fəaliyyətini müttəfiqlik münasibətləri ilə tənzimləməsinin tərəfdarı olmuşam. Hətta bu mümkün olmasa, müxalifət qüvvələrinin fəaliyyətinin uzlaşdırılmasının tərəfdarıyam...

***- Yenidən təşəbbüsləriniz olacaqmı?***

- Bundan sonra da bu mövqeyimi davam etdirəcəyəm. Təşəbbüslər olacaq. Sadəcə olaraq, təəssüf ki, indiyə qədər bizim müttəfiqliklə bağlı təkliflərimizə cavab verilməyib. Təkliflərimiz bu gün də qüvvədədir. Düşünürəm ki, təkliflərimiz qəbul olunarsa, müttəfiqlik münasibətlərinin yenidən qurulması ilə bağlı hər hansı bir problem yaranmayacaq. Mən Müsavat Partiyasının başqanı seçildikdən sonra yuxarıda dediyim kimi, İsa Qəmbərə nisbətən daha azad, daha sərbəst fəaliyyət göstərmək imkanlarım olacaq. Mən yenidən müxalifətdə olan, real müxalifət hesab etdiyimiz siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri ilə görüşlər keçirərək həmin təşkilatlarla müttəfiqlik münasibətlərinin qurulmasına bir daha cəhd göstərmək niyyətindəyəm.



**"Hakimiyyətin atdığı addımlar da göstərir ki, yaxın zamanlarda müxalifətlə-iqtidar arasında hansısa normal münasibətlərin formalaşacağına ümid bəsləmək yersizdir. Çünki Azərbaycanda radikal müxalifət yox, radikal iqtidar mövcuddur"**

***- Bayaq hakimiyyətlə bağlı bir məqama toxundunuz, təxminən belə fikir oldu ki, hakimiyyət müxalifəti heç tanımır. Axı müxalifət də iqtidarı heç tanımır, ölkənin prezidentinə "prezident" deyə xitab etmir. Bu vəziyyət nə qədər davam edəcək?***

- Biz ümummilli məsələlərdə hakimiyyətlə əməkdaşlığa hazır olduğumuzu daim bəyan etmişik...

***- Bir nümunə deyə bilərsinizmi?***

- Bir çox nümunələr var. Yəni dəfələrlə hakimiyyətə müxalifət tərəfindən dialoq təklifi irəli sürülüb. Hakimiyyətin dialoq təkliflərinə dərhal müsbət cavab verilib. Ancaq hakimiyyət müxalifətlə hər hansı bir məsələlər aparmaq istəmir. Əksinə, hakimiyyət vaxtaşırı ölkədə müxalifətin olmadığını bəyan edir.

***- Elə bir vaxt olub ki, hakimiyyət sizi çağırsın ümummilli bir məsələnin müzakirəsinə, siz "yox" deyəsiniz?***

**"Müsavat və AXCP-nin fəaliyyətlərinin uzlaşdırılması istiqamətində hansısa real irəliləyişlərin olması üçün konkret təkliflərim var. Seçkilərdən sonra bu təklifləri AXCP sədri Əli Kərimlinin diqqətinə çatdıracağam"**

- Mən şəxsən belə bir hadisənin olduğunu xatırlamıram. Mən müxalifətin ümummilli məsələlər barədə müzakirə aparmaq üçün hakimiyyətdən və ya YAP-dan gələn dəvətə "yox" cavabı verdiyini də xatırlamıram.

***- Siz Müsavat Partiyasının başqanı olsanız hakimiyyətlə münasibətlərə yenidən baxacaqsınızmı? Tanımamazlıq sindromundan söhbət gedir. Məsələn, prezident İlham Əliyevə hansısa bir məktub yazası olsanız, ona necə xitab edəcəksiniz?***

- "Demokrasilərdə çarə tükənməz", hər halda, yazmağa söz taparıq... Ancaq bir daha deyirəm ki, Azərbaycanda müxalifətin gücünün artırılması, müxalifətin resurslarının, təsir imkanlarının artırılması məni ən çox düşündürən məsələlərdən biridir. Hesab edirəm ki, müxalifətin mövqeləri möhkəmlənsə və müxalifət öz resurslarını artıra bilsə, hakimiyyət müxalifətlə dialoqa gələcək. Ancaq yalnız hansısa dialoq çağırışları ilə hakimiyyətlə müxalifət arasında dialoqun baş tutması mümkün deyil. Bir daha deyirəm ki, bunun günahı müxalifətdə deyil, Azərbaycan hakimiyyətindədir.

***- Bəlkə müxalifətin kifayət qədər güclü olmamasıdır əsas səbəb? Bu halda, hakimiyyət məcbur qalmır onunla təmas qurmağa?***

- Müxalifətin güclü olmaması ilə bağlı fikirlər şərti xarakter daşıyır. Azərbaycanda bərabərhüquqlu siyasi rəqabət şəraiti yoxdur. Azərbaycan hakimiyyəti hakim partiyanın siyasətinin həyata keçməsi üçün çox böyük resurslardan, eyni zamanda administrativ resurslardan, maliyyə resurslarından istifadə edir. Bununla yanaşı, daim müxalifətin resurslarını məhdudlaşdırmaqla, müxalifətin cəmiyyətlə təmaslarına maneələr yaratmaqla məşğuldur. Müxalifətin hər hansı maliyyə vəsaitləri əldə etməsinə maneçilik törədir və sair. Belə bir şəraitdə təbii ki, proseslərə hakimiyyətin təsiri müxalifətin təsirindən misilsiz olaraq çoxdur. Əslində isə siyasi partiyaların gücü onun cəmiyyətdə olan dəstəyi ilə ölçülməlidir. Hətta tamamilə qeyri-bərabər şəraitdə keçirilən seçkilərdə, bərabər imkanlar prinsipinə əməl olunmadığı şəraitdə belə, müxalifət namizədləri iştirak etdikləri seçki dairələrində kifayət qədər yüksək nəticəyə nail ola bilirlər. Sonuncu seçkilərdə müxalifətin demək olar ki, heç bir maliyyə imkanları yox idi, televiziyalarda tamamilə qeyri-bərabər bir vəziyyət yaradılmışdı, sərbəst toplaşma azadlığı məhdudlaşdırılmışdı, seçki kampaniyasına cəmi üç həftə vaxt ayrılmışdı. Bununla belə, müxalifətin namizədi Cəmil Həsənli seçkilərdə kifayət qədər uğur qazanmağa nail oldu. Mən Cəmil Həsənlinin seçki qərargahının rəhbəri olmuşam, tam məsuliyyətimlə deyirəm ki, könüllü olaraq seçkilərə gələn seçicilərin əksəriyyəti Cəmil Həsənliyə səs vermişdi. Ona görə də müxalifətin Azərbaycan cəmiyyətində dəstəyinin olmaması barədə iddiaları haqlı hesab etmirəm.

**"Problem ondan ibarətdir ki, təkcə Azərbaycan hakimiyyəti yox, eyni zamanda müxalifətdə olan AXCP də Müsavat Partiyasını müxalifət partiyası kimi, bir siyasi güc mərkəzi kimi tanımaq istəmir"**

***- Müsavatın hakimiyyətlə münasibətləri qədər AXCP ilə də münasibətləri gərgindir. Gələcək başqana qalacaq miraslardan biri də budur. Bunu necə həll edəcəksiniz?***

- Təəssüf edirəm ki, AXCP Müsavat Partiyasını müxalifət olmayan bir təşkilat kimi qələmə verir. Lap bu yaxınlarda Milli Şuranın rəhbərliyinə daxil olan Vidadi Mirkamala "Müxalifət qüvvələri ilə əməkdaşlıq edəcəksinizmi?" sualı verilmişdi. O, Milli Şuradan və AXCP-dən başqa Azərbaycanda müxalifət qüvvəsinin olmadığını iddia etmişdi. Problem ondan ibarətdir ki, təkcə Azərbaycan hakimiyyəti yox, eyni zamanda müxalifətdə olan AXCP də Müsavat Partiyasını müxalifət partiyası kimi, bir siyasi güc mərkəzi kimi tanımaq istəmir. Amma bütün bunlara baxmayaraq, mən AXCP-ni müxalifət partiyası hesab edirəm. Hesab edirəm ki, AXCP-nin müəyyən resursları var. Bu resurslar Azərbaycanda demokratiyanın inkişafına xidmət edə bilər və mən Müsavat Partiyasının resursları ilə AXCP-nin resurslarının birgə fəaliyyət göstərməsi üçün çalışacağam. Heç olmasa bu qüvvələrin fəaliyyətinin uzlaşdırılması istiqamətində hansısa real irəliləyişlərin olması üçün konkret təkliflərim var. Seçkilərdən sonra bu təklifləri AXCP sədri Əli Kərimlinin diqqətinə çatdıracağam.

***- Müsavat irsinə münasibətiniz necə olacaq? Məlum ideoloji platforma əsasındamı siyasi-ideoloji fəaliyyət davam etdiriləcək, yoxsa yeniliklər, dəyişikliklər olacaq? Ağlınızın bir köşəsində irslə bağlı nələrsə varmı?***

- Müsavat Partiyasının ən böyük gücü bu partiyanın müsavatçılıq ideologiyasına əsaslanmasında, Azərbaycan cəmiyyətinin əsas dayağı olan müsavatçılığa söykənərək fəaliyyət göstərməsindədir. Bizim cəmiyyətdə olan nüfuzumuzun xeyli hissəsi həm də bu partiyanın Məhəmməd Əmin Rəsulzadə və onun silahdaşları tərəfindən yaradılmış bir partiya olmasındadır. Eyni zamanda Müsavat Partiyası rəhbərliyində Azərbaycanın istiqlalını 1991-ci ildə bərpa etmiş siyasi hərəkata rəhbərlik etmiş şəxslər də var ki, bu da Müsavat Partiyasının xəzinəsidir. Heç bir halda Müsavat irsindən imtina etmək olmaz. Xüsusilə onu qeyd etmək istəyirəm ki, Müsavat irsi Müsavat Partiyasının indiki və gələcək fəaliyyəti üçün, indiki və gələcək nəsli üçün ən böyük dayaqdır. Bununla yanaşı, hesab edirəm ki, yalnız bu doqmalara qapılıb qalmaq olmaz, partiya inkişaf etməlidir, necə ki, inkişaf edir. Xatırlayırsınızsa, uzun illər bundan əvvəl Müsavat Partiyasının proqramı üzərində çox böyük, ümummilli müzakirələr getdi və müzakirələr həm Azərbaycan cəmiyyəti, həm Müsavat Partiyası üçün maraqlı oldu. İndi belə bir görüntü yaradılır ki, guya Müsavat daxilində nəsillər rəqabəti gedir. Mən hesab edirəm ki, hökmən yeniliklər olmalıdır, Müsavat Partiyasının veteranları, Müsavat Partiyasının orta yaşlı nümayəndələri və Müsavatda olan gənclərin birgə, harmonik fəaliyyətinə nail olmaqla Müsavat Partiyasını daha da gücləndirmək, resurslarını möhkəmləndirmək və hakimiyyətə daşımaq mümkündür.

***- Gənclər də elə onu deyir ki, yenilik olmalıdır və İsa Qəmbər, Arif Hacılı və başqaları olmamalıdır, çünki bu komanda 21 il ərzində heç bir uğur qazanmadı, Arif Hacılı başqan olsa yenə də həmin şeylər təkrar olacaq, həmin siyasətin, həmin kursun davamı olacaq. Bu iddialara münasibətiniz necədir?***

- Bizim 21 ildə uğur qazanmamağımız haqqında deyilən fikirlərlə razı deyiləm. Partiyanın gücü onun cəmiyyətlə təmasları və cəmiyyətdə olan nüfuzu ilə ölçülür. Müsavat Partiyası 2000-ci ildə proporsional seçki sistemi üzrə uğurlu seçki kampaniyası apararaq parlaq bir qələbə qazanıb, Müsavat Partiyası 2003-cü ildə prezident seçkilərində qalib gəlib, 2005-ci ilin parlament seçkilərində, 2009-cu ildə keçirilən referendumda, 2013-cü ildə keçirilən prezident seçkilərində və başqa seçkilərdə kifayət qədər yüksək nəticələrə, əhalinin kifayət qədər dəstəyinə nail olan uğurlu seçki kampaniyaları apara bilib. Sadəcə olaraq, Azərbaycanda demokratik cəmiyyətin mövcud olmaması, ölkədə normal siyasi rəqabət şəraitinin olmaması ona gətirib çıxarır ki, seçkilərin nəticələri nəinki təhrif olunur, saxtalaşdırılır, seçkilərin nəticələri faktiki olaraq seçki komissiyaları tərəfindən icra hakimiyyətlərinin göstərişlərinə uyğun uydurularaq protokollara yazılır. Təsəvvür edin, elə bir vəziyyət mövcuddur ki, elə bil biz rəqibimizlə şahmat oynayırıq. Rəqibimiz cibindən tapançanı çıxararaq bizi alnımızdan güllə ilə vurur. Bu, o demək deyil ki, biz rəqibimizdən daha pis şahmatçıyıq.

***- Deməli, oyun qaydaları dəyişməlidir. Elə sizi onda suçlayırlar ki, bu illər ərzində bu vəziyyəti dəyişmək lazım idi...***

- Biz vəziyyətin dəyişməsi üçün əlimizdən gələni etmişik, heç vaxt heç kəsin arxasında gizlənməmişik, gənclərin də arxasında gizlənməmişik, orta yaşlı nəslin də, veteranların da arxasında gizlənməmişik. Bundan sonra gizlənmək niyyətimiz yoxdur...

***- "Biz" deyəndə özünüzü deyirsiniz?***

- "Biz" deyərkən mən İsa Qəmbərin rəhbərlik etdiyi Müsavat Partiyasının rəhbər komandasını nəzərdə tuturam. Bu baxımdan, həm də özümü nəzərdə tuturam.

***- Arif bəy, əsas sual: İsa Qəmbərin namizədi kimdir? Buna sizdə cavab varmı?***

- ...

*(davamı növbəti sayımızda)*

❑ Hazırladı: Etibar SEYİDAĞA



**"Müsavat Partiyasında qərarlar hətta İsa Qəmbər kimi nüfuzlu bir başqanın şəxsi iradəsindən asılı deyil"**




# Başqanlığa namizədlər niyə Naxçıvana getmədilər?

## Seçkiyə qatılanlar bunu muxtar respublikadakı vəziyyətlə əlaqələndirir

**Müsavat Partiyasının qurultayına artıq sayılı günlər qalıb. Müsavat başqanlığına iddialı 4 nəfər - Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy bir çox rayonlara gedib görüş keçiriblər. Ancaq diqqətçəkən məqamlardan biri odur ki, namizədlərin heç biri Naxçıvana səfər etməyib. Müsavat başqanlığına namizədlərin niyə Naxçıvana səfər etmədiklərinin səbəbini özlərindən soruşduq.**

**Arif Hacılı** Naxçıvana getməməyinin bir sıra səbəbləri olduğunu dedi: "Naxçıvana getməməyimin səbəblərindən birincisi oradakı ab-hava ilə bağlıdır. Bir qayda olaraq Müsavat Partiyasının nümayəndələri Naxçıvana gedərkən partiyanın yerli təşkilatlarının üzvləri ciddi basqılara məruz qalır və partiya üzvlərinə təzyiqlər edilir. Buna görə də biz Naxçıvana səfər etmədik".

Tural Abbaslı isə Naxçıvandakı müsavatçıları, qurultay nümayəndələrini qəliz vəziyyətə salmamaq üçün ora səfər etmədiyini dedi: "Naxçıvan siyasi baxımdan qəliz yerdir. Naxçıvanda ümumilikdə 11-12 qurultay nümayəndəsi var. Biz Naxçıvana 1-2 gün vaxt ayırıb gedə bilərdik. Amma Naxçıvandakı qurultay nümayəndələrini, Müsavat üzvlərini daha qəliz vəziyyətə salmamaq üçün getmədik. Biz ora getsəydik Müsavat üzvləri, qurultay nümayəndələri bizim görüşü təşkil etməli olacaqdı və bu da onlar üçün əlavə problemlər yaradacaqdı. Bu baxımdan Naxçıvana səfər etmədik".

**Başqanlığa iddialı olan digər namizəd Səxavət Əlisoy Müsavat Partiyasının Naxçıvanda zəif olduğunu bildirdi:** "Mənim və digər namizədlərin Naxçıvana getməməsinin səbəbi hər kəsə bəllidir. Naxçıvanda siyasi təşkilatların varlığı ilə yoxluğu bilinmir. Yəni oradakı təşkilatlar 2002-2003-cü illərdəki təşkilatlar deyil. Ordubad, Sədərək rayonlarında heç qurultaya nümayəndə seçilməyib. Bilirsiniz ki, Naxçıvanda fəaliyyət göstərməyin bəzi problemləri var. Bu problemlərə görə Naxçıvanda hansısa fəaliyyət göstərmək mümkün deyil. Buna baxmayaraq, Müsavat Partiyasının bildiyim qədər orada qərargahı var və indi də durur. Mən çox istərdim ki, başqanlığa namizədlərdən əvvəl elə siyasi partiyanın rəhbərləri Naxçıvana səfər etsin. Etiraf edim ki, Naxçıvanda sonuncu dəfə 2010-cu il parlament seçkiləri vaxtı olmuşam. Ondan sonra getməmişəm və indi də getmək planım yoxdur. Amma oradakı qurultaya nümayəndə olan müsavatçılarla əlaqə saxlayırıq".

Başqanlığa digər namizəd Qubad İbadoğlu Avropada olduğu üçün onun fikirlərini öyrənə bilmədik.

❑ Günel MANAFLI



# Dahi, qəddar və sülhsevər Saxarov

**Azər RƏŞİDOĞLU**

**Hüquq müdafiəçisi Leyla Yunus Avropa Parlamentinin təsis etdiyi Saxarov adına mükafata namizədlər siyahısında yer alıb. Avropa Parlamentinin 1988-ci ildə təsis etdiyi Saxarov adına mükafat hər il təqdim olunur. Mükafatın pul dəyəri 50 min avrodur.**

AzadlıqRadiosu namizədlər arasında iraqlı professor Mahmud Əl-Əsali (öldürülüb), bu ölkədən xristian dini lider Luis Rafael Sako və Ukraynanın Avromeydan hərəkatının liderlərinin də olduğunu bildirir. Avropa Parlamenti komitələri nominasiyaların qısaldılmış siyahısını gələn ay tərtib edəcək.

Nominasiyalar sentyabrın 23-də Avropa Parlamentinin xarici işlər və inkişaf komitələrinin, habelə insan haqları alt komitəsinin Brüsseldə keçirilən birgə iclasında müzakirə olunub.

Avropa Parlamentinin avstriyalı üzvü Ulrike Lunaçek Leyla Yunusun namizədliyini təqdim edərkən deyib ki, o, həyat yoldaşı ilə birlikdə bu yay həbs edilib: "Leyla Yunus Saxarov mükafatına layiqli namizəddir və hazırda müdafiə olunmağa ehtiyacı var. Azərbaycanın insan haqları fəalları Leyla Yunusa bir simvol kimi baxırlar".

Gənc nəsil A.Saxarovu yaxşı xatırlamasa da, orta və yaşlı nəsil SSRİ-nin ən qalmaqallı dissidentini hələ də xatırlayır.

Məşhur alim A.Saxarov ictimai-siyasi fəaliyyətinə qədər SSRİ-nin hidrogen bombasının ixtiraçısı kimi tanınırdı. Dünya şöhrətli fizik ən məşhur sovet dissidenti hesab olunsa da, olduqca ziddiyyətli həyat keçib .

1953-cü ildə, hələ 32 yaşında olarkən artıq akademik titulunu qazanan A.Saxarov 50-ci illərin sonunda işlədiyi sahədə yeni ixtiraları dayandırmağı, Birləşmiş Ştatların sahilləri yaxınlığına 100 meqaton ağırlıqlı güclü partlayıcı xassəyə malik qurğuların yerləşdirməyi təklif edirdi. Bu yolla zərurət yaranacağı təqdirdə bütövlükdə Amerika qitəsini yer üzündən silməyi planlaşdırırdı. Amansız Sovet hakimiyyəti də akademik Saxarovun yeni ixtirasına ehtiyatla yanaşırdı. Alimin təklifi reallaşardısa, Amerika qitəsində yaşayan milyonlarla insanın taleyi sual altında olacaqdı. Lakin alimi bu maraqlandırmırdı. Saxarov üçün ən əsası ideyasını həyata keçirtmək idi.

SSRİ-nin o zamankı rəhbəri Xruşşov Saxarovun ideyasını tənqid edirdi və iki sima arasındakı münasibətlər də pisləşməyə doğru gedirdi. Yeni sınaqlar məsələsi SSRİ rəhbəri ilə dahi fiziki tam düşmənə çevrildi.

Sonralar Saxarov öz ixtiralarından imtina etdi və Qərb siyasi dairələrini müdafiə etməyə başladı. Qısa bir zamanda A.Saxarov sülh tərəfdarı kimi tanınmağa başladı. 1975-ci ildə sülh üzrə Nobel mükafatına layiq görüldü. Bu dəfə SSRİ-də düşmənə çevrilən akademik hər çağırışında Qərbi müdafiə etməyə başladı.

Saxarov 70-ci illərin sonunda ABŞ prezidenti Cimmi Karterə insan haqları sahəsindəki vəziyyəti düzəltmək üçün SSRİ-yə preventiv nüvə zərbəsi endirilməsi xahişi ilə müraciət etdi. Bu müraciətdən sonra akademik öz vətənində xalq düşməni elan edildi.

1979-cu ildə aparıcı Qərb mətbuatında Saxarovun sovet qoşunlarının Əfqanıstana yeridilməsini kəskin tənqid edən məktubu dərc olundu. SSRİ-də artıq akademiki cəzalandırmaq qərarına gəldilər və onun bütün elmi titullarına əl qoyuldu.

Mixail Qorbaçov hakimiyyətə gələnə qədər Saxarov Qorki şəhərində sürgündə yaşadı. Qorbaçov onu Moskvaya dəvət etdi. Saxarov Elmlər Akademiyasından SSRİ Xalq Deputatları Sovetinə seçildi. Amma proses heç də asan başa gəlmədi. Məsələ burasındadır ki, yenidənqurma ideyasının müəlliflərindən Aleksandr Yakovlyevin nəzarətində olan kütləvi informasiya vasitələri seçkinin nəticələrini "tanımadı" və yekunda ikinci dəfə səsvermə keçirildi. A.Saxarov yenidən qalib gəldi.

Azərbaycanda da Saxarova münasibət birmənalı deyil. Onun həyat yoldaşının erməni olması, özünün Qarabağla bağlı mövqeyi akademikə mənfi rəy formalaşdırıb.

Əslində akademik o zaman optimal təkliflə çıxış etmişdi. Sadəcə olaraq, bu təklifi vaxtından əvvəl səsləndirildiyinə görə, onun ideyaları süngü ilə qarşılandı.

1988-ci ildə Saxarov təklif etdi ki, həm Azərbaycanda kompakt yaşayan ermənilər, həm də Ermənistanda o vaxt kompakt yaşayan azərbaycanlılar arasında referendum keçirilsin. Həmin referendumların nəticəsi kimi ərazi mübadiləsi aparılsın. Azərbaycanda kompakt yaşayan erməni icması yalnız Dağlıq Qarabağın 4 rayonunda idi. Ermənistanda isə 14-dən artıq rayonda azərbaycanlılar kompakt yaşayırdı. Təbii ki, belə bir ərazi mübadiləsi Azərbaycanın xeyrinə ola bilərdi. Ancaq nə rəsmi Bakı, nə rəsmi Yerevan bu planı qəbul etdi.

Saxarov isə təklifində israrlı idi. İrəvana səfəri zamanı da bu təklifləri səsləndirdi.

Lakin Sovet hakimiyyəti akademikin ssenarini pozduğunu anladı və Saxarovun İrəvana səfərindən sonra bütün azərbaycanlılar Ermənistandan deportasiya olundu...

**Sentyabrın 23-də Bakıda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının prezidenti Ann Brassör Milli Məclisdə təmsil olunan siyasi partiya nümayəndələri ilə görüşüb. Modern.az xəbər verir ki, görüşdə Avropanın bəzi qurumlarının ölkəmizə qarşı nümayiş etdirdiyi ikili standartlar əsas müzakirə mövzusu olub.**



# AŞ PA prezidentinin Bakı səfəri nəyi dəyişəcək?

**Novella Cəfəroğlu:** "Ən əsası məhkəmələr heç kəsə tabe olmamalıdır, məhkəmə-hüquq sistemində islahatlar olmalıdır"

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirib ki, Azərbaycanın 20 faiz ərazisinin Ermənistan tərəfindən işğal edilməsinə, bir milyondan artıq qaçqın və məcburi köçkünü olmasına baxmayaraq, ölkəmiz Avropaya inteqrasiya istiqamətində daim irəliləyir. Lakin Avropa Parlamenti bugünlərdə növbəti dəfə Azərbaycanla bağlı əsassız və qərəzli qətnamə qəbul edib. Həmin qətnamədə bir sıra məqamlarda AŞ PA-ya da istinad olunub. Amma ölkəmizə qarşı təcavüz siyasəti həyata keçirən Ermənistanda insan haqları sahəsində vəziyyət acınacaqlı olsa da, bu ölkə əleyhinə heç bir tədbir görülmür.

Sonra AŞ PA-nın sədri Ann Brassör Azərbaycan parlamentində təmsil olunan siyasi partiyaların fəaliyyəti, onların iş prinsipləri, ölkəmizdə insan haqları sahəsində vəziyyətə dair mövqeləri ilə maraqlanıb və suallarına ətraflı cavab alıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı, Ədalət Partiyasının sədri İlyas İsmayılov, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, VHP-nin sədr müavini Fəzail İbrahimli, ADİP sədri Asim Mollazadə və BAXCP sədri Qüdrət Həsənquliyev iştirak edib.

AŞ PA prezidentinin Bakı səfəri Avropa Parlamentinin ölkəmizlə bağlı qətnamə qəbul etməsindən sonraya təsadüf edir. Bu mənada səfərin hansısa nəticə verəcəyi gözləntisi var.

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu ümid edir ki, AŞ PA prezidentindən sonra vəziyyət nisbətən dəyişəcək:** "Ümid edirəm ki, prezidentlə görüşəndən sonra hansısa addımlar atılacaq. Ancaq biz görüş zamanı da dedik ki, ölkədə islahatlar həyata keçirilməlidir. Ən əsası məhkəmələr heç kəsə tabe olmamalıdır, məhkəmə-hüquq sistemində islahatlar olmalıdır. Yoxsa bu gün 5-10 nəfəri, ya 50 nəfəri azadlığa buraxırlar, sabah digərlərini həbsə atırlar. Ona görə də polis, prokurorluq, məhkəmə müstəqil olmalıdır".

❑ **Cavid TURAN**

# "İsmayıllı işi" bitdi

**Sentyabrın 24-də Şəki Apelyasiya Məhkəməsində "İsmayıllı işi" üzrə növbəti məhkəmə iclası keçirilib.**

Məhkəmənin qərarı ilə Tofiq Yaqublu və REAL hərəkatının sədri İlqar Məmmədov həbsdə saxlanılıb. Anar Həsənov və Qəmbər Ağamalıyev məhkəmə zalından şərti azadlığa buraxılıblar.

Qeyd edək ki, bu il yanvarın 23-də «Çıraq» hotelinin inzibatçısı Emil Şəmdinov və onun tanışı Elməddin Məmmədov yerli sakinləri təhqir etmişdilər. Etirazçılar «Çıraq» hotelini yandırıblar. Bundan sonra bir qrup sakin hoteli və onun həyətində olan xarici markalı maşınları yandırmışdı. Yanvarın 24-də isə yerli sakinlər rayon icra başçısının istefası tələbilə etiraz aksiyasına başlamış və olay təhlükəsizlik qüvvələri ilə qarşıdurmaya çevrilmişdi. İlqar Məmmədov və Tofiq Yaqublu yanvarın 24-də vəziyyətlə tanış olmaq üçün İsmayıllıya getmişdilər. Sonra onlar həbs edilmişdilər. İsmayıllı hadisələrinə görə tutulanlar «külli miqdarda əmlakı məhvetmə», «kütləvi iğtişaşlar təşkiletmə, bu cür hərəkətlərdə fəal iştiraketmə» və «hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlığı üçün təhlükəli olan zor tətbiqetmə» maddələri ilə itiham olunub.

İlqar Məmmədov 7, Tofiq Yaqublu 5, Qəmbər Ağamalıyev 4 il 6 ay, Anar Həsənov 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **GÜNEL**

# Həbsdəkilərdən nə xəbər?

Pərviz Həşimli psixoloji sarsıntı keçirib, Nemət Pənahlının da səhhətində problemlər var

**Siyasi motivlərlə həbsdə olan məhbuslardan yeni xəbərlər var. Müsavat başqanının müşaviri, vicdan məhbusu Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah ailəsinin məhbusla görüşdüyünü bildirdi: "Sentyabrın 23-də ailəsi Yadigar bəylə görüşüb. Bundan əlavə, başqanlığa namizəd Arif Hacılı da onunla görüşmək istəsə də buna imkan verməyiblər. Onunla bağlı məhkəmə hökmündən Ali Məhkəməyə şikayət hazırlayırıq. Bundan sonra Avropa Məhkəməsinə müraciət edəcəyik".**



**Hüquq müdafiəçisi İntiqam Əliyevin qızı Nərmin Kamilsoy** atası ilə əlaqə saxlaya bilmədiklərini söylədi: "Vəkillərin dediyinə görə, hər şey normaldır. Amma biz dəqiq bilmirik".

Hüquq müdafiəçisinin qızı Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində dindirilməsindən də danışıb: "İstintaq zamanı atamla bağlı suallara şahid qismində ifadə verməkdən imtina etdim. Cinayət işi açılan QHT-lərlə bağlı ümumi suallar verildi. İstintaq zamanı psixoloji təzyiqlər etmək istəyirdilər. 2 saata yaxın istintaq davam etdi. Qardaşımı da çağırmışdılar. Amma o, ifadə vermədi. İstintaqın sonunda yenidən çağırıla biləcəyimizi dedilər".

**Rauf Mirqədirovun vəkili Elmar Süleymanov** sonuncu dəfə onunla sentyabrın 19-da görüşdüyünü və istintaqla bağlı heç bir yeniliyin olmadığını bildirdi.

**Müsavatçı gənc Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin atası Raqif Kərimov övladları ilə telefon vasitəsilə əlaqə saxladıqlarını qeyd etdi:** "Sirac və Fərəc icazə veriləndə zəng edirlər. Heç nədən şikayətləri yoxdur. Amma nə qədər yaxşı olsa da, yenə həbsxanadır".

**AXCP üzvü Seymur Həzinin atası Məşğul Həziyev oğlu ilə yalnız telefonla əlaqə saxlamağın mümkün olduğunu dedi:** "Həbs ediləndən görüşməmişik. Yalnız telefon vasitəsilə əlaqə saxlamaq mümkün olur. Hər şeyin normal olduğunu bildirir. Telefonla danışanda daim bizə ürək-dirək verir. Hər şeyin yaxşı olacağını deyir. Hər gün demək olar ki, yemək aparıram. Təcridxana əməkdaşlarından narazılığım yoxdur. Bizə qarşı müsbət davranırlar".

**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova sentyabrın 20-də onunla görüşdüyünü dedi:** "Heç nədən şikayətlənmir. Məhkəmənin nə zaman olacağı məlum deyil".

**Digər NİDA-çı gənc Zaur Qurbanlının atası Araz Qurbanlı həftədə 3 dəfə oğlu ilə telefonla danışır.** "Elə bir ciddi problem yoxdur. Zaurda heç bir ruh düşkünlüyü yoxdur. Əksinə, daha mübarizdir".

**Gənc siyasi məhbus Ömər Məmmədovun atası Əlyar Məmmədov oğlu ilə yaxın günlərdə görüşdüyünü söylədi:** "Ömərin heç nədən şikayəti yoxdur. Hər kəsə salam söylədi. Qəzet verilməsini yubadırlar. Kamerasından razıdır. Elə bir ciddi narazılığı yoxdur".

**Pərviz Həşimlinin vəkili Bəhruz Bayramov qayınının öldürülməsindən sonra onun həbsxanada sarsıntı keçirdiyini bildirdi:** "Heç bir yenilik yoxdur. Apelyasiya və Ali Məhkəmənin nə zaman olacağını gözləyirik. Ailəsində baş verən faciədən sonra psixoloji sarsıntı keçirib. Qaynının yasında iştirak etmək üçün aidiyyəti orqana müraciət etdik. Amma yaxın qohumu olmadığını bəhanə gətirərək, icazə vermədilər".

**Nemət Pənahlının həyat yoldaşı Həcər Pənahlı onun səhhətində problemlərin davam etdiyini dedi:** "Nemətlə 1 aya yaxındır ki, görüşmüşəm. Səhhətində yaranan problemlər davam edir. Müsbətə doğru heç bir dəyişiklik yoxdur. Havasız yerdə saxlanılması vəziyyətini daha da ağırlaşdırır. Saxlandığı təcridxananın rəhbərliyi dəyişəndən sonra qayda-qanun, deyəsən, düzəlməyə başlayır. Həftədə iki dəfə telefonla danışırıq".

❑ **Cavanşir ABBASLI**

# AŞ PA nümayəndə heyəti Tofiq Yaqublu və İlqar Məmmədovla görüşüb

**Avropa Şurası Parlament Assambleyasının sədri Ann Brassörün başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərləri çərçivəsində sentyabrın 24-də həbsdə olan Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL sədri İlqar Məmmədovla görüşüb.**

Bu barədə musavat.com-a Tofiq Yaqublunun vəkili Nemət Kərimli məlumat verib. O bildirib ki, görüşdə Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da iştirak edib. Vəkil deyib ki, görüş iki saata yaxın davam edib.

Görüşün detalları məlum deyil.

❑ **Cavanşir ABBASLI**

# BTC-ni üç ölkənin ordusu qoruyacaq

## Boru kəmərlərinin mühafizəsi üçün Azərbaycan, Türkiyə və Gürcüstan birgə briqada formalaşdırır

**Tiflis yaxınlığındakı Krtsanisi təlim mərkəzində Azərbaycan, Gürcüstan və Türkiyə hərbçilərinin iştirakı ilə kompüter komanda-qərargah təlimləri keçirilir.**

Bu haqda "Kommersant" qəzeti yazıb. "Təlimlərin məqsədi boru kəmərlərinin mühafizəsində strateji tərəfdaşlıq üçün çoxmillətli briqadanın formalaşdırılmasıdır" deyə, Gürcüstan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

Mənbə deyib ki, söhbət ilk növbədə Gürcüstan ərazisindən keçən Bakı-Tiflis-Ceyhan (BTC) neft kəmərindən gedir.

Çoxmillətli briqadanın formalaşdırılmasına dair razılaşma Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin bugünlərdə Naxçıvanda keçirilmiş görüşündə əldə olunub. Nazirlər boru kəmərlərinin mühafizəsi üçün birgə səyləri, o cümlədən üç ölkənin hərbçilərindən təşkil olunmuş briqadanın formalaşdırılmasını müzakirə ediblər. "Kompüter komanda-qərargah təlimlərinin məqsədi birləşmiş silahlı qüvvənin yaradılması istiqamətində birinci addımdır" deyə, Gürcüstanın "Arsenali" hərbi-analitik mərkəzinin baş redaktoru İrakli Aladaşvili bildirib.

İrakli Aladaşvili deyib ki, zərurət yaranarsa, çoxmillətli briqada neft kəmərini bilavasitə Gürcüstan ərazisində mühafizə edəcək. Ekspertin qənaətinə görə, BTC-nin Gürcüstan ərazisindən keçən hissəsinin mühafizəsinə çoxmillətli briqadanın cəlb edilməsində təəccüblü heç nə yoxdur. Çünki 2008-ci ilin avqust müharibəsi zamanı boru kəməri Rusiya aviasiyasının hücumuna məruz qalmışdı.

"Ona görə də kəmərin mühafizəsi üçün üç ölkənin birgə briqada formalaşdırması məntiqlidir" deyə, ekspert bildirib.

Xatırladaq ki, müdafiə nazirlərinin Naxçıvanda keçirilən görüşünün ardınca və Bakıda yeni strateji boru kəmərinin - Cənub qaz dəhlizinin əsasını təşkil edəcək TANAP-ın təməlinin qoyulması ilə bir vaxtda Azərbaycan və Türkiyə silahlı qüvvələrinin irimiqyaslı birgə manevrləri təşkil olunmuşdu. Bu manevrlərin yekun hissəsində Türkiyənin hərbi hava qüvvələri, o cümlədən "F-16" təyyarələri qatıldı. Manevrlərdə Türkiyə və Azərbaycan hərbi qüvvələrinin birgə döyüş əməliyyatları keçirməsi sınaqdan çıxarıldı.




Belə görünür ki, bu manevrlər Ermənistanın Qarabağda mümkün müharibə zamanı Azərbaycan ərazisində strateji neft-qaz kəmərlərinin hədəf alınacağına dair ayrı-ayrı vaxtlarda səsləndirdiyi hədələrə tutarlı cavabdır.

Başqa sözlə, BTC və digər strateji əhəmiyyətli nəql kəmərlərinin sahibləri-Azərbaycan,Gürcüstan və Türkiyə həm birgə manevrlər, həm çoxmillətli hərbi birləşmənin formalaşdırılması ilə mesaj verir ki, bu kəmərləri hədəf almaq heç də sadə məsələ olmayacaq.



Qeyd edək ki, Azərbaycan və Türkiyə Hərbi-Hava Qüvvələrinin birgə təlimləri davam edir.

Müdafiə Nazirliyinin məlumatına görə, sentyabrın 24-də təlimlərdə iştirak edən Azərbaycan Hərbi-Hava Qüvvələrinin pilotları ilk dəfə olaraq ikiyerli döyüş-təlim "F-16" tipli qırıcı təyyarələrində Türkiyə pilotları ilə birgə uçuşlar yerinə yetiriblər.

Təlim uçuşları zamanı pilotların bu tip təyyarələrin idarə olunması üzrə peşəkar bacarıqları və uçuş heyətinin ümumi hazırlığı yoxlanılıb.

**Hərbi Hava Qüvvələrinin təlimləri oktyabrın 3-dək davam edəcək.**

❑ **Xəbər xìdmətì**

The Washington Post

# "İŞİD Putini açıq şəkildə hədələyir"

## Rusiya isə Əsədi Amerikadan qorumağa çalışır

**ABŞ Suriya ərazisindəki İŞİD-ə bağlı hədəflərə havadan ağır zərbələr endirir. Amerikanın keçirdiyi hərbi əməliyyatları Böyük Britaniya həmişə olduğu kimi alqışlarla qarşılayıb. Ancaq buna etiraz edənlər də var. Etiraz edənlər arasında Suriya prezidenti Bəşər Əsədin yaxın müttəfiqi "Hizbullah" lideri Seyyid Həsən Nəsrullah bildirib ki, onlar İŞİD-ə qarşı vuruşurlar. Ancaq Amerikanın terrorla müharibəyə mənəvi haqqı yoxdur...**

Rusiyanın mövqeyinə görə, ABŞ Suriyada keçirdiyi hərbi əməliyyatlara görə Bəşir Əsəd hökumətinin rəsmi razılığını almalıdır. Bu barədə ""The Washington Post" qəzeti məlumat yayıb. Rusiya prezidenti Vladimir Putin dünən BMT-nin baş katibi Ban Ki Munla görüşü zamanı bu məsələyə xüsusi önəm verdiyini bildirib.

Suriya məsələsinə bir neçə məqalə həsr edən qəzet yazır ki, ABŞ-la birlikdə hava zərbələri həyata keçirən Səudiyyə, Bəhreyn, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Qatar bu məsələ ilə bağlı susqunluq nümayiş etdirir. Qəzet ehtimal edir ki, bu sünni ölkələrin sünni terrorçulara qarşı qalxması xalq tərəfindən o qədər də rəğbətlə qarşılanmaya bilər....

**"The Washington Post" Rusiyanın narahatlığının səbəbini "Rossiə v qlobalğnoy politike" jurnalının baş redaktoru Fedor Lukyanovun fikirləri ilə açıqlayır:** "Geniş yayılmış belə bir şübhə var ki, ABŞ öncə İŞİD - ə hava zərbələri endirəcək, sonra isə həmin zərbələrə Suriya Ordusu hədəf olacaq".

Qəzet qeyd edir ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov ötən həftə Parisdə Qərb ölkələrinə xatırlatmışdı ki, "ərəb baharı"ndan sonra terrorun artacağı barədə Rusiya vaxtında xəbərdarlıq etmişdi.

"Lavrovun nəzəriyyəsinə görə, İŞİD əslində Amerikanın Yaxın Şərqdə uzun illər ərzində yeritdiyi siyasətin nəticəsi olaraq ortaya çıxıb. Bu fakt bir daha ona dəlalət edir ki, Qərb terrorçulara yanaşmada "yaxşı" və "pis" terrorçu yanaşmasından imtina etməlidir, o cümlədən Suriyada Əsədə qarşı vuruşan terrorçulardan da uzaq olmalıdır " deyə, məqalədə deyilir. 2011-ci ildə NATO Liviya diktatoru Müəmmər Qəddafini devirmək məqsədilə yerli üsyançılara kömək edəndə Rusiya bunu təəccüb və etirazla qarşılamışdı. İndi isə Liviyada bir-birinə düşmən kəsilmiş tərəflər arasında savaş gedir. Bütün bunlar Rusiyanın baxışına görə Amerikanın yeritdiyi səhv siyasətindən xəbər verir.

Rusiya mediasında İŞİD haqqında sıx-sıx material gedir, buna baxmayaraq ictimaiyyət Amerikadakından fərqli olaraq, bu terrorçu təşkilata qarşı qəti tədbirlərin görülməsi tələbini o qədər də kəskin şəkildə hökumətin qarşısında qoymur.

"Ancaq İslam fundamentalistləri açıq şəkildə Putini hədələyirlər. Bildirirlər ki, Çeçenistanın və Qafqazın azad olmasına nail olacaqlar. Ona görə də Rusiya sürətlə təsir dairəsini genişləndirən İŞİD-i durdurmaqda maraqlıdır", deyə, məqalədə bildirir.

❑ **Elbəyì HƏSƏNLİ, Sürìx**

# Rusiyalı politoloqdan sensasiyalı açıqlama

# "Moskva qısa zamanda Qarabağı Bakıya bağışlaya bilər..."

## Problemin həlli Ermənistanın öz-özünə boşalacağını gözləməkdən keçmir; Bakı həm də "Sinqapur və şotland nümunəsi" ortaya qoymağı bacarmalıdır; ekspert: "Dağlıq Qarabağ erməmisi heç bir halda özünü Azərbaycan tərəfdən atılmış, "izqoy" hiss eləməməlidir..."

**Krımın Rusiya tərəfindən işğalı ilə Dağlıq Qarabağ probleminin həllinə aydınlıq gəlmək əvəzinə, məsələ daha da qəlizə girmiş oldu. Nədən ki, ixtilafın dinc yolla nizamlanması birinci növbədə sülh prosesinə cəlb edilmiş iki qlobal gücün - Qərb və Rusiyanın köklü maraqlarının uzlaşmasını tələb edir. Bu uzlaşma isə bəlli səbəblərdən bir az da əlçatmaz görünür.**

Bəs çıxış yolu nə vaxt və necə tapılacaq?

Sözsüz ki, münaqişənin uzanması ən əvvəl Azərbaycanın maraqlarına cavab vermir, çünki birincisi, yüz minlərlə köçkün öz yurd yerlərinə qayıda bilmir və dövlət üçün əlavə yük olaraq qalır, ikincisi isə Azərbaycan 20 faizlik ərazisini nə bərpa və inkişaf etdirə, nə də onu ölkənin iqtisadiyyatına inteqrasiya etdirib büdcəsini zənginləşdirə bilir.

Yəni bütün mənalarda ən çox itirən Azərbaycandır. Bu üzdən o, problemin həlli üçün əlverişli regional və qlobal şərtlərin yetişməsini gözləməklə yanaşı, bu şərtlərin sürətli formalaşmasına yardımçı olmalıdır. Yollar bəlli - iqtisadiyyatı, hərbi qüdrəti durmadan gücləndirmək, təməl insan haqlarını təmin edib dünyada demokratik imicə, sözükeçərliyə nail olmaq, sayılıb-seçilən ölkələrdən birinə çevrilmək. Yoxsa gözləmək ki, Ermənistan miqrasiya hesabına boşalacaq və problemin həlli asanlaşacaq, bu, siyasi sadəlövhlükdür, ən azı ona görə ki, vurğulandığı kimi, Qarabağ artıq təkcə Ermənistanın problemi deyil.

**Necə ki, "Qaçqınkom" sədri Əli Həsənov buna ümid edir. Hörmətli Əli müəllim əslində doğru buyurur ki:** "Hər il Ermənistanı 150-170 min nəfər tərk edir, digər tərəfdən təbii artım azalır. Bu, Ermənistanı dalana dirəyir. Belə getsə, müharibəyə də ehtiyac qalmayacaq, Ermənistan boşalacaq". Ancaq... Ermənistan boşlasa da, müharibəyə ehtiyac qalmasa da, Dağlıq Qarabağı o saat bizə sinidə təqdim eləmək istəyənlər elə də çox olmayacaq.

Müasir dünyanın reallıqları bu "təqdim olunma" prosesini sürətləndirməyin daha bir şərtini təmin etməyi vacib sayır. Söhbət şotland nümunəsindən gedir. Yəni Azərbaycan o dərəcədə əhalisi rifahda bulunan bir ölkə olmalıdır ki, "acından ölən" Dağlıq Qarabağ erməmisi onun tərkibində yaşamağa, sadəcə, can atmalıdır. O zaman hətta ayrılma referendumu olsa belə, ermənilər müstəqillik həvəskarı olmayacaq. Nədən ki, hər bir insan ilk növbədə özünün, ailəsinin iqtisadi-sosial təminatını, ardınca siyasi-vətəndaş haqlarının təmin edilməsini əsas götürür.

Şotlandlar məhz bu iki amilə görə Böyük Britaniyanın tərkibində qalmağa üstünlük verdilər. Həmçinin İspaniyada Kataloniya əhalisinin bir hissəsi vergilərin yüksək olmasını əsas götürərək ayrılmaq istəyir.

Bu yolun vazkeçilməzliyindən təkcə biz danışmırıq. Bir çox praqmatik erməni ziyalıları *(Aleksey Manvelyan, Georgi Vanyan və s.)* da Azərbaycanın Dağlıq Qarabağa sahiblənmək üçün ilk növbədə bu faktoru ciddiyə almalı olmasına zaman-zaman açıq işarələr vurublar - Ermənistanda ciddi təzyiqlərlə üzləşsələr də.

**Rusiyadakı Strateji Təhqiqatlar İnstitutunun direktoru Andrey İvanov da hesab edir ki, "Qarabağ erməniləri heç bir halda Azərbaycan tərəfdən özlərini izqoy, atılmış hiss eləməməlidir" (vesti.az):** "Bakı Qarabağdakı ermənilərə göstərməlidir ki, vahid Azərbaycanın tərkibində həyat qat-qat sərfəli və təminatlıdır, nəinki daim müharibə təhlükəsi altında olan hazırkı tanınmamış qurumda. Əlbəttə ki, hələlik problemin bu cür həll üsulu real görünmür. Amma bəşəriyyət ayrı yol da bilmir. Məhz bu yolla Sinqapurda, Çində, Hindistanda problemi yoluna qoyublar".



**Konfliktin başqa mümkün həll yollarından danışan politoloq daha da qabağa gedib sensasiyalı sayıla biləcək fikir də söyləyib:** "Şəxsən mən düşünürəm ki, Moskva Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Gömrük İttifaqına üzv olması qarşılığında Bakıya "hədiyyə" olaraq Qarabağ problemini olduqca sürətli, ən başlıcası isə qansız həll edə bilər. Sadəcə, İrəvana vəsait ayrılardı ki, Ermənistan ərazisində Dağlıq Qarabağ sakinləri üçün evlər tikilsin. Onların bir hissəsi isə öz ərazilərində də işə düzələ bilərdilər..."

***

Sonuncu variant barədə ara-sıra yazmışıq. Azərbaycanın Putinin Avrasiya layihələrinə qoşulmasının mümkün bədəli haqda yetərincə ekspert rəyləri də səslənib. Bu günə situasiyanın yeni özəlliyi odur ki, Qərb-Rusiya münasibətlərindəki böhranın geridönməz xarakter alıb və o səbəbdən Azərbaycanın Rusiya və Qərb üçün geosiyasi əhəmiyyəti daha da artıb. Təbii ki, Qarabağ məsələsi və Qarabağ "bazarlığının" qiyməti də.

❑ **Sìyasət şöbəsì**

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014



# İnsanlar və talelər...

Hüseynbala SƏLİMOV

**Bizim həyatımızda və dünyagörüşümüzün formalaşmasında bu və ya digər qədər rolu olanların hamısını qiymətləndirməyi bacarmalıyıq. Fərqi yoxdur bu adamlar hansı dövrdə yaşayıblar, hansı ideologiyaya tapınıblar...**

Biz onları layiq olduqları qədər qiymətləndirməyi bacarmalıyıq. Bugünlərdə yazıçı Əleviyyə Babayeva vəfat etdi. Bu yazıçının mənim həyatımda olduqca maraqlı rolu olub. Mənim rus dilində ilk dəfə oxuduğum roman onun "Adamlar və talelər" əsəri olub. O vaxt mən səkkizinci sinifdə oxuyurdum və texniki fənlərə, hətta təbiət elmlərinə aid ədəbiyyatı rus dilində sərbəst oxuyurdum, amma bədii ədəbiyyata girişməyə ürək eləmirdim. Düzdür, kiçik həcmli əsərləri oxuyurdum. Amma düşünürdüm ki, romanlara nəfəsim çatmaz. Eyni zamanda rus dilinin, necə deyərlər, kötüyünə mismar vurmağa və bu dili mükəmməl öyrənməyə qərarlı idim. Beləcə, təsadüfən əlimə Əleviyyə Babayevanın adını çəkdiyim romanı düşdü. Başladım oxumağa və bir də gördüm ki, artıq başa çatmaq üzrəyəm...

Daha sonra A.Puşkinin "Kapitan qızı", daha sonra M.Lermontovun və F.Dostoyevskinin əsərləri gəldi. Bir də gördüm ki, mən yalnız rusca ədəbiyyat oxuya bilirəm. Beləliklə, bu, məndə vərdişə çevrildi.

Ta o vaxtdan bu günə qədər yalnız rus dilində oxuyuram. Baxmayaraq ki, jurnalist kimi həm də azərbaycanca yazıram. Rus dilində yazdıqlarım vaxtlar da olub. Amma əsasən götürəndə rus dilində oxuyur, daha çox isə Azərbaycan dilində yazıram... Bəzən elə özümə də bu, gülməli gəlir. Amma düşünürəm ki, çoxu mənimlə və mənim dediklərimlə razılaşar ki, rus dilinin nəsr və publisistik imkanları daha genişdir...

Nə isə. Sözüm bunda deyil. Qayıdıram ədəbiyyata. Bilirsiniz, yazıçılar və xüsusən də şairlər üçün əslində dövr şərti bir şeydir. İndi deyirlər ki, filankəs bəs sovet yazıçısı olub. Amma mən bütün sovet yazıçılarını şərti olaraq iki qrupa bölərdim. Biri var sovet yazıçısı, biri də sovet dövrünün yazıçısı....

Bəli, o dövrdə də yazıçılar vardı ki, sovet dövrünə, onun ideoloji konyunkturasına, tələbələrinə yarınmaq, onu tərənnüm etmək üçün lap dəridən-qabıqdan çıxırdılar. Amma elələri vardı ki, onların bəxtinə sadəcə, sovet dövründə yazmaq qismət olmuşdu. Onlar da öz bildiklərini, duyduqlarını və istədiklərini yazmağa çalışırdılar...

Məsələn, o dövrdə Sabir Əhmədov, Fərman Kərimzadə kimi yazılar vardı. Onlar sadəcə, sovet dövründə doğulmuşdular. Bu adamlara standart sovet yazıçısı qəlibini yapışdırmaq olmur, çünki onlar daim rəsmi ideologiyadan yan keçməyə cəhd edirdilər. Təbii ki, bəzən alınırdı, bəzən yox...

Nə etmək olar? İnsanlar harada və nə vaxt doğulmağı seçmirlər. Bu, tale məsələsidir. İndi onlarla, bəlkə də yüzlərlə yazıçı var ki, azad bir dövrdə, müstəqil bir dövlətdə doğulublar, amma bəzi sovet yazıçıları qədər daxilən azad deyillər, bəlkə də bir il çalışsalar belə, həmin sovet yazıçılarının bir cümləsini yaza bilməzlər...

Tale elə gətirdi ki, mən Əleviyyə Babayevanı sistematik şəkildə oxumadım. Buna görə də onu bir yazıçı kimi bütün tamlığı ilə xarakterizə edə bilmirəm və buna görə bir az çətinlik çəkirəm. Amma nə etmək olar? Oxuduğum bir əsəri mənə xoş təsir bağışlamışdı. O biri əsərlərini isə oxuya bilmədim...

Ona görə də bu yazı bir yazıçının yaradıcılığından daha çox yazıçı və dövr, yazıçı və siyasi quruluş haqqında oldu.

Belə mövzulara baş vurmaq həm də ona görə lazımdır ki, bir epoxa başa çatır. Sovet dövrünü deyirəm. Bəlkə də biz sonuncu nəsilik ki, həmin dövrü xatırlayırıq. Bizimlə birlikdə bu dövr də başa çatacaq. Ona görə də, necə deyərlər, biz sonuncu mogekanlarıq. Bizdən sonra o dövrü yalnız tarixçilər və bir də tarixi öyrənənlər yada salacaqlar.

Ola bilsin, tarix dərslərində həmin dövrə bir-iki saat ayıracaqlar. Doğrusu, bu, mənim heç ürəyimdən deyil. O dövrü unutmaq olmaz. Ən azı ona görə ki, həmin dövrün saxlanılası və bir də o dövrün qayıtması arzu olunmayan bəzi cəhətləri var.

Ən maraqlısı və ən dəhşətlisi odur ki, pis cəhətlərin, pisliklərin ömrü daha uzun olur. Məsələn, indiki bayağı rəsmi təbliğata baxanda istər-istəməz yada sovet dövrünün təcrübəsi düşür. Amma o dövrdə yaxşı cəhətlər də vardı axı...

Nə isə. Görünür, bütün hallarda dövrün də, siyasətin də öz fəlsəfəsi var. Bəzən biz də özümüzdən asılı olmadan həmin fəlsəfəyə müvəqqəti olsa da, boyun əyməli oluruq. Nə etmək olar?..

# Ziya Məmmədov metronun "Avtovağzal" stansiyasının açılışına imkan vermir - səbəbi...

## Nazir Bakı Metropolitenini də inhisara almaq niyyətindədir; stansiya açılsa, avtovağzaldan hərəkət edən "məmmədovçu" avtobusların gəlirləri kəskin düşəcək

**Nəqliyyat naziri Ziya Məmmədovun Bakı Metropoliteninə müdaxilə etməsi cəhdləri dəfələrlə mətbuatın əsas mövzularından olub. Nazir vahid kart sisteminə keçid məsələsini zaman-zaman gündəmə gətirməklə, bu sahəni öz monopoliyasına almaq niyyətini də gizlətməyib. Z.Məmmədovun planlarına görə, bu gün ictimai nəqliyyatda istifadə edilən gediş kartları metropolitendə və taksilərdə də istifadə olunmalıdır.**



Ziya Məmmədov

Z.Məmmədovun bu planına qarşı çıxan əsas fiqurlardan biri də Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov idi. Metropolitenin sabiq rəisi kart sisteminə keçidin əleyhinə olduğunu və bunun metropolitenin xidmətlərindən istifadənin bahalaşmasına gətirib çıxaracağını dəfələrlə bildirmişdi. Artıq Tağı Əhmədov vəzifədə deyil və Z.Məmmədovun vahid kart sistemi planının önü açılmış kimi görünür. Gələn məlumatlara görə, hörmətli nazir bu planın gerçəkləşməsi üçün hazırda imkanlarını bir daha səfərbər etmək niyyətindədir. Məlumatın mabədi olaraq yazaq ki, metropolitenin "Avtovağzal" stansiyasının açılışının ləngidilməsi də nəqliyyat nazirinin planının bir hissəsidir. Qaynağımız "Yeni Müsavat"a deyib ki, 2015-ci ildə vahid kart sisteminə keçidlə bağlı hökumətin ilkin qərarı var. Nəqliyyat naziri bu qərar reallaşana qədər "Avtovağzal" stansiyasının açılmaması üçün əlindən gələni edir. Stansiyanın açılacağı təqdirdə hər gün avtovağzaldan Bakının dörd bir tərəfinə olan marşrutlar üzrə hərəkət edən avtobusların gəlirinin kəskin düşəcəyi şübhəsizdir. Hər avtobusun 1 gün üçün azı 100 manat plan ödədiyini və avtovağzaldan Bakının müxtəlif nöqtələrinə yüzlərlə avtobusun hərəkət etdiyini nəzərə alsaq, nazirin əndişələnməsinin səbəbsiz olmadığını görürük.

Qeyd edək ki, Tağı Əhmədov dəfələrlə "Avtovağzal" stansiyasının 2013-cü ilin dekabrında açılacağını bildirirdi. Sabiq rəis 8 noyabr 2011-ci ildə "APA-Economics"ə verdiyi müsahibədə deyib: **"Artıq 2011-ci ildə "Dərnəgül" stansiyası təhvil verilib. Biz 2013-cü ilin sonuna "Avtovağzal" və "Memar Əcəmi-2" stansiyalarını, 2015-ci ilin sonunadək isə "Həzi Aslanov-2", "Köhnə Günəşli" və "Yeni Günəşli" stansiyalarını istifadəyə vermək niyyətindəyik".**




Bir qədər əvvəl isə nəqliyyat nazirinin müavini Musa Pənahov deyib ki, təmsil etdiyi qurum 2015-ci il martın 1-dən paytaxtda ictimai nəqliyyatda nağdsız ödəniş sisteminə tam keçidi təmin etmək niyyətindədir.

**Onun sözlərinə görə, göstərilən tarixdən sərnişinlər paytaxtın bütün avtobus marşrutlarında gediş haqqını nəqliyyat kartları ilə ödəyəcəklər:** "Həmin kartlarla Bakı metrosunda, gələcəkdə isə taksilərdə də ödəniş etmək mümkün olacaq. Hazırda metroda nəqliyyat kartlarından istifadənin mümkünlüyünü təmin etmək məqsədilə işlər həyata keçirilir".

İndilərdə, məlum olduğu kimi, Bakı metrosunda ödəniş yalnız bu məqsəd üçün nəzərdə tutulmuş xüsusi kartlarla həyata keçirilir.

M.Pənahov qeyd edib ki, hazırda ictimai nəqliyyatda elektron ödəniş sisteminin qaydaya salınması çərçivəsində bu prosesi nəzərdə tutulan müddətdə keyfiyyətli şəkildə təmin edə biləcək şirkətlərlə danışıqlar aparılır. Əvvəllər seçilmiş podratçılar yaranmış çətinliklərlə əlaqədar bu layihəni axıradək reallaşdıra bilməyiblər.

Maraqlıdır ki, M.Pənahov "yaranmış çətinliklər" haqda məlumat verməyib. Bu çətinliklərin illərlə davam etməsinin səbəbinin də üstündən sükutla keçib.

❑ **E.HÜSEYNOV**

# Prokurorun şantaj etdiyi hakimin vəkili danışdı

## Həsən Əliyevdən şikayət edənin özü haqda da cinayət işi var

**Nərimanov prokuroru Fikrət Mahmudov və müavini Cavid Quliyev tərəfindən şantaj edildiyi bildirilən sabiq hakim Həsən Əliyevin vəkili Sadiq Rəsulov danışıb.**

Vəkil Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin rəisi, istintaq qrupunun rəhbəri Eldar Əhmədovun imzaladığı qərarla prokuror Fikrət Mahmudov, müavini Cavid Quliyev, polis idarəsinin rəisi Hikmət Usubov, əməliyyatçı Məhərrəm Həsənov, təhqiqatçı Şövqi İsmayılov və cinayət işi üzrə zərərçəkmiş şəxs olan Ramazan Səlimov barədə CM-in 178.3.2.(dələduzluq), 308.2.(vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.1., 311.3.3. (rüşvət alma), 314.2.-ci (səhlənkarlıq) maddələri ilə cinayət işinin ayrıca icraata ayrıldığını təsdiqləyib.

**Vəkil interpress.az-a bildirib ki, hakimdən şikayət edən Ramazan adlı şəxsin Rusiyada yaşayan iş adamı olduğu vurğulansa da, bu məlumat həqiqətə uyğun deyil:** "Sorğularımız əsasında bizə təqdim edilən sənədlərdən də görünür ki, Ramazan Səlimov ölkənin sərhədlərini tərk etməyib. Belə olan halda onun bütün mətbuatda Rusiyada fəaliyyət göstərən iş adamı kimi göstərilməsi barədə məlumatlar həqiqətə uyğun deyil. Digər tərəfdən, Ramazan Səlimov özü bu hadisələrdən öncə Bakı şəhər Xətai Rayon Məhkəməsinin hökmü ilə CM-in 178.2.4-cü maddəsi ilə dələduzluq etdiyinə görə artıq bir dəfə mühakimə edilib və bu barədə hazırkı cinayət işinin materiallarında müvafiq sənədlər var. Həmin cinayət işinin materiallarına Ramazan Səlimovun öz əli ilə yazdığı iltizam var və o, bu iltizamda dələduzluq etdiyini etiraf edib".



Həsən Əliyev

**Vəkil müvəkkili haqda mətbuatda yazılanlara da toxunub:** "Həmin yazılarda belə təqdim edilir ki, hazırkı cinayət işi sanki Ramazan Səlimovun şikayət ərizəsi əsasında başlanıb. Lakin iş materialları ilə tanış olmuş şəxslərin hamısına məlumdur ki, əslində hər şey məhz Ramazan Səlimovun Yahyayev Qüdrət Əbülfəz oğlunun 6.500 manat, Haqverdiyev Tariyel Tarverdi oğlunun 10 min ABŞ dolları və 1000 manat pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsi barədə həmin şəxslərin 16-cı polis bölməsinə etdikləri şikayətdən başlayıb. Hazırda Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində Ramazan Səlimovun Yahyayev Qüdrət Əbülfəz oğlundan və Haqverdiyev Tariyel Tarverdi oğlundan külli miqdarda pul vəsaitini təkrarən dələduzluq yolu ilə ələ keçirməsi faktı üzrə CM-in 178.3.2-ci maddəsi ilə cinayət işinin istintaqı aparılır".

❑ **E.HÜSEYNOV**

# İlhamla Fərizənin məzarını təhqir edən həbs olundu

**Bu il avqustun 21-dən 22-nə keçən gecə naməlum şəxslər tərəfindən Şəhidlər Xiyabanında İlham və Fərizə Allahverdiyevlərin qəbirləri üzərində təhqiredici hərəkətlərə yol verən şəxs həbs olunub.**




"Qafqazinfo"ya DİN-dən daxil olan məlumata görə, polis əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törədən şəxs sentyabrın 24-də, səhər saatlarında, Şəhidlər Xiyabanında növbəti dəfə təhqiredici hərəkətlərə yol verərkən yaxalanıb və istintaqa təhvil verilib.

Araşdırmalarla müəyyən edilib ki, bu, 1963-cü ildə Bakı şəhərində anadan olmuş, heç bir yerdə işləməyən, əvvəllər məhkum olunmuş, ruhi xəstə Xəzər rayonunun Albalı bağlar massivində yaşayan Nüsrət Qasımovdur.

YENİ MÜSAVAT
N 239 (5948) 25 sentyabr 2014



# Məşhur teleaparıcının cinayət dosyesindən yeni faktlar...

## Zərərçəkən: "Demişdi ki, 16 seansdan sonra..."

**Sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində "Space" telekanalının "Etiraf" verilişinin aparıcısı, dələduzluq ittihamı ilə həbs olunan İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. İ.Mirzəyevin hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir. Redaksiyamıza işdə adı zərərçəkən kimi keçən şəxslərdən biri olan Aynur Əhmədovanın məktubu və iş üzrə tərtib olunan ittiham aktı daxil olub. A.Əhmədova məktubunda İ.Mirzəyevin vergi cinayətlərinin araşdırılmamış qaldığını, talama cinayəti üzrə ona ittiham elan edilmədiyini qeyd edib. O, teleaparıcının məhkəmə qarşısına xırda maddələrlə çıxarılmasına diqqət çəkərək bildirir ki, işə baxan hakimlə İlham Mirzəyevin çox yaxşı münasibətləri var və buna qədər də bu hakim teleaparıcının iddiası əsasında qəzetlərə qarşı qərar qəbul edib. Zərərçəkənin redaksiyamıza təqdim etdiyi ittiham aktında yer alan epizodları oxuduqca teleaparıcının qəbuluna gedən və əli hər yerdən üzülmüş, övlad həsrətində olan insanların pullarını necə mənimsəməsi sadəcə ikrah doğurur.**

**İttiham aktından aydın olur ki, 10 aprel 2014-cü ildə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi İ.Mirzəyevi saxlamasaydı, o, bu gün də sahibi olduğu falçılıq klinikasında iş başında olacaqdı. Efirdən söylədiyi yalanlarına uyanlar qapısını kəsdirib ondan min bir dərdlərinə əlac umacaq, son qəpiklərini verib nəticə gözləyəcəkdilər.**

**Həmin gün məlum əməliyyatın keçirilməsinə əsas verən müraciəti hazırda işdə adı zərərçəkən kimi keçən A.Əhmədova edib. İstintaqçılar məsələni araşdırıblar və belə bir ittiham aktı tərtib ediblər. İttiham aktında adı keçən zərərçəkənlərin ad-soyadlarını etik səbəblərdən yazmırıq. Baş prokurorun 1-ci müavini Rüstəm Usubovun təsdiqlədiyi ittiham aktından seçmələri təqdim edirik:**

*(əvvəli ötən sayımızda)*

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində dindirilmiş U.M ifadəsində göstərib ki, 17 oktyabr 2009-cu ildə oğlu Z.M həmkəndlisi Y.Ü ilə ailə həyatı qurub. Həmin vaxtdan etibarən oğlu həyat yoldaşı ilə cinsi həyat yaşaya bilməyib. O, oğlu və gəlinini müxtəlif tibb müəssisələrinə aparıb, çoxsaylı həkimlərə müraciət edib. Hətta iki dəfə oğlu tibbi müayinə və müalicə üçün İrana və iki dəfə Rusiyaya gedərək həkimə müraciət edib. Müxtəlif həkimlər tərəfindən təyin olunmuş müalicə kursları keçməsinə, çoxsaylı dərmanlar qəbul etməsinə baxmayaraq, onda heç bir müsbət dəyişiklik olmayıb. 2014-cü ilin fevral ayının əvvəllərində qardaşı televizorda görüb ki, "İlhaMed" tibb mərkəzində işləyən İlham Mirzəyev toy gecəsi yaşanan uğursuzluqla bağlı problemləri həll edə bilir, bu cür xəstələri sağaldır. Qardaşı maraqlandıqda ona bildiriblər ki, həqiqətən də həmin tibb mərkəzində bu işə çarə var. Qərara gəliblər ki, həmin tibb mərkəzinə müraciət etsinlər. 2014-cü il fevral ayının ortalarında o, oğlu və gəlinini Ayna Sultanova heykəlinin yaxınlığındakı "Cıdır" atçılıq meydanının arxa tərəfində çoxmərtəbəli binanın ikinci mərtəbəsində fəaliyyət göstərən "İlhaMed" tibb klinikasına aparıb. Qəbulda oturan xanıma yaxınlaşıb toy gecəsi uğursuzluğu ilə bağlı gəldiklərini söyləyiblər. Həmin xanım onları İlham Mirzəyevin qəbuluna yazıb və bundan sonra 20 fevral 2014-cü il tarixdə, saat 16:00-da o, oğlu və gəlini ilə "İlhaMed" tibb klinikasına gəlib. İlham Mirzəyevin qəbuluna düşmək üçün 50 manat pul ödəyib və qəbula düşüb ona dərdlərini danışıblar. İlham Mİrzəyevə bildiriblər ki, bütün müraciət etdikləri həkimlər oğlunun tamamilə sağlam olduğunu, yəni bir kişi kimi cinsi həyat yaşamaq qabiliyyətinə malik olduğunu, sadəcə, öz həyat yoldaşı ilə cinsi həyat yaşaya bilmədiyini söyləyiblər. İlham Mirzəyev əvvəlcə onları tibb mərkəzindəki G.X adlı həkimin yanına göndərib ki, gəlini UZİ müayinəsindən keçirsin. UZİ müayinəsi üçün əlavə 100 manat pul ödəyiblər. Müayinənin nəticələrinə görə, gəlinin tamamilə sağlam olduğu məlum olub.

### 16 seansdan sonra oğlunuz və gəlininizdə...

Bundan sonra İlham Mirzəyev bildirib ki, "narahat olmayın, 16 seansdan sonra oğlunuz və gəlininizdə heç bir problem qalmayacaq, onlar normal cinsi həyat yaşayacaqlar". Qəbul zamanı İlham Mirzəyev bildirib ki, bu işlə psixoloqlar məşğul olacaq. 16 seanslıq müalicə kursunun hər dəfəsində oğlu və gəlini ayrı-ayrılıqda psixoloqun qəbulunda olacaqlar. Hər biri ayrı-ayrılıqda hər dəfə fizioterapiya müalicəsindən keçəcəklər".

### İlham Mirzəyev naəlac ailədən hər gün 84 manat alıb!!!

"İlham Mirzəyev bildirib ki, oğlu Z.M-in və gəlini Y.Ü-nün hər dəfə psixoloqun qəbulunda olması üçün hər birinə ayrı-ayrılıqda 30 manat, oğlu Z.M-in və gəlini Y.Ü-nün hər dəfə fizioterapiya müalicəsindən keçməsi üçün hər birinə ayrı-ayrılıqda 12 manat pul ödəməlidir. Yəni ikisinə birlikdə 1 günlük seans üçün 84 manat, 16 günlük müalicə üçün 1344 manat pul ödəməlidir.

### "Seansdan sonra özünüzdə dəyişikliyi görəcəksiniz"

O və yanındakı ailə üzvləri İlham Mirzəyevin verdiyi vədlərə tam şəkildə inanmış və həmin tibb mərkəzində 16 günlük seansdan keçməyə qərar veriblər. Bundan sonra oğlu və gəlini həftədə 3 dəfə həmin tibb mərkəzində seanslarda olublar. Hər dəfə onları G.X adlı psixoloq ayrı-ayrılıqda qəbul edib ayrı-ayrılıqda 30-40 dəqiqə söhbət etmiş, bir də gündəlik fizioterapiya müalicəsi keçiblər. Hər dəfə İlham Mirzəyev özü həkimin yanına gəlib, onlara da deyib ki, "narahat olmayın, özünün nəzarəti altındadır, hər şey yaxşı olacaqdır, seansdan sonra özünüzdə dəyişikliyi görəcəksiniz". Hətta müalicə dövründə o özü iki-üç dəfə İlham Mirzəyevlə görüşüb xahiş etmişdir ki, uşaqları özü də müalicə etsin. İlham Mirzəyev isə demişdir ki, o özü nəzarət edir, axır seanslarda şəxsən özü oğlunu və gəlinini qəbul edəcək, özü məşğul olacaqdır.

### "Oğlanla qızın üstünə getməyin..."

İlham Mirzəyev ona deyib ki, "oğlanla qızın üstünə getməyin, onlardan heç nə soruşmayın ki, nə oldu, necə oldu, müalicə ilə bağlı onlardan heç nə soruşub maraqlanmayın, səbirli olun, hər şey yaxşı olacaqdır".

### Borca salınan ana torpağını icarəyə verib!

Beləcə, gəlini 16 günlük seansları tam şəkildə bitirmiş, oğlu isə 15 günlük seansdan keçib 1 seansı qalıb. Oğlu sonuncu dəfə "İlhaMed" tibb mərkəzində 2 aprel 2014-cü il tarixdə olmuş və özü axırıncı seansa getməyib ki, İlham Mirzəyevin bu müalicəsinə inanmır, heç bir nəticəsi də yoxdur. Bir həftə əvvəl onların seansı başa çatmış, lakin oğlu və gəlininin cinsi həyat yaşamaqla bağlı uğursuzluğu aradan qalxmamış, İlham Mirzəyevin təyin etdiyi müalicənin heç bir nəticəsi olmayıb. Halbuki o, uşaqların müalicəsi üçün pulu olmadığından rayonda qohum-əqrəbadan borca pul götürmüş, həmin borcu ödəmək üçün isə dövlət tərəfindən verilmiş 2 hektar pay torpağını 6 illik icarəyə verib, borcunun bir hissəsini, yəni 1000 manatını ödəyib.

### Pullar gedib, problemsə qalıb!

Oğlunun toy gecəsi uğursuzluq problemi həll olunmadığı üçün istəyib ki, gedib İlham Mirzəyevdən pulunu geri tələb etsin. Çünki İlham Mirzəyev onları birinci dəfə qəbul etdikdə 16 seansdan sonra problemi tam şəkildə həll edəcəyinə, heç bir problemin qalmayacağına əmin edib. Bir neçə gün əvvəl televizora baxdıqda görüb ki, "İlhaMed" tibb mərkəzinin direktoru İlham Mirzəyev fırıldaqçılıqla məşğul olduğuna görə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs olunub. Buna görə o da həmin idarəyə gələrək şikayət ərizəsi ilə müraciət edib. Bildirib ki, o, İlham Mirzəyevin yalan vədlərinə inandığı üçün onun tibb mərkəzinə 50 manat qəbul üçün, 100 manat UZİ müayinəsi üçün, gəlini 16 günlük seansı üçün 672 manat, oğlu 15 günlük seansı üçün 630 manat olmaqla, cəmi 1452 manat pul ödəyib.

*(davamı gələn sayımızda)*

# Oğurluq avtomobillər Azərbaycana necə gətirilir?



## Kamran Əliyev oğurluq maşınların ölkəmizdə aşkar olunmasının detallarını açıqladı

**"Bu ilin 8 ayı ərzində Dövlət Yol Polisi xarici ölkələrdə oğurlanaraq Azərbaycana gətirilən 7 avtomobil aşkar edilib". Bu barədə "Yeni Müsavat"ın sorğusuna cavab olaraq Daxili İşlər Nazirliyi (DİN) Respublika Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev məlumat verib.**

Şöbə rəisi bildirib ki, əgər maşın barəsində axtarış işi oğurlandığı vaxtdan az sonra elan olunursa, həmin nəqliyyat vasitəsi qısa zamanda müəyyən olunur: "Həmin maşınlar respublikamıza çatana qədər digər ölkələrin ərazisində aşkarlanır və saxlanır. Maşının oğurlanması haqda informasiyanın hüquq-mühafizə orqanlarına gec ötürülməsi, İnterpola məlumatları gec verilməsi kimi səbəblərdən Avropada oğurlanan avtomobillər ölkəmizə və digər ölkələrin ərazisinə daxil ola bilir. Bəzən identifikasiya, ban nömrəsində saxtakarlıq əlamətləri aşkar olunur. Belə hallar olanda ekspertizanın rəyi alınır və müvafiq qərar verilir. DYP belə halların aşkarlanmasına məsul qurumdur. DYP tərəfindən aşkarlanan 7 avtomobil Almaniyadan oğurlanaraq ölkəmizə gətirilmiş nəqliyyat vasitələridir. Həmin avtomobillərin aşkar olunması Azərbaycan DYP-nin Almaniya hüquq-mühafizə orqanlarına müvafiq sorğusu nəticəsində mümkün olub".

**K.Əliyev avtomobil oğrularının niyə məhz Almaniyanı seçmələri haqda suala belə cavab verdi:** "Bunun səbəbini dəqiq deyə bilmərəm. Bunu oğrular daha çox bilər. Oğurlanan avtomobillər daha çox Avropa dövlətlərinə aparılır. Bilirsiniz ki, Avropa dövlətləri arasında sərhəd yoxdur. Almaniyadan sonra İtaliyadan da çoxlu avtomobil oğurlanır. Biz Almaniyada ezamiyyətdə olarkən maraqlanırdıq ki, xarici dövlətlərdə oğurlanan avtomobillərin müəyyən edilməsi necə həyata keçirilir. Bizə məlumat vermişdilər ki, bir axşam Avropa dövlətində oğurlanan avtomobil 2-3 Avropa dövlətinin ərazisindən keçməklə 4-cü dövlətdə müəyyən edilib. Orada isə avtomobilin ban, mühərrik nömrəsi dəyişdirilir".

**K.Əliyev bildirib ki, avtomobil oğurluğu dünyada problemə çevrilmiş məsələdir:** "Azərbaycanda avtomobilin oğurlanması, qaçırılması ilə bağlı vəziyyət deyərdim ki, təkcə MDB məkanında deyil, Avropa dövlətlərindən də qat-qat daha yaxşıdır. Azərbaycanda daha çox qaçırılma ilə bağlı məlumatlar olur, lakin araşdırılanda aydınlaşır ki, avtomobil sahibinin qohumu və ya oğlu ondan icazəsiz nəqliyyat vasitəsini götürüb gedib".

"Rossia Today" telekanalı Avropa ölkələrindən oğurlanan avtomobillərin, Azərbaycan da daxil olmaqla, bəzi keçmiş sovet respublikalarına daşınmasından bəhs edən reportaj yayıb. Həmin reportajda Avropa İttifaqına üzv ölkələrin öz aralarında sərhədləri açması insanların sərbəst hərəkətinə imkan yaratmaqla bərabər oğruların da əl-qolunu açdığı vurğulanırdı.

**Telekanala müsahibə vermiş Almaniyanın Polşa ilə sərhədinə yaxın bölgədə ferması olan Folker Naşke deyib ki, onun traktorunu və 13 danasını oğurlayıblar:** "Oğrular mütəşəkkil şəkildə hərəkət edirlər və əllərinə nə keçdi oğurlayırlar. Onlar bilirlər ki, nə üçün gəliblər".

"Əsas problem odur ki, dövlət sərhədləri cinayətkarların qarşısını kəsmir. Biz polislər isə ancaq öz ölkəmizin sərhədləri daxilində hərəkət edə bilərik" - deyə alman polis komissarı Yens Ştariqk bildirib. Polis komissarı deyir ki, ən mürəkkəb vəziyyət avtomobil oğurluğu ilə bağlıdır. "Biz mütəşəkkil qruplaşma halında fəaliyyət göstərən peşəkarlarla və oğurlanan avtomobillərin geniş bazarı ilə üzləşmişik. Oğurlanmış bahalı avtomobillər Rusiya, Azərbaycan, Qazaxıstan, hətta Çində satılır. Bu problem bütün Avropa üçün xarakterikdir" deyə, polis komissarı Yens Ştariqk bildirir. O əlavə edir ki, Avropa polisi üçün oğurlanmış avtomobillərin satıldığı ölkələrin sərhədlərini keçmək mümkün deyil.

Səhifəni hazırladı: E.MƏMMƏDƏLİYEV

# Ölüm saçan şüalar-tomoqrafiya...

## **Adil Qeybulla:** "Rentgen şüaları uzun müddət təsir etdikdə xərçəng şişi yarada bilər"

**Böyük Britaniya alimlərinin araşdırmaları kompüter tomoqrafiyasının xərçəng xəstəliyinə səbəb olduğunu aşkara çıxarıb. Bütün dünyaya SOS mesajı verən mütəxəssislər tomoqrafiya testi zamanı insan bədəninə normal rentgendən 100 dəfələrlə artıq radiasiya verildiyini aşkar ediblər.**

Bundan sonra İngiltərənin Səhiyyə Nazirliyi sağlam adamların bədənlərini tomoqrafiya etmələrinə qadağan qoyub. Nazirliyin mütəxəssislərinin rəyinə görə, bu zaman bədənin məruz qaldığı radiasiya Xerosimada atom bombasından qurtulan insanlarda olan qədərdir.

**Tibb elmləri doktoru Adil Qeybulla** deyir ki, rentgen şüaları dəriyə nüfuz etdiyinə görə hüceyrələrdə mutasiya yarada, xərçəng şişi törədə bilir: "Kompyüter tomoqrafiyası zamanı rentgen şüalarından nisbətən daha çox miqdarda istifadə olunur. Çəkilən şəkillər kompyüter rejimində emal olunur, bu zaman şüalanma daha çox olur. Ancaq bu şüalanma xəstənin bədənində şiş yaranmasına səbəb olmur, tədricən bədəndən sovrulur. Kompyüter tomoqrafiyası da rentgenin bir növüdür. Rentgen şüaları uzun müddət təsir etdikdə xərçəng şişi yarada bilər. Bu baxımdan belə bir ehtimallar var".

**A. Qeybullanın sözlərinə görə, kompüter tomoqrafiyasından imtina etmək hələ ki mümkün deyil:** "Tomoqrafiyadan imtina edilsə, gərək bütün şüalanma ilə həyata keçirilən müayinə vasitələrindən də imtina olunsun. Bəzən diaqnostik və müalicə zamanı bu şüalara ehtiyac olur. Məsələn, elə xərçəng şişinin müalicəsində ionlaşdırıcı şüalanmalardan, qamma şüalardan, radioizotop şüalardan istifadə olunur ki, bunun özü də xərçəng şişi törədə bilir, eyni zamanda xərçəng şişinin müalicəsi üçün istifadə olunur. Hər halda, insan orqanizmi üçün daha təhlükəsiz alternativ metodlar tapılsa, əlbəttə bu metodlar tədricən tarixə qovuşacaq. Ancaq hələ ki alternativ yoxdur. Bəzən xəstənin bir neçə dəfə tomoqrafiya olunması vacib olur".

**Tibb ekspertinin sözlərinə görə, sovet dövründə rentgen kabinetlərində çalışan həkimlərə şüalanmaya məruz qaldıqları üçün əlavə imtiyazlar verilirdi, pensiyaya nisbətən tez çıxırdılar, maaşları nisbətən yüksək idi:** "İnsan orqanizmi üçün şüalanmaya yol verilən hədd var. Bu həddən artıq ola bilməz. Əgər orqanizm daha çox şüalanmaya məruz qalırsa, daima müşahidə altında olmalıdır".

**Adil Qeybulla deyir ki, Azərbaycan tomoqrafiya qiymətlərinin ən ucuz olduğu ölkələrdən biridir:** "Tomoqrafiya qiymətləri əvvəllər yüksək idi, ancaq indi getdikcə ucuzlaşır, qiymətlər 60-70 manat civarında dəyişir. Ola bilər ki, klinikanın statusundan asılı olaraq bir az fərqli olsun. Xaricdə tomoqrafiya qiymətləri Azərbaycandan dəfələrlə bahadır. Məsələn, maqnit rezonans tomoqrafiyası bəzi klinikalarda 1000 ABŞ dolları civarındadır. Bu da həmin ölkədən, klinikadan və bu bölgədəki qiymətlər sistemindən asılıdır".



Tomoqrafiya qiymətləri ilə bağlı bəzi dövlət və özəl klinikalarla əlaqə saxladıq. Məlum oldu ki, orta hesabla qiymətlər əksər klinikalarda eynidir. Belə ki, baş-beyin tomoqrafiyası 70-100 manat, döş qəfəsi tomoqrafiyası 80-100 manatdır. Müəyyən dərman və iynələrin tətbiqindən sonra həyata keçirilən tomoqrafiyanın qiyməti isə 130-160 manat arasında dəyişir.

Türkiyə xəstəxanalarında tomoqrafiya qiymətləri üzrə internetdə apardığımız araşdırmalardan bəlli oldu ki, qardaş ölkədə müayinə Azərbaycandakından 2-3 dəfə baha başa gəlir.

**Səhiyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Qədirlinin sözlərinə görə, tomoqrafiyanın insan bədəninə zərərli təsiri onun şüalanma dərəcəsindən asılıdır və bu da həkimlər tərəfindən tənzimlənir:** "İstər rentgenin və kompüter tomoqrafiyasının, istərsə də digər şüalanma üsulu ilə həyata keçirilən müayinələrin insana zərəri var. Həkimlər xəstənin müayinədən keçmə periodunu nəzarətdə saxlamalıdır və bu tez-tez baş verməməlidir. İldə bir və ya iki dəfə bu cür müayinələrdən keçməyin zərəri yoxdur".

## Ölkədə intihar dalğası: 1 nəfər damarını kəsdi, 2 nəfər boğazını

**Ağcabədi rayonunda intihar hadisəsi baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, hadisə rayonun Yuxarı Qiyamadanlı kəndində qeydə alınıb. 1994-cü il təvəllüdlü Xankişiyev Şamxal Cümşüd oğlu yaşadığı evdə intihar edib. İntiharın səbəbi bəlli deyil.**

Gəncədə də intihar hadisəsi baş verib.

Gəncə Şəhər Təcili Tibbi Yardım Xəstəxanasından APA-nın qərb bürosuna verilən məlumata görə, şəhər sakini, 1960-cı il təvəllüdlü Elmira Kərimova sağ baldırın aşağı hissəsinin ülgüclə kəsilmiş diaqnozu ilə xəstəxanaya yerləşdirilib.

Tibbi yardım göstərilsə də, 54 yaşlı qadını xilas etmək mümkün olmayıb.

Şabran rayonunda da ailələrin birində dəhşət yaşanıb.

Şabran Rayon Polis Şöbəsinin rəisi Əli Mərdanovun ANS PRESS-in bölgə müxbirinə verdiyi məlumata görə, hadisə rayonun Zeyvə kəndində baş verib.

Kənd sakini 1990-cı il təvəllüdlü Dilqəm Məlikməmməd oğlu Nuriyevin yaşadığı evin həyətində asılmış meyiti tapılıb. Məlumat daxil olan kimi hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gediblər. Araşdırmalar nəticəsində məlum olub ki, Dilqəm Nuriyev intihar edib.

Qeyd edək ki, Dilqəm Nuriyev evli olub və həyat yoldaşı hamilədir. Onun ailəsində problemlər olduğu deyilir. Lakin intiharın dəqiq səbəbləri araşdırmalardan sonra məlum olacaq.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda araşdırma aparılır.

## Bərdədə ana doğuş zamanı ölüb

**Bərdədə 25 yaşlı qadın doğuş zamanı həyatını itirib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, Yevlax rayon sakini, 25 yaşlı Manafova Aynur Məhərrəm qızı sentyabrın 23-də günün ikinci yarısında Bərdə Mərkəzi Rayon Xəstəxanasının doğum şöbəsinə yerləşdirilib.**

Gecə saatlarında o, doğuş zamanı həyatını itirib.

Uşağın həyatını isə xilas etmək mümkün olub.

## Bakıdakı dəhşətli qətlin təfərrüatları

**Bakıda qətl hadisəsi baş verib. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Qobu qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakini, 1983-cü il təvəllüdlü Vüsal Nəriman oğlu Rəhimov aralarında yaranan münaqişə zəminində 1959-cu il təvəllüdlü həmyerlisi Rahib Tağı oğlu Xəlfəyevi bıçaqlayaraq qətlə yetirib.**

Daxili İşlər Nazirliyinin verdiyi məlumata görə, sentyabrın 23-də Bakı şəhər sakini Vüsal Rəhimov Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinə müraciət edərək sentyabrın 17-də Qobu qəsəbəsində paytaxt sakini Fuad Nurməmmədova məxsus "Az-Samand" markalı avtomobildə sentyabrın 19-da itkin düşmüş Lökbatan qəsəbə sakini Rahib Xəlfəyevi bıçaqla qətlə yetirib hadisə yerini tərk etdiyini, cəsədin isə F.Nurməmmədov tərəfindən Pirşağı qəsəbəsi ərazisində basdırıldığını bildirib.

Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində V.Rəhimov və F.Nurməmmədov tutulublar.



## Daha 12 gənc «Azercell»in tələbə proqramına qoşulmaq imkanını qazandı

**Azərbaycan mobil rabitə bazarının lideri «Azercell Telekom» fəaliyyətə başladığı gündən gənclərin elm və təhsilinin inkişafı üçün bir sıra uğurlu layihələr həyata keçirib. Bu layihələr sırasında ölkə universitetlərində 3G və 4G laboratoriyalarının təşkili, Barama İnnovasiya Mərkəzi nəzdində reallaşan saysız uğurlu layihələr, müxtəlif Tələbə Proqramlarını xüsusilə qeyd etmək olar. Şirkətin 2008-ci ildən etibarən tələbələrə təqdim etdiyi Tələbə Proqramının bu il üçün nəticələri müəyyən edilib.**

**Tələbə Proqramının çox mərhələli seçimləri nəticəsində 12 tələbə «Azercell»in təqaüdçüsü adına layiq görülüb. Bu tələbələr ali təhsillərinin sonunadək «Azercell» şirkətindən 200 AZN məbləğində aylıq təqaüd almaqla yanaşı, telekommunikasiya sahəsi haqda biliklərini artırmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və şirkətdə təcrübə keçmək imkanını əldə edəcəklər. Proqramın qalibləri sırasında Qafqaz Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Azərbaycan Dövlət Aqrar Universitetinin,Gəncə Dövlət Universitetinin, Azərbaycan Texnologiya Universitetinin tələbələrinin adları yer alıb.**

**Qeyd edək ki, qaliblərin seçilməsi üçün 3 mərhələ keçirilib. Birinci seçim mərhələsi tələbələrin onlayn rejimdə təqdim etdikləri ərizələrin və sənədlərin dəyərləndirilməsindən ibarət olub. İkinci seçim mərhələsində tələbələrə məntiq məsələlərindən ibarət yazılı tapşırıqla yanaşı müxtəlif mövzularda ingilis dilində inşa yazmaq tapşırığı verilib. Nəhayət, sonuncu mərhələdə tələbələr «Azercell»-in rəhbər vəzifələrində çalışan işçiləri və mütəxəssisləri tərəfindən keçirilən üz-üzə müsahibələrdə iştirak ediblər. Tələbə Proqramının məqsədi müvəffəqiyyətlə təhsil alan tələbələrə xüsusi qayğı göstərmək və onların gələcəkdə peşəkar kimi formalaşmasına dəstək olmaqdır.**

**Qeyd edək ki, Azərbaycanlı tələbələr tərəfindən çox maraqla qarşılanan bu proqram 2008-ci ildən etibarən hər tədris ilində təqdim edilir. Bu müddət ərzində Azərbaycanın müxtəlif universitetlərində təhsil alan 50-dən çox tələbə «Azercell»in təqaüdçüsü adına layiq görülüb. Onlar «Azercell»dən təqaüd almaqla yanaşı, həm də şirkətin mütəxəssislərinin yardımı ilə gələcək karyeraları üçün əvəzedilməz təcrübə qazanıblar.**

**Bununla da «Azercell Telekom» korporativ sosial məsuliyyətli fəaliyyətini gücləndirir və cəmiyyətimizə daha artıq töhfə verməkdə davam edir.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom» MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell» Ekspres ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»-in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. «Azercell» dünyanın 17 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaşı olan «TeliaSonera» şirkətlər qrupunun bir hissəsidir.**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**





YENİ MÜSAVAT
N 238 (5948) 24 sentyabr 2014



# Türkiyə-Azərbaycan hərbi təlimlərinin uzadılmasının sirri

**Sentyabrın 13-dən başlanan Azərbaycan və Türkiyə silahlı qüvvələrinin genişmiqyaslı hərbi təlimləri sentyabrın 20-də başa çatdırılmalı olsa da, sonradan təlimlərin 3 oktyabradək davam etdirilməsi barədə qərar verilib. Müdafiə Nazirliyindən aldığımız məlumata görə, Hərbi Hava Qüvvələrinin birgə təlimləri ötən gün də davam edib.**

**Təlimlərdə iştirak edən Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları Azərbaycan pilotları ilə birgə ikiyerli döyüş-təlim MiQ-29 tipli qırıcı təyyarələrində ölkəmizin hava məkanındakı uçuş zonaları, ərazidəki hərbi aerodromların qalxma-enmə zolaqları, marşrut üzrə aeronaviqasiya vəziyyəti, uçuş, enmə və ehtiyat aerodromlarındakı şəraitlə tanış olmaq məqsədilə uçuşlar həyata keçiriblər.**

Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotlarının ikiyerli döyüş-təlim F-16 tipli qırıcı təyyarələrində Türkiyə pilotları ilə birgə uçuşları da icra olunacaq. Qeyd edək ki, təlimlərdə Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus 30-dan artıq aviasiya vasitələri, o cümlədən MiQ-29, F-16 qırıcı, Su-25 hücum və C-130 Herkules hərbi-nəqliyyat təyyarələri, Mi-24, AH-1W Super Cobra döyüş və Mi-17, Sikorski UH-60 döyüş-nəqliyyat helikopterləri iştirak edir.

Nazirliyin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı təlimlərin daha iki həftə uzadılmasının səbəbini açıqlamayaraq bildirdi ki, proses nəzərdə tutulan qrafik üzrə həyata keçirilir. Əslində bu, Azərbaycan və Türkiyə silahlı qüvvələrinin tarixdə ən genişmiqyaslı olmaqla bərabər, həm də ən uzunmüddətli davam edən hərbi təlimləridir. Şübhə yox ki, iki qardaş ölkənin birgə təlimləri düşmən ölkədə ciddi narahatlıqla izlənilir.

Qeyd edək ki, oktyabrın sonlarında Fransa paytaxtında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü planlaşdırılır. Eyni zamanda Rusiya prezidentinin azərbaycanlı həmkarı ilə görüşəcəyi barədə məlumat yayılıb. Bu mənada Bakı ilə Ankaranın birgə hərbi addımlarının Azərbaycanın mövqelərinin güclənməsinə hesablandığı da şübhə doğurmur.

Azərbaycan Müdafiə Nazirliyindən isə deyirlər ki, burada siyasi çalar axtarmağa zərurət yoxdur. Türkiyə və Azərbaycan aviasiyasının cəbhə xətti üzərində də uçuşlar keçirib-keçirməyəcəyi maraqlıdır. Bugünlərdə erməni mənbələri "Azad Artsax üzərində azad uçuş" sərlövhəsi ilə təqribən 6 dəqiqəlik videorolik yayıb. Həmin rolikdə Xankəndi hava limanından uçan kiçiktutumlu helikopterlə işğal altındakı Xankəndi və Şuşa üzərində uçuşlar həyata keçirilib və çəkilişlər aparılıb. Ermənilər bununla Xankəndi hava limanını istifadəyə verməyə hazır olduqlarını nümayiş etdirməklə bərabər işğal etdikləri Azərbaycan ərazilərinin "azad" görüntüsünü yaratmağa cəhd ediblər.

Bu mənada Azərbaycanın məsələyə reaksiyasının olub-olmayacağı da maraqlıdır. **V.Dərgahlı** dedi ki, təlimlərdə uçuşlar nəzərdə tutulan qrafik və planlaşdırılan marşrutlar üzrə həyata keçirilir: **"Odur ki, bunu konkretləşdirməyəcəyəm". MN sözçüsü qeyd etdi ki, hərbi təlimlər konkret bir bölgədə keçirilməyib: "İrimiqyaslı təlimlər olduğu üçün qoşun növləri ölkənin müxtəlif yerlərində təlim keçir".**

Bu arada Azərbaycanın Türkiyə ilə daha bir iri hərbi razılaşma əldə etdiyi barədə xəbər yayılıb. Türkiyənin "Roketsan" şirkəti aldığı sifariş əsasında Azərbaycana "Kasırğa T-300" reaktiv sistemlərini verməyə başlayıb. Virtualaz.org saytı xəbər verir ki, bu haqda şirkətin rəhbəri Eyup Kaptan TRT kanalına açıqlamasında bildirib. Eyup Kaptan məlumat verib ki, Azərbaycanın sifariş verdiyi bir diviziyon *(4 kompleks)* "Kasırğa T-300" sistemi ilin sonunadək çatdırılacaq. Hər kompleksin tərkibinə 4 raket daşıya bilən mobil platforma, komanda-nəzarət mərkəzi, hava hücumundan müdafiə sistemi və radar daxildir. Sistemin komponentlərinin hamısı mobil platforma üzərində yerləşdirilib. Bu da "Kasırğa T-300" sistemlərinin düşmən hədəflərinə dağıdıcı zərbə endirdikdən sonra qısa müddət ərzində öz mövqeyini dəyişdirməsinə, beləliklə, düşmənin cavab zərbələrindən yayınmasına imkan verir.

Müdafiə Nazirliyinin rəsmisi V.Dərgahlı Türkiyədən "Kasırğa T-300" sistemlərinin alınması ilə bağlı suala cavab verə bilməyəcəyini də qeyd etdi.

**Hərbi ekspert Azad İsazadə isə deyir ki, Türkiyə və digər ölkələrdən alınmış silah-sursat nəticəsində Azərbaycanın Rusiya silahından asılılığı get-gedə azalır:** "Təbii ki, birdəfəlik rus silahından imtina edə bilmirik. Ancaq tədricən NATO sisteminə məxsus silahları əldə edirik". **Ekspert Azərbaycanın əldə etdiyi yeni sistemlərin müstəsna önəmini qeyd etdi:** "Bu sistemlər Naxçıvanda yerləşdirilsə, erməniləri ciddi təşvişə salmaq mümkündür. Çünki bunlar İrəvanı rahat hədəfə almaq qabiliyyətinə malik sistemlərdir. Bu da erməniləri



**Vaqif Dərgahlı:**
"Təlimlər nəzərdə tutulan qrafik və planlaşdırılan marşrutlar üzrə həyata keçirilir"



**Azad İsazadə:**
"Türkiyədən alınacaq "Kasırğa T-300" reaktiv sistemləri erməniləri qorxudur"

çox qorxudur". **A.İsazadə Rusiyanın Xəzərdə, özü də Azərbaycanın sahil sularında özünün raket kompleksini qurmaq cəhdlərini də ciddi təhlükə sayır:** "Xəzərdə Rusiya öz hərbi donanma potensialını artırır. Bu isə gec-tez Xəzərsahili ölkələrə təhlükə yarada bilər. Bu mənada Xəzəryanı ölkələr bəlkə də bu təhlükəni birgə müzakirə etməlidir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir ki, bu ay Azərbaycanın hərbi inkişafı ilə bağlı iki mühüm hadisə baş verib:** "Birinci hadisə Bakıda Beynəlxalq Hərbi Müdafiə Sənayesi Sərgisinin - "ADEX-2014"ün keçirilməsi idi. İki günlük sərgidə Azərbaycan öz hərbi məhsulları ilə təmsil olunmuşdu. Sərgidə Türkiyə, İsrail və Fransa kimi ölkələrin hərbi texnikası da yer almışdı. Azərbaycan məhz bu ölkələrlə hərbi əməkdaşlığı genişləndirməyə çalışır. Ölkənin müdafiə sənayesi 30-dan çox dövlətlə əməkdaşlıq qurub, müasir texnologiyalar əldə edir. İsrailin və Türkiyənin müdafiə nazirləri şəxsən Bakıya gələrək sərgiyə qatılmışdılar. Bu sərgi ilə rəsmi Bakı Qərbə göstərdi ki, Dağlıq Qarabağ münaqişəsinə görə NATO ölkələrinin Azərbaycana tətbiq etdiyi silah embarqosu işləmir. Sərgidə ABŞ şirkətləri təmsil olunmasa da, bəzi NATO ölkələrinin Azərbaycandakı sərgiyə maraq göstərməsi yaxın gələcəkdə Qərbin önəmli silah şirkətlərinin Azərbaycanla əməkdaşlığa başlayacağına işarədir. Fransa və Polşanı misal çəkmək olar. Hər iki ölkə Azərbaycanla hərbi əməkdaşlığa can atır".

**E.Şahioğlu hesab edir ki, Dağlıq Qarabağ problemi ilə yanaşı Azərbaycana digər təhlükələr də var:** "NATO Azərbaycanın bu təhlükələrə qarşı müasir hərbi qüvvələrinin olmasını istəyir. Alyansın qeyri-rəsmi embarqosu səbəbindən Azərbaycan Rusiya ilə hərbi sahədə əməkdaşlıq etmək məcburiyyətindədir. Rusiya Azərbaycana 100 ədəd T-90S tank satıb, daha 100 tankın satılması istiqamətində danışıqlar gedir. Bundan başqa, Rusiya Azərbaycana T-72 tanklarını müasirləşdirməyi təklif edib. Beləliklə, boşluqdan istifadə edən Rusiyanın hərbi sənaye kompleksi Azərbaycanda möhkəmlənir. Çünki Rusiyadan bu qədər silah alan Azərbaycan gələcəkdə həmin texnikanın ehtiyat avadanlıqlarını da Rusiyadan almaq məcburiyyətində qalacaq. Bu isə yeni kontraktlar deməkdir".

**Ekspertin fikrincə, ikinci hadisə sentyabrın 13-dən başlayaraq Azərbaycan ərazisində Azərbaycanla Türkiyənin birgə hərbi təlimlərinin keçirilməsi idi:** "Təlimlərə 30 min canlı qüvvə, 250-dən artıq zirehli texnika, raket və artilleriya qoşunlarının 150-dən çox qurğusu, 20-dək təyyarə, 15 helikopter qatılmışdı. Miqyasına görə bu, Azərbaycanla Türkiyə arasında ilk belə genişmiqyaslı hərbi təlimlər idi. Bu təlimlərin bir neçə məqsədi olub. Birinci məqsəd Rusiya və Ermənistana mesaj göndərmək idi. Rəsmi Bakı Kremllə normal münasibətlərə çalışsa və bu ölkədən silah alsa da, Moskvanın əvvəlki kimi Ermənistana dəstək verdiyini və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində maraqlı olmadığını anlayır. Avqustun əvvəllərində cəbhə bölgəsində atəşkəs pozulduqda Rusiya prezidenti Vladimir Putin hərbi təşəbbüsün Azərbaycanın tərəfinə keçəcəyindən ehtiyatlanaraq dərhal Soçidə görüş təşkil etdi. Putinin məqsədi münaqişənin həllini sürətləndirmək deyil, prezident İlham Əliyevə müharibənin başlamasının Azərbaycanın zərərinə olacağını anlatmaq idi. Təsadüfi deyil ki, Soçi görüşündən sonra Rusiya Ermənistanla birgə iki hərbi təlim keçirdi. Bu, Kremlin Bakıya xəbərdarlıq mesajı idi".

**E.Şahinoğlu xatırladır ki, sentyabrın 3-dən 7-dək Ermənistandakı Alagöz təlim-məşq kompleksində Rusiya hərbi bazası və Ermənistan Müdafiə Nazirliyi hərbçilərinin iştirakı ilə batalyon-taktik təlimlər keçirildi:** "Təlimlərə 1500 hərbçi, 300 zirehli tank, avtomobil və xüsusi hərbi texnika cəlb olunmuşdu. Deməli, rəsmi Bakı bu təlimlərə cavab verməli idi. Ən yaxşı variant kimi də Türkiyə ilə birgə daha böyük canlı qüvvə və hərbi texnika ilə birgə hərbi təlimlərə üstünlük verildi. İkinci məqsəd Ukraynadakı hadisələrə reaksiyadır. Belə bir fikir geniş yayılıb ki, Ukraynadan sonra növbə Cənubi Qafqaza çatacaq. Yəni Rusiya Krımı işğal etdikdən və Ukraynanın şərqində separatçı bölgəni rəsmiləşdirdikdən sonra Gürcüstan və Azərbaycana təzyiqləri artıracaq ki, hər iki ölkə Kremlin siyasi və iqtisadi orbitində yer alsın. Türkiyə-Azərbaycan birgə hərbi təlimləri Rusiyaya Azərbaycanın Ukraynaya bənzəmədiyini, güclü ordusunun olduğunu və "X" vəziyyətində Türkiyənin Azərbaycana hərbi dəstək verəcəyini anlatmalı idi".

Politoloqa görə, hərbi təlim həm də Avrasiya bölgəsindəki ağır duruma reaksiyadır: "İŞİD terror qruplaşması Türkiyə və Azərbaycanı da hədəf götürüb. Bu qrup xilafət xəritəsinə Azərbaycanla Türkiyəni də daxil edib. Ona görə də Azərbaycanla Türkiyənin birgə hərbi təlimləri İŞİD qruplaşmasına da mesajdır ki, bu iki ölkədən uzaq dayansın. Dördüncü məqsəd enerji və boru xətlərinin qorunmasıdır. Dağlıq Qarabağ münaqişəsi və İŞİD terror qruplaşması Azərbaycan və Türkiyə ilə yanaşı enerji resurslarının dünya bazarlarına çatdırılmasına da təhdid yaradır. 2015-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu da işə düşəcək. Ona görə də Azərbaycan-Türkiyə birgə hərbi təlimləri boru xətlərinin mühafizə altında olduğuna da işarədir. Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində boru xətlərin qorunması komponenti də olduğundan gələcəkdə bu hərbi təlimlərə Gürcüstanın qoşulması realdır".

Bir müddət öncə Ermənistandan BTC-yə təhdid bəyanatı da səslənmişdi və şübhəsiz ki, bu, reaksiya doğurmaya bilməzdi. O da şübhə doğurmur ki, NATO ölkəsi olan Türkiyə silahlı qüvvələrinin Azərbaycanla birgə bir aya yaxın davam edən təlimləri Alyansın iradəsindən kənar həyata keçirilmir. O cümlədən Türkiyənin Azərbaycana raket kompleksi satması da. Bu isə o deməkdir ki, Azərbaycan artıq NATO ilə əməkdaşlığın növbəti mərhələsinə qədəm qoyub. Faktiki olaraq Türkiyə qırıcılarının timsalında NATO bazaları Azərbaycandadır. İllərdir gözlənilən hadisə baş verib, sadəcə, "məxməri" şəkildə...

# YENİ MÜSAVAT

## Son səhifə

*N 239 (5948) 25 sentyabr 2014*




## Yalançılığı bu klinikada müalicə edirlər

İnsanlar üçün gündə orta hesabla 2 yalan danışmaq normal qəbul edilir. Amma bu rəqəmi 200-ə qədər artıranlar üçün Berlində bir klinika açılıb. İtalyanın "Libero" qəzetinin xəbərinə görə, "Buratino" sindromundan qurtulmaq üçün "Sofie Charlotte" Xəstəxanasında açılan "Yalançılıqla mübarizə" bölümünə könüllü olaraq gələn və yalan söyləməkdən qurtulmaq istəyənlərin sayında gözlə görülən bir artım müşahidə olunur. Amma müalicə müddəti uzandığı üçün hazırda klinika lazımi sayda xəstə qəbul edə bilmir. Bu vərdişlərindən qurtulmaq üçün insanlar bəzən aylar, hətta bir ilə qədər davam edən müalicələrdən keçir. Akademik adı "Psidoloji" adlanan bu xəstəliyin qurbanları yalan söyləməklə özünə zövq verəcək heyranlıqlar, əyləncələr, xoşbəxtliklər yaradacaq bir dünyanın arxasınca düşür, sonra da işi şişirdərək başqaları ilə paylaşmağa qərar verirlər. Maraqlıdır ki, klinikada gündə 100 yalan deyən insanlar xəstə kimi qəbul edilmir. Amma gündə 200 və ondan daha artıq yalan deyənlər mütləq müalicədən keçməlidir.

## Uşağın kök olacaqsa, bunu test müəyyənləşdirəcək



Doğumdan sonra həyata keçirilən bəsit bir hesablama uşağın gələcəkdə kök olub-olmadığını müəyyənləşdirir. Finlandiyalı, italiyalı və amerikalı uşaqların doğumdan sonrakı göstəricilərini təhlil edən heyət maraqlı nəticələr əldə edib. Filip Froguelin rəhbərliyi ilə həyata keçirilən əməliyyat zamanı yenicə doğulan uşaqların şişman olma riskinin nə qədər olduğunu müəyyənləşdiriblər. Froguel və heyəti 1986-cı ildə doğulan 4 min uşağı yeniyetməlik dövrünə qədər izləyib. Alimlər hamiləlikdən öncə ana və atanın orqanizminin kütlə indeksini, habelə ananın hamiləlik zamanı nə qədər kökəldiyi, siqaret çəkib-çəkmədiyini, ailədəki uşaq sayı, uşağın necə kilo dünyaya gəldiyini də araşdırıb. Alimlər daha sonra bu araşdırmanı 1500 italyan və 1000 amerikalı uşaq üzərində də təsdiqləyiblər.

## İnsanlar işini itirməkdən qorxub... depressiyaya girir



Avropa Depressiya Birliyi bugünlərdə maraqlı bir araşdırma hazırlayıb. Araşdırmaya görə, hər 10 işçidən biri depressiya səbəbindən işə gedə bilmir. Bu adamlardan 4-ü də işini itirməkdən qorxub depressiyaya girir. Rəhbərlərdən üçdə biri depressiyaya qarşı hər hansı tədbir görmür. Türkiyədə isə iş yeri sahiblərinin cəmi 10 faizi depressiyaya girən işçilərinə dəstək verir.

## Bu meşədə ancaq intihar edirlər



Yaponiyadakı Fudziyama dağının ətəklərini bəzəyən bu meşənin əsl adı "Aokigahara"dır, amma bundan daha çox "intihar meşəsi" olaraq bilinir. Səbəbi də intihar etmək istəyənlərin son məkan olaraq buranı seçməsidir. Meşə Vataru Tsurumuinin "İntihar stolüstü kitabı" adlı kitabında "ölmək üçün mükəmməl bir yer" adlandırılır və intiharla həyatına son verənlər arasında da məşhur olduğu bilinir. Bəlkə də bəxtsiz meşənin tarixi qaranlıq olduğu üçün belə təqdim edilir. 2002-ci ildə bu meşədə tam 78 cəsəd tapıldı, 1998-ci ildə bu statistika 73 idi. 2006-cı ildə isə 16 cəsəd tapıldı. Cəsədlərin bəziləri, yanlarında Tsurumuinin intihardan bəhs edən o "məşhur" kitabını da daşıyırdı. Standart bir meşədə görülən "Od yandırmayın" yazıları yerinə, burada "lütfən intihar etməyin, intihar etmədən əvvəl bir dəfə daha düşünün" kimi yazılar var. Hətta "intihar etməyə qərar verdinizsə, bir polislə məsləhətləşin" yazan lövhələr belə var.



## Müdir olmaq istəyirsənsə... ya apreldə doğul, ya da mayda

Mart və aprel ayında doğulanların karyeraları daha uğurlu olur.

Sən demə, doğum tarixi insanların karyeralarına təsir edir. Britaniya Kolumbiyası Universitetinin tərkibində fəaliyyət göstərən Sauder Biznes Məktəbinin alimləri maraqlı araşdırma aparıblar. Məlum olub ki, yay aylarında anadan olan şəxslərin rəhbər vəzifələrdə işləmək şansı daha azdır.

Bir neçə il ərzində 500-ə qədər böyük şirkətlərin direktorlarının bioqrafiyasını araşdıran mütəxəssislər iyun və iyul aylarında anadan olanların rəhbər vəzifələrdə daha az təmsil olunduğunu müəyyən ediblər. 500 şirkət rəhbərindən yalnız 6 faizi iyunda, 5,8 faizi isə iyulda anadan olublar. Şirkət direktorlarının əksəriyyəti mart və aprel aylarında doğulanlardır.




**QOÇ** - Təxminən saat 14-ə qədər bütün vacib işlərinizi yekunlaşdırın. Çünki sonrakı ərəfə bu istiqamətdə uğursuz ola bilər. Sizə qarşı irad bildirənlərə qarşı dəliqanlı olmayın.

**BUĞA** - Ailə-sevgi münasibətlərində hər şey ürəyinizcə olsa da, fəaliyyət zəminində ciddi xoşagəlməzliklər mümkündür. Ümumiyyətlə, yaxşı olar ki, əsas vaxtınızı evdə keçirəsiniz.

**ƏKİZLƏR** - Bir qədər gərgin gündür. Ətrafınızda sizə mane olmaq istəyənlər arta bilər. Bu səbəbdən də maksimum tədbirli olmalısınız. Hər kəsə inanmayın. Bir anlıq neytral mövqe seçin.

**XƏRÇƏNG** - Həyatınız üçün mühüm olan vəzifələri kimlərinsə mənafeyinə qurban verməyin. İndi yalnız özünüz üçün çalışmalısınız. Aldığınız təklifləri dönə-dönə götür-qoy edin.

**ŞİR** - Əgər səhhətiniz normal deyilsə, bu gün mütləq həkimə müraciət edin. Yoxsa, yatağa düşə bilərsiniz. Gümrah olduğunuz təqdirdə isə ikitərəfli əməkdaşlığa başlaya bilərsiniz.

**QIZ** - Bütün vaxtınızı işə həsr edin. Çünki münasibətlər zəminində elə bir uğurunuz olmayacaq. Olsa-olsa, axşama doğru ürəyinizə yaxın olan adamlara baş çəkə bilərsiniz.

**TƏRƏZİ** - Bir qədər mübahisəli gündür. Çalışın ki, özünənəzarət prinsiplərinə riayət edib təmkininizi qoruyasınız. Səhər saatlarından bürcünüzə daxil olan Ayın neqativ təsirini də unutmamalısınız.

**ƏQRƏB** - Xeyirxah Fikir, Xeyirxah Söz, Xeyirxah Əməl! Müqəddəs Avestadakı bu üç prinsipə sadiq qalın. Gələcəyinizin açarı da məhz bundadır. Nədənsə sizdə Xeyirxah Fikir lazımınca alınmır.

**OXATAN** - Kifayət qədər mistik gündür. Qara qüvvələr ruhunuza müdaxilə edə bilər. Odur ki, bəri başdan tədbirli olun. Nahardan sonra müqəddəs ziyarətgahalara baş çəkməklə rahatlanacaqsınız

**OĞLAQ** - Sevindirici hadisələr yolunuzu gözləyir. Qayğınıza qalanlar xeyli artacaq. Əmin olun ki, bəd günləriniz arxada qalmaqdadır. Ağzıdualı olun ki, İlahinin diqqətini çəkəsiniz.

**SUTÖKƏN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu, daha çox işgüzar əlaqələr zəminində baş verəcək. Saat 16-dan sonrakı ərəfəni isə bütünlüklə sevgiyə həsr edin. Qaba rəftardan uzaq olun.

**BALIQLAR** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz bir çox məqsədlərə nail ola biləcəksiniz. Ələlxüsus da məhəbbət məsələlərində hər şey ürəyinizcə olacaq. Heç kimə yalan vəd verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çinli polislərə gülmək dərsi keçilir



Çində polis olmaq istəyənlərin öyrənməli olduğu ən əsas iş gülməkdir. Çin hökumətinin rəhbərliyi hesab edir ki, çinlilərə yaxşı xidmət göstərmək üçün gülmək vacib şərtdir. Məhz buna görə polis namizədlərə lazımi biliklərlə yanaşı, gülmək də öyrədilir. Ölkənin Liaoning bölgəsindəki polis məmurları keyfiyyətli xidmət üçün "gülümsəmə dərsləri" keçir. Onlara necə gülmək lazım olduğunu öyrətmək üçün ağızlarına çubuq yerləşdirirlər. Dişlərində yemək çubuqları tutaraq müəyyən bir müddət qalan namizədlər lazımi gülümsəməyə sahib olurlar.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600